Xalqın qəzeti!

# Xalq qəzeti

№ 108 (31077) 23 iyun 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azərbaycan – Türkmənistan dostluq-qardaşlığı ikitərəfli və çoxtərəfli əməkdaşlıqla zənginləşir

## Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri

### *Bakıda rəsmi qarşılanma mərasimi*

**İyunun 22-də Azərbaycan Respublikasına dövlət səfərinə gələn Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkmənistan Prezidentinə raport verdi.

Türkmənistanın və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.





## Məğlubların müqəssir axtarışı



Səhifə ⇨ 9

## Özbək xanlığı – Qərbi Sibirdə və Qıpçaq çöllərində qədim türk dövləti



Səhifə ⇨ 13

## Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb



Səhifə ⇨ 7

## Dəyişən dünya nizamı və ABŞ–İran razılaşması



Səhifə ⇨ 10

## Azərbaycan – İordaniya əməkdaşlığı Cənubi Qafqazı Yaxın Şərqlə yaxınlaşdırır



Səhifə ⇨ 8

## Ölkəmizin "beynəlxalq ictimaiyyət" yanaşması



Səhifə ⇨ 8

## Tehranın ikibaşlı Zəngəzur siyasəti

*Yaxud iranlı generalın xəyalı gerçəklik kimi qələmə verməsi*



**Yenə məlum koordinat, yenə köhnə ritorika. Başı ABŞ ilə müharibədən ayılmayan İran hakimiyyətinin yüksək çinli rəsmisinin TRIPP layihəsi (Zəngəzur dəhlizi - red.) ilə bağlı bəyanatı rəsmi Tehranın həm bu prosesin gedişinə, həm də ümumiyyətlə, Azərbaycana münasibətdə qeyri-səmimi davrandığı barədə təsəvvür formalaşdırır. "Ermənistanın cənubundan keçən yolla (TRIPP) bağlı Azərbaycanla aramızda gərgin bir mərhələ olmuşdu. Lakin biz öz mövqeyimizi onlara açıq ifadə etdik. Əgər etiraf etmək gərəkirsə, Azərbaycan bu məsələdə kifayət qədər uyğun mövqe sərgilədi".**

*(ardı 6-cı səhifədə)*

## Ermənistanda da Gürcüstan ssenarisi təkrarlanırmı?



Səhifə ⇨ 9

## Brüsseldə "hegemonluq savaşı"



Səhifə ⇨ 10

## Dübəndidə neft sızması qəzası aradan qaldırılır



Səhifə ⇨ 11

# Azərbaycan və Türkmənistan prezidentlərinin təkbətək görüşü



**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə təkbətək görüşü olub.**

# Liderlərin geniş tərkibdə görüşü



**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə geniş tərkibdə görüşü olub.**

Azərbaycana dövlət səfərinə gəldiyinə görə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova təşəkkür edən dövlətimizin başçısı **İlham Əliyev** bu səfərə çox böyük əhəmiyyət verdiyini, onun ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət göstərəcəyinə əminliyini ifadə etdi.

Qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən geniş gündəliyin olduğunu, bu gün bir çox məsələlər üzrə fikir mübadiləsinin aparıldığını, müzakirələrin nümayəndə heyətlərinin iştirakı ilə davam etdiriləcəyini vurğulayan Prezident İlham Əliyev Türkmənistan Prezidentinin Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etməsindən məmnun olduğunu dedi. Dövlətimizin başçısı Türkmənistan nümayəndə heyətinin üzvlərinin səfər çərçivəsində azərbaycanlı həmkarları ilə səmərəli müzakirələr aparacaqlarına əminliyini bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında imzalanacaq sənədlərin əhəmiyyətinə də toxundu, bunu münasibətlərimizin geniş gündəliyinin göstəricisi kimi qiymətləndirdi.

Füzuli şəhərinə məscid hədiyyə etdiyinə görə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova və Türkmənistana minnətdarlığını bildirən dövlətimizin başçısı bununla bağlı qərarın ötən il Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri çərçivəsində qəbul edildiyini və onun təməlinin Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilmiş Zirvə Görüşü çərçivəsində qoyulduğunu xatırlatdı. Prezident İlham Əliyev Türkmənistan tərəfindən bu məscidin hədiyyə edilməsini ölkələrimiz arasında səmimi qardaşlıq münasibətlərinin daha bir nümayişi olduğunu dedi.

Türkmənistanda Azərbaycanın Mədəniyyət Günləri çərçivəsində yaradıcı kollektivlərimizə göstərilən qonaqpərvərliyə görə türkmən tərəfinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı ötən il ölkəmizdə Türkmənistan Mədəniyyəti Günlərinin keçirildiyini xatırladaraq, humanitar sahədə belə dinamik əməkdaşlığın təbii olduğunu vurğuladı. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini qeyd edən Prezident İlham Əliyev bunun, həmçinin qarşılıqlı fəaliyyətimizdə də mühüm amil olduğunu dedi.

Hazırda qarşıda qlobal gündəlikdə olan məsələlərin - nəqliyyat və enerji təhlükəsizliyinin dayandığını vurğulayan dövlətimizin başçısı bu xüsusda Azərbaycanın və Türkmənistanın həm milli səviyyədə, həm də birgə təşəbbüslər vasitəsilə yalnız regionda deyil, həm də qlobal səviyyədə çox mühüm rol oynadıqlarını, bu rolun gələcəkdə daha da artacağını dedi. Bu xüsusda Azərbaycan Prezidenti qeyd etdi ki, geniş Avrasiya qitəsində geosiyasi proseslərin müsbət inkişafı bir çox hallarda bu sahələrdə sıx qarşılıqlı fəaliyyətimizdən asılı olacaq.

*

Görüşdə çıxış edən Prezident **Sərdar Berdiməhəmmədov** səmimi qəbula, göstərilən qonaqpərvərliyə və Azərbaycana dövlət səfərinə dəvətə görə minnətdarlığını bildirdi.

Türkmənistanla Azərbaycan arasında siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə sıx əlaqələrin qurulduğunu, yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin uğurlu inkişafında mühüm rol oynadığını vurğulayan Sərdar Berdiməhəmmədov ötən il türkmən xalqının Milli Liderinin Azərbaycana, Prezident İlham Əliyevin isə Türkmənistana səfərlərini xatırladaraq, bu görüşlərin siyasi dialoqun, iqtisadi tərəfdaşlığın və humanitar əməkdaşlığın inkişafı üçün yeni istiqamətlər müəyyənləşdirdiyini dedi.

Sərdar Berdiməhəmmədov beynəlxalq arenada, həmçinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və MDB çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı. Ali qonaq Azərbaycanın Türkmənistanın neytral xarici siyasətinə, sülh və davamlı inkişaf naminə irəli sürdüyü beynəlxalq təşəbbüslərə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini deyərək, eyni zamanda, Türkmənistanın da Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini dəstəklədiyini qeyd etdi, bu ənənənin gələcəkdə də davam etdiriləcəyini bildirdi.

Xəzər dənizi ilə bağlı əməkdaşlığa toxunan Türkmənistan Prezidenti təhlükəsizlik, iqtisadiyyat, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində birgə fəaliyyətin hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını vurğuladı. Bu xüsusda Türkmənistanın Xəzər dənizi məsələlərinə dair yüksəksəviyyəli görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini, həmçinin Xəzər Ekoloji Təşəbbüsünün irəlilədilməsi istiqamətində Azərbaycanın dəstəyinə ümid bəslədiyini bildirdi.

Prezident iqtisadi-ticari əməkdaşlığın ikitərəfli münasibətlərin əsas istiqamətlərindən biri olduğunu deyərək, ticarət dövriyyəsində müsbət dinamikanı yüksək qiymətləndirdi. Ali qonaq ölkələrimiz arasında mövcud potensialın daha da səmərəli reallaşdırılması üçün İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinin gücləndirilməsinin vacibliyinə toxundu.

Nəqliyyat-tranzit sahəsini əməkdaşlığın strateji istiqamətlərindən biri kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov Türkmənistanın və Azərbaycanın əlverişli coğrafi mövqeyinin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaratdığını dedi. Bu məqsədlə Türkmənistan-Azərbaycan Nəqliyyat, Tranzit və Logistika Komissiyasının fəaliyyətinin daha da fəallaşdırılmasını təklif etdi.

Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat dəhlizini uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov vurğuladı ki, ölkələrimiz, həmçinin Türkmənistan-Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu üzrə Xəzər dənizi-Qara dəniz nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünü dəstəkləyir. Ali qonaq Xəzər və Qara dəniz regionlarının birləşdirilməsinin iqtisadi, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün yaxşı imkanlar açdığını dedi.

Türkmənistan Prezidenti, həmçinin neft-qaz, kimya, tekstil sənayesi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğuladı. Sərdar Berdiməhəmmədov ölkələrimiz arasında təhsil, elm, mədəniyyət və incəsənət sahələrində fəal qarşılıqlı fəaliyyətin davam etdiyini vurğuladı. Bu xüsusda qarşılıqlı Mədəniyyət Günlərinin, festivalların, sərgilərin və digər tədbirlərin keçirilməsinin xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfə verdiyini qeyd etdi.

Ali qonaq hazırda həyata keçirilən mühüm mənəvi layihələrdən birinə - Füzulidə məscid tikintisinə də toxunaraq, bu təşəbbüsün xalqlarımız arasında dostluğun və qardaşlığın rəmzi olduğunu qeyd etdi.

Türkmənistan Prezidenti səfərinin ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsində mühüm mərhələ olacağına əminliyini bildirdi, dövlətimizin başçısına fəaliyyətində yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və əmin-amanlıq arzuladı.

# "Dostlug" tankerinin Türkmənistana onlayn formatda hədiyyə olunması mərasimi





**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə "Dostlug" neftdaşıyan tankerinin onlayn formatda hədiyyə olunması mərasimi keçirilib.**

Azərbaycan tərəfindən Türkmənistana hədiyyə edilən "Dostlug" neftdaşıyan tankeri Bakı gəmiqayırma zavodunda inşa olunub. Tankerin ümumi uzunluğu 141 metr, eni 16,9 metr, suya oturumu isə 4,54 metrdir. Dedveyti 7875 ton olan tankerin Azərbaycanda inşası gəmiqayırma sənayemizin inkişafını nümayiş etdirməklə yanaşı, Azərbaycan-Türkmənistan dostluq əlaqələrinin inkişafına da töhfədir. Bu, eyni zamanda, Bakı gəmiqayırma zavodunda irihəcmli və texnoloji baxımdan mürəkkəb gəmiqayırma layihələrinin həyata keçirilməsinin mümkün olduğunu bir daha göstərir.




Bu zavodda indiyədək 14 gəminin inşası və 170-dən çox gəminin təmiri layihələri uğurla icra olunub. Hazırda zavodun sifariş portfelinə daxil olan 17 gəmidən 11-nin inşası davam edir, 6 gəmi isə layihələndirmə mərhələsindədir.

# Azərbaycan ilə Türkmənistan arasında imzalanmış sənədlərin mübadiləsi



**Azərbaycan Respublikası ilə Türkmənistan arasında imzalanmış sənədlərin iyunun 22-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə mübadiləsi mərasimi olub.**

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov prezidentlərin Birgə Bəyanatını imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkmənistan arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsi üçün Texniki şərtlər"i Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Türkmənistan Gömrük Xidmətinin sədri Maksat Xudaykulıyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin gömrük statistikası sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Türkmənistan Gömrük Xidmətinin sədri Maksat Xudaykulıyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Türkmənistanın Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov və Türkmənistan Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsinin sədri Allaberdi Saparov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkmənistanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və Türkmənistanın əmək və əhalinin sosial müdafiəsi naziri Muxammetseyit Sılapov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Türkmənistanın Səhiyyə və Tibb Sənayesi Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın səhiyyə naziri Teymur Musayev və Türkmənistanın səhiyyə və tibb sənayesi naziri Mıratberdi Qayıpov mübadilə etdilər.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan ilə Türkmənistan arasında imzalanmış sənədlərin mübadiləsi

*(əvvəli 2-ci səhifədə)*

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın səhiyyə və tibb sənayesi naziri Mıratberdi Qayıpov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2026-2028-ci illər üzrə sənaye sahəsində əməkdaşlıq Proqramı"nı Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın sənaye və tikinti istehsalatı naziri Toyqulı Nurov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Türkmənneft Dövlət Konserninin sədri Quvanç Aqacanov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkmənistanın Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xodcamırat Qeldimıradov mübadilə etdilər.



"Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Türkmənistanın Maliyyə və İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xodcamırat Qeldimıradov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsinin əsas istiqamətləri haqqında Saziş"i Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xodcamırat Qeldimıradov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Türkmənistanın Xarici İşlər Nazirliyi arasında 2026-2029-cu illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov mübadilə etdilər.

# Azərbaycan və Türkmənistan prezidentlərinin mətbuata bəyanatlarla çıxışları

**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Sərdar Qurbanquluyeviç, hörmətli qonaqlar, əziz dostlar. Əziz qonağımızı - dövlət səfərində olan Türkmənistan Prezidentini salamlamaqdan bir daha şadam.

Dəvətimi qəbul etdiyinə və Azərbaycana səfərə gəldiyinə görə cənab Prezidentə bir daha təşəkkürümü bildirirəm. Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək.

Bu gün həm təkbətək, həm də geniş tərkibdə danışıqlar aparıldı. İkitərəfli əməkdaşlığın bir çox məsələləri müzakirə edildi və əməkdaşlığımızın gələcək inkişafı yolları müəyyənləşdirildi.

Qarabağın bərpasında köməyə görə Türkmənistana, əziz qardaşım Arkadağ Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova bir daha təşəkkürümü bildirmək istərdim. O, ötən ilin iyulunda ölkəmizə səfər edərkən Füzuli şəhərində məscidin tikintisi təşəbbüsünü irəli sürdü və artıq tikintiyə başlanılıb. Bu, Türkmənistanın, onun Ümummilli Liderinin və bütün qardaş Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisi idi.

Mən, həmçinin Sərdar Qurbanquluyeviçə əməkdaşlığa görə minnətdaram. Bu gün, artıq qeyd etdiyim kimi, bir çox məsələlər üzrə ətraflı fikir mübadiləsi apardıq. Konkret tapşırıqlar verildi. Əminəm ki, gələn ay Türkmənistanda keçiriləcək Hökumətlərarası Komissiya çərçivəsində bu gün verdiyimiz tapşırıqlar həmin vaxta qədər hərtərəfli işlənib hazırlanacaq və biz yeni birgə problemlərin həlli, yeni layihələrin reallaşdırılması mərhələsinə keçəcəyik.

Münasibətlərimiz möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub. Biz müntəzəm olaraq yaradıcı kollektivlərin çıxışlarını təşkil edirik. Elə bu yaxınlarda, bu ayın əvvəlində həm Aşqabadda, həm də Arkadağda Azərbaycan Mədəniyyəti Günləri keçirildi. Keçən il isə Türkmənistanın mədəniyyət xadimləri həm Bakıda, həm də Gəncədə keçirilən Mədəniyyət Günlərində bizi ziyarət etdilər.

Onu da qeyd etməliyəm ki, Bakı və Aşqabad Arkadağ və Füzuli kimi, qardaş şəhərlərdir. Bütün bunlar bizim birliyimizin nümayişidir. Əməkdaşlığımızı konkret məzmunla zənginləşdirməyə və qarşılıqlı fəaliyyətimizi dərinləşdirməyə çalışırıq.

Həmçinin Türkmənistan tərəfinə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv qəbul edilməsində fəal dəstəyinə görə bir daha təşəkkürümü bildirmək istərdim. Mən buna tarixi hadisə kimi baxıram, çünki coğrafi olaraq Mərkəzi Asiyanın bir hissəsi olmasaq da, mədəni və tarixi əlaqələrimiz, həmçinin bu gün regional qarşılıqlı əlaqə və nəqliyyat-logistika problemləri ilə bağlı həll etdiyimiz konkret məsələlər təbii olaraq böyük Mərkəzi Asiyanın vahid geosiyasi və geoiqtisadi bölgə kimi qəbul edilməsi üçün ilkin şərtlər yaradır. Təbii ki, biz ilk gündən çoxtərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərməyə başladıq.

Bu gün nəqliyyat-logistika sahəsi haqqında da çox danışıldı. Təbii ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq artıq uzunmüddətli xarakter daşıyır, hətta deyərdim ki, bu, təkcə bizim üçün deyil, təkcə qonşularımız üçün deyil, həm də geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir. Çünki bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir. Belə olan halda nəqliyyat və logistika layihələrini siyasi qarşılıqlı fəaliyyətdən təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil. Siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi. Biz isə həm birgə səylərimiz nəticəsində artıq artan yük axınlarını daha da artırmaq, həm də üçüncü ölkələrdən yükdaşımaları cəlb etmək üçün nəqliyyat və logistika sektorundakı fəaliyyətimizi daha da əlaqələndirmək barədə razılığa gəldik. Buna görə də bu sahə təbii ki, həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı fəaliyyətimizin prioriteti olacaq.

Əlbəttə, Türkmənistan və Azərbaycan geniş faydalı qazıntılara və enerji ehtiyatlarına malik iki ölkədir. Belə olan halda biz səylərimizi birləşdirmək üzrə əməkdaşlıq etmək niyyətindəyik.

Əlbəttə ki, qardaş türkmən xalqını və onun rəhbərliyini sosial-iqtisadi inkişafda əldə edilən əhəmiyyətli nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Mən artıq uzun illər ərzində dəfələrlə Türkmənistana səfər etmişəm və qardaş ölkəmizin davamlı inkişafına, şəhərlərin necə yaxşılaşdığına, infrastrukturun, o cümlədən turizmin necə qurulduğuna həmişə əmin olmuşam. Bütün bunlar rəhbərliyin müdrikliyindən və milli maraqların prioritet olmasından xəbər verir. Biz, dostlarınız və qardaşlarınız olaraq, beynəlxalq arena da daxil olmaqla, uğurlarınıza həmişə sevinirik və artıq dünyada geniş ictimai dəstək qazanmış Türkmənistanın neytrallıq siyasətini həmişə dəstəkləmişik və dəstəkləməyə davam edəcəyik.

Hörmətli cənab Prezident, Sizi bir daha salamlayıram və əziz qardaşım Arkadağa və Türkmənistanın bütün xalqına ən xoş arzularımı çatdırmağınızı xahiş edirəm.

***

Sonra bəyanatla çıxış edən Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** səmimi qəbula, qonaqpərvərliyə və birgə iş üçün yaradılan gözəl şəraitə görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirdi, təkbətək və geniş tərkibdə görüşlər zamanı ikitərəfli münasibətlərimizin hazırkı vəziyyətinin və perspektivlərinin müzakirə olunduğunu dedi.



İkitərəfli əməkdaşlığın hazırkı səviyyəsinin yüksək qiymətləndirildiyini qeyd edən ali qonaq ölkələrimiz arasında münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı prinsiplər əsasında dinamik və ardıcıl şəkildə inkişaf etdiyini məmnunluqla vurğuladı.

"İki ölkənin nüfuzlu beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlığı davam etdirməyə hazır olduğu təsdiqləndi. Həmçinin Türkmənistanla Azərbaycan Respublikası arasında sıx qarşılıqlı fəaliyyət Xəzər dənizində bəştərəfli əməkdaşlıq çərçivəsində davam etdiriləcək", - deyən Sərdar Berdiməhəmmədov iqtisadi-ticari əməkdaşlığın da ətraflı müzakirə olunduğunu bildirdi. Energetika, nəqliyyat, kimya, tekstil sənayeləri və bir sıra digər sahələrin prioritet istiqamətlər kimi müəyyənləşdirildiyini qeyd edən Türkmənistan Prezidenti ölkələrimizin ərazilərindən Şərq-Qərb xətti üzrə nəqliyyat və tranzit dəhlizlərinin yaradılmasında sıx əməkdaşlıq etmək barədə razılığın əldə olunduğunu vurğuladı.

Mədəni və humanitar əlaqələrin inkişafına ayrıca diqqətin yetirildiyini bildirən ali qonaq dedi ki, görüşlər çərçivəsində mədəniyyət xadimlərimiz arasında təmasların davam etdirilməsinə və genişləndirilməsinə, həmçinin hər il Mədəniyyət Günlərinin keçirilməsinə hər iki ölkənin hazır olduğu təsdiqlənib.



"Nümayəndə heyətimiz bugünkü görüşün nəticələrini yüksək qiymətləndirir. Görüşün yekunlarına dair ikitərəfli mühüm sənədlər zərfi imzalandı. Türkmənistan və Azərbaycan Respublikası arasında əməkdaşlıq bütün əsas sahələr üzrə inkişaf edəcək. Bu, ölkələrimizin və xalqlarımızın uzunmüddətli maraqlarına cavab verir", - deyə Sərdar Berdiməhəmmədov vurğuladı.

İkitərəfli əlaqələrimizin möhkəmləndirilməsinə Azərbaycan Prezidentinin böyük şəxsi töhfəsini xüsusi qeyd edən Türkmənistanın dövlət başçısı buna görə minnətdarlığını bildirdi.

"Dostlug" neft tankerinin hədiyyə olunmasına görə də təşəkkür edən Sərdar Berdiməhəmmədov bunu ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin rəmzi kimi qəbul etdiklərini vurğuladı, bu tankerin ölkələrimizin tərəqqisinə töhfə verəcəyinə və uğurlu əməkdaşlığımızın daha bir təzahürü olacağına əminliyini ifadə etdi.

Ali qonaq Türkmənistanın Azərbaycanla əməkdaşlığın daha da inkişafına böyük əhəmiyyət verdiyini deyərək, ölkələrimizi və xalqlarımızı əsrlər boyu mehriban qonşuluq ənənələri, ortaq tarix, mədəniyyət, dil və mənəvi dəyərlərin birləşdirdiyini vurğuladı.

"Yekun olaraq qeyd etmək istərdim ki, Azərbaycan Respublikası tərəqqi və çiçəklənmə yolu ilə inamla irəliləyir", - deyən ali qonaq qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və davamlı tərəqqi arzuladı.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Vyetnam dövləti və xalqı adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycanın yaxın dostu olan Vyetnam Sizin rəhbərliyinizlə ölkənin inkişafı, beynəlxalq arenada mövqeyinin möhkəmlənməsi ilə bağlı əldə etdiyi uğurları diqqətlə izləyir və bu nailiyyətlərə sevinir.

Məmnunluqla qeyd edirəm ki, ötən dövr ərzində ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri, strateji tərəfdaşlıq durmadan möhkəmlənir və inkişaf edir. Qəti əminəm ki, Vyetnam ilə Azərbaycan arasında bu təməlla əsaslanan münasibətlər gələcəkdə də inkişaf edəcək, iki ölkənin tərəqqisinə, xalqlarımızın rifahına, bütün dünyada sülhə və inkişafa töhfə verəcək.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti vəzifənizdə böyük uğurlar, Azərbaycan Respublikasına davamlı tərəqqi, xalqınıza firavanlıq arzulayıram. Yaxın vaxtlarda Sizin Vyetnama səfər edəcəyinizi gözləyirəm.

**Hörmətlə,**

***To LAM,***
***Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikasının Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Tatarıstan sakinləri adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizə və ölkənizin bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, dövlətçiliyin daha da möhkəmləndirilməsi işində və çoxşaxəli sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində daim uğurlar arzulayıram. Qoy, Azərbaycan cəmiyyətinin birliyi və qurucuuluqla bağlı güclü əzmi əcdadların tarixi nailiyyətlərinə dair xatirələrlə möhkəmlənərək ölkənin davamlı dinamik inkişafının və firavanlığının təminatı olsun!

Qardaş xalqlarımızın xoşməramlı əməkdaşlıq ənənələrinin gələcəkdə də sarsılmaz qalacağına, habelə Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq maraqları naminə geniş qarşılıqlı fəaliyyətin daha da inkişaf etdiriləcəyinə ümid bəsləyirik.

Sizə, yaxınlarınıza və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi, "Rusiya – İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

# Prezident İlham Əliyevin adından Türkmənistan Prezidentinin şərəfinə dövlət ziyafəti



**İyunun 22-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun şərəfinə dövlət ziyafəti verilib.**

Ziyafətdə Azərbaycan və Türkmənistan musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

# Türkmənistan Prezidentinin Zəfər parkını ziyarəti



**Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 22-də Bakıda Zəfər parkını ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

# Ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram



**Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.**

Türkmənistan Prezidenti Ulu öndərin məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma




**İyunun 22-də Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Prezident İlham Əliyev İordaniya Nümayəndələr Palatası heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycanla İordaniya arasında əlaqələrin dostluq və qardaşlıq üzərində qurulduğunu deyərək, ölkələrimizin hər zaman bir-birinə qarşılıqlı dəstək nümayiş etdirdiyini vurğuladı, siyasi, iqtisadi, humanitar, parlamentlərarası əlaqələr və digər sahələrdə gələcəkdə əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini bildirdi.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçiriləcək 20-ci Sessiyasında Mazen Torki Saud Əl-Qadinin iştirak etməsinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev onun bu səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyini vurğuladı, eyni zamanda, ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün də yaxşı imkan yaratdığını dedi.

Mazen Torki Saud Əl-Qadi İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Kral II Abdullah ibn Al Hüseyni ölkəmizə səfərə dəvət etdi.

Qəbula və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq bunu Azərbaycanla İordaniya arasında mövcud dostluq və qardaşlıq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi.

O, Azərbaycan Prezidentinin və İordaniya Kralının siyasi iradəsi nəticəsində ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etməsini məmnunluqla vurğuladı.

Qonaq Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində bu gün Azərbaycanın gözəl və təhlükəsiz ölkəyə çevrildiyini dedi. O, həmçinin vurğuladı ki, Azərbaycanda mövcud olan sıx xalq-iqtidar birliyi dövlətimizin başçısının həyata keçirdiyi siyasət sayəsində ölkədə ictimai ədalətin təmin edilməsindən xəbər verir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa, həmçinin ərəb və İslam dünyasını narahat edən məsələlərə həmişə böyük diqqətlə yanaşdığını, İslam həmrəyliyini daim dəstəklədiyini vurğulayan Mazen Torki Saud Əl-Qadi ölkəmizin Fələstin məsələsində tutduğu birmənalı və ədalətli mövqeyin yüksək qiymətləndirildiyini dedi.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi münasibətilə bir daha təbriklərini çatdıran qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını vurğuladı.

Mazen Torki Saud Əl-Qadi, həmçinin Bakı şəhərinin gözəlliyinin və təmizliyinin onda zəngin təəssürat yaratdığını qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı öz növbəsində Kral II Abdullah ibn Al Hüseynin rəhbərliyi ilə İordaniyanın da uğurla inkişaf etdiyini dedi.

Azərbaycanın İslam həmrəyliyinə daim dəstək nümayiş etdirdiyini vurğulayan Prezident İlham Əliyev Fələstin məsələsində ölkəmizin Əl-Qüds Əl-Şərif paytaxt olmaqla iki dövlət həll yolunu daim dəstəklədiyini qeyd etdi.

Görüşdə əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü və Qurban bayramı münasibətilə İraq Kürdüstan Regionunun hökuməti adından Zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam.

Bu bayramlar münasibətilə ölkənizə və xalqınıza davamlı tərəqqi, sülh, əmin-amanlıq, xoşbəxtlik və firavanlıq arzulayıram.

İraq Kürdüstan Regionu hökumətinin Azərbaycanla dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın mənafeyi naminə daha da möhkəmləndirilməsinə sadiqliyini bir daha təsdiqləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məsrur BƏRZANİ,***
***İraq Kürdüstan Regionunun Baş naziri***

# H.R.Quliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Hüseyn Rzaqulu oğlu Quliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2026-cı il**

# Əli Əsədovun İordaniya Nümayəndələr Palatasının sədri ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 22-də İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının Bakıda keçirilməsinin əhəmiyyəti qeyd edilib.

Azərbaycan ilə İordaniya arasında münasibətlərin dostluq, qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsipləri əsasında uğurla inkişaf etdiyi bildirilib.

İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın və qarşılıqlı dəstəyin önəmi vurğulanıb.

Söhbət zamanı, həmçinin Azərbaycan ilə İordaniya arasında qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub.

# İordaniya spikeri Milli Məclisdə



**İyunun 22-də ölkəmizdə rəsmi səfərdə olan İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**

Nümayəndələr Palatasının sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar.

Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Geniş tərkibdə görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Azərbaycanın qazandığı uğurlar Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsidir. Milli Məclisin Sədri iki dost və qardaş ölkələr olan Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin yüksək səviyyəyə çatdığını, bu sahədə ölkə başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin mühüm rol oynadığını vurğulayıb.

Sədr ölkələrimiz arasında parlamentlərarası əlaqələrin mövcud səviyyəsini yüksək dəyərləndirib, bu münasibətlərin dərinləşməsində qarşılıqlı səfərlərin rolunu və parlament dostluq qruplarının fəaliyyətini vurğulayıb. O, İordaniya parlamentinin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində yaxından iştirakından məmnunluğunu bildirib.

İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi Azərbaycana səfərə dəvətə və görüşə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyevlə görüşünə dair təəssüratlarını bölüşən qonaq iki ölkə arasındakı münasibətlərin dövlət başçılarımızın təşəbbüsləri və səyləri ilə inkişaf etdiyini vurğulayıb.

Söhbət zamanı, həmçinin parlamentlərin komitələri və dostluq qrupları arasında əməkdaşlıq imkanlarına diqqət yetirilib.

*XQ*

# İordaniya Nümayəndələr Palatasının sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib





**İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadi ölkəmizə rəsmi səfəri çərçivəsində iyunun 22-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Nümayəndə heyəti, həmçinin Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub, Vətən müharibəsində həlak olanların xatirəsini ehtiramla anıb.

*XQ*

# İƏT Parlament İttifaqı Konfransının Bakı sessiyası

**Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının birinci günü başa çatıb.**



Sessiya çərçivəsində Müsəlman İcmaları və Azlıqlar Komitəsinin 5-ci iclası keçirilib.

Türkiyə Böyük Millət Məclisinin deputatı Abdürrahim Dusak bildirib ki, Komitə yarandığı gündən bəri müsəlman icmalarının səsini beynəlxalq platformalara çatdırmağı, qarşılaşdıqları hüquq pozuntularını görünən etməyi və həllyönümlü parlament diplomatiyası mühitini formalaşdırmağı hədəfləyir.

O, Müsəlman İcmaları və Azlıqlar Komitəsinin hesabatını təqdim edib. Nəzərə çatdırıb ki, bu hesabat İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqına üzv olmayan ölkələrdə yaşayan müsəlman icmaların və azlıqların vəziyyətini yerindəcə araşdırmaq, qarşılaşdıqları problemləri müəyyən etmək, yaxşı təcrübə nümunələrini qeydə almaq və beynəlxalq həmrəylik imkanlarını gücləndirmək məqsədilə hazırlanıb.

İclasda İttifaqa üzv ölkələrin parlament nümayəndə heyətlərinin iştirakı ilə müsəlman icmalarının hüquqlarının müdafiəsi, dini və etnik azlıqların təhlükəsizliyi, sosial inteqrasiya və inklüziv cəmiyyətlərin formalaşdırılması ilə bağlı məsələlər müzakirə olunub.

Komitənin müzakirələrində, həmçinin işğal olunmuş ərazilərdə dini və mədəni irsin qorunması, müsəlman icmalarına qarşı diskriminasiya halları ilə bağlı fikir mübadiləsi aparılıb.

Bundan əlavə, komitə çərçivəsində İƏT məkanında və digər regionlarda multikulturalizm, dinlərarası dialoq və qarşılıqlı anlaşmanın gücləndirilməsi, gənclərin və qadınların ictimai həyatda iştirakının artırılması, eləcə də sosial sabitlik və birgəyaşayışın təşviqi məsələləri də müzakirə olunub.

*XQ*

# AŞ Bakı ofisinin rəhbəri XİN-ə çağırılıb

**İyunun 22-də Avropa Şurasının Bakı ofisinin rəhbəri Petr Zix Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüş zamanı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin ölkəmizə qarşı qəbul etdiyi 18 iyun tarixli qərarına dair kəskin etiraz bildirilib, bu qərarın ədalətsiz, qərəzli və beynəlxalq hüququn müddəalarına zidd olduğu vurğulanıb.

"Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 16 iyun 2016-cı il tarixli qərarında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən faktiki işğal olunması, işğalçı rejimin Ermənistanın birbaşa hərbi və maliyyə dəstəyi ilə mövcudluğu təsbit edildiyi halda, hazırkı qərarda həmin ərazilərin müstəqil subyekt kimi "DQR" adlandırılmasının beynəlxalq hüquqa və məhkəmə prosedurlarına zidd olduğu bildirilib.

Bundan əlavə, məhkəmənin məlum qərarında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suverenliyi və ərazi bütövlüyü ilə ziddiyyət təşkil edən terminologiyanın istifadəsinə etiraz bildirilib. "Azərbaycanla "DQR" arasında təmas xətti", eləcə də qondarma rejimin ordusu, hakimiyyət orqanları, baş prokroru və ombudsmanı kimi ifadələrin qərarda yer almasının keçmiş qanunsuz separatçı rejimi legitimləşdirmək cəhdi olduğu bildirilib.

Görüş zamanı Azərbaycan Respublikasının məhkəmənin bu qərarını qəti şəkildə rədd etdiyi, Azərbaycan tərəfinin öz qanuni maraqlarını qorumaq üçün bütün mümkün vasitələri nəzərdən keçirəcəyi və müvafiq addımlar atacağı diqqətə çatdırılıb.

*XQ*

*23 İyun Azərbaycanda Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür*

# Dövlət idarəçiliyində rəqəmsal hökumət

**XXI əsrdə dövlətlərin inkişaf səviyyəsini müəyyən edən əsas amillər sırasında insan kapitalı, innovasiya potensialı, rəqəmsal transformasiya və süni intellekt texnologiyalarından səmərəli istifadə xüsusi yer tutur. Dünyanın inkişaf etmiş ölkələri dövlət idarəçiliyində "rəqəmsal dövlət", "ağıllı hökumət", "məlumat əsaslı idarəetmə" və "proaktiv dövlət" modellərinə keçid edirlər.**

Azərbaycan da Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar nəticəsində bu qlobal transformasiyanın fəal iştirakçısına çevrilib. Son illər dövlət idarəçiliyinin modernləşdirilməsi, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində mühüm nəticələr əldə olunub. Bu gün "ASAN xidmət", "myGov", "ASAN İmza", "SİMA" və "Hökumət Buludu" kimi rəqəmsal platformalar Azərbaycanın texnoloji inkişaf səviyyəsinin göstəriciləridir.

Dövlət idarəçiliyində yeni mərhələnin hüquqi əsaslarından biri Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"dır. Strategiya süni intellekt texnologiyalarının dövlət idarəçiliyində tətbiqinin genişləndirilməsi, müasir infrastrukturun formalaşdırılması və yüksək ixtisaslı insan kapitalının inkişaf etdirilməsi kimi mühüm vəzifələri müəyyən edir.

Hazırda dövlət qulluqçusunun rolu da dəyişir. Müasir dövlət qulluqçusu artıq yalnız qanunvericiliyin icraçısı deyil, eyni zamanda, rəqəmsal texnologiyaları mənimsəyən, məlumatları təhlil edən, strateji düşünən və innovativ həllər tətbiq edən peşəkar idarəçidir.

Müstəqillik illərində həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda klassik bürokratik modeldən müasir rəqəmsal idarəetmə modelinə keçid təmin edilmişdir. Bu prosesin ən uğurlu nümunələrindən biri "ASAN xidmət" modelidir. Şəffaflıq, operativlik və vətəndaş məmnunluğu prinsipləri üzərində qurulan bu sistem artıq beynəlxalq səviyyədə tanınan Azərbaycan brendinə çevrilmişdir.

Dünyada rəqəmsal transformasiyanın növbəti mərhələsi süni intellekt texnologiyalarının dövlət idarəçiliyinə inteqrasiyası hesab olunur. Estoniya, Sinqapur və digər qabaqcıl ölkələr dövlət xidmətlərinin göstərilməsi, sosial siyasətin planlaşdırılması və məlumatların idarə olunmasında süni intellekt imkanlarından istifadə edirlər. Azərbaycan da bu istiqamətdə mühüm addımlar atır. Süni intellekt gələcəkdə dövlət qulluqçularına böyük həcmli məlumatların təhlili, risklərin qiymətləndirilməsi, vətəndaş müraciətlərinin emalı və qərarların hazırlanmasında mühüm dəstək verəcəkdir.

***

Azərbaycanın dövlət idarəçiliyində yeni mərhələdən danışarkən Qarabağ və Şərqi Zəngəzurun rolunu xüsusi qeyd etmək lazımdır. İşğaldan azad edilmiş ərazilər yalnız bərpa və yenidənqurma məkanı deyil, həm də innovativ idarəetmə texnologiyalarının tətbiq olunduğu inkişaf platformasıdır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, rəqəmsal həllər, yaşıl enerji layihələri və müasir idarəetmə yanaşmaları bu ərazilərdə gələcəyin idarəçilik modelinin formalaşdırıldığını göstərir. Lakin bütün bu proseslərin uğuru, ilk növbədə, insan kapitalından asılıdır. Ən müasir texnologiyalar belə peşəkar kadrlar olmadan gözlənilən nəticəni verə bilməz. Buna görə dövlət idarəçiliyinin gələcəyi barədə danışarkən diqqət mərkəzinə bir sual çıxır: yeni dövrün dövlət qulluqçularını kim hazırlayır?

Bu sualın cavabı, ilk növbədə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəaliyyətində öz əksini tapır. Dövlət qulluğu sisteminin inkişafı, peşəkar idarəçi kadrların hazırlanması və dövlət idarəçiliyi sahəsində elmi fikrin formalaşdırılması istiqamətində Akademiyanın fəaliyyəti ölkənin dövlətçilik tarixində xüsusi yer tutur. Xüsusi statusa malik olan Dövlət İdarəçilik Akademiyası öz fəaliyyətini "Bir addım öndə olmaq" prinsipi əsasında quraraq bu sahədə yaranan yeni tendensiyaları vaxtında müəyyənləşdirir və gələcəyin çağırışlarına uyğun kadr hazırlığı həyata keçirir.

Bu gün Akademiya rəqəmsal transformasiya, böyük verilənlər, innovativ idarəetmə və süni intellekt sahələrində ölkənin aparıcı elm və təhsil mərkəzlərindən biri kimi çıxış edir. Akademiyada fəaliyyət göstərən "İntellektual sistemlərin idarə olunması" kafedrası müasir texnologiyaların dövlət idarəçiliyində tətbiqi istiqamətində yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına və elmi tədqiqatların aparılmasına mühüm töhfə verir. Bu istiqamətdə keçirilən elmi-praktiki konfranslar, tədqiqat layihələri və təlim proqramları dövlət idarəçiliyinin gələcək inkişafına xidmət edən mühüm intellektual baza formalaşdırır.

2026-cı ildə Akademiyanın xarici tərəfdaş qurumlarla imzaladığı qarşılıqlı anlaşma memorandumları çərçivəsində Qazaxıstan və Özbəkistanın dövlət qulluqçuları üçün beynəlxalq təlim-tədris proqramları təşkil olunub və keçirilib. Proqram iştirakçıları Azərbaycanın dövlət idarəçiliyi modeli,



rəqəmsal transformasiya siyasəti, qanunvericilik fəaliyyətində rəqəmsallaşma, dövlət xidmətlərinin təşkili və innovativ idarəetmə mexanizmləri ilə yaxından tanış olublar.

Bir və iki həftəlik müddətə təşkil olunmuş təlim-tədris proqramlarında Qazaxıstan və Özbəkistandan olan dövlət qulluqçuları Akademiyanın peşəkar professor-müəllim heyətindən təlimlər almış, praktik təcrübə olaraq dövlət qurumlarında, o cümlədən Milli Məclisdə, ASAN İnnovasiya Mərkəzində, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində keçirilən görüşlərdə iştirak edərək Azərbaycanın innovativ idarəçilik modelinin praktiki nəticələrini yerində öyrənmək imkanı qazanıblar.

Azərbaycan təcrübəsinə marağın daha bir göstəricisi qazaxıstanlı tədqiqatçı alimlərin burada elmi araşdırmalar aparmalarıdır. Onlar Azərbaycanın dövlət idarəçiliyi, insan kapitalının inkişafı, rəqəmsal transformasiya və innovativ idarəetmə sahəsində əldə etdiyi nailiyyətləri öyrənir, bu istiqamətlər üzrə elmi tədqiqatlar həyata keçirirlər. Akademiyanın beynəlxalq nüfuzunun göstəricilərindən biri isə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Partiya Məktəbi (Milli İdarəetmə Akademiyası) ilə əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Dünyanın ən nüfuzlu idarəçilik və siyasi təhsil mərkəzlərindən hesab olunan bu qurum Çinin dövlət idarəçiliyi sistemində və idarəçi elitasının formalaşdığı aparıcı akademik platformadır.

Bu gün Akademiya yalnız dövlət qulluqçuları hazırlayan ali təhsil müəssisəsi deyil, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan müasir Azərbaycan dövlət idarəçiliyi modelinin elmi-nəzəri əsaslarını araşdıran, onu beynəlxalq akademik mühitdə təbliğ edən və gələcəyin idarəçi elitasını yetişdirən nüfuzlu intellektual mərkəz kimi çıxış edir.

23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə əminliklə söyləmək olar ki, Azərbaycan dövlət qulluğu sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub. Rəqəmsal transformasiya, süni intellekt texnologiyaları və innovativ idarəetmə yanaşmaları dövlət idarəçiliyinin gələcəyini formalaşdırır. Bu gələcəyin əsas memarları isə yüksək peşəkarlığa, müasir biliklərə, strateji baxışa və güclü dövlətçilik təfəkkürünə malik Azərbaycan dövlət qulluqçularıdır. Məhz onların fəaliyyəti Azərbaycan dövlətçiliyinin davamlı inkişafının, milli maraqların etibarlı qorunmasının və ölkənin gələcək uğurlarının əsas təminatlarından biri olacaqdır.

*Kəramət QƏNBƏROV,*
*Dövlət İdarəçilik Akademiyası dövlət qulluğu və kadr siyasəti kafedrasının müəllimi*

# Türk dünyasını Avrasiyaya qovuşduran strateji marşrut

## *Bakı və Aşqabadın genişlənən əməkdaşlığı bu dəhlizin gücünü artırır*



**İyunun 22-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun keçirdiyi danışıqlar və mətbuata verdikləri bəyanatların məzmunu göstərir ki, Bakı və Aşqabad, faktiki olaraq, dəyişən Avrasiya geosiyasətində yeni əməkdaşlıq arxitekturasının konturlarını müəyyənləşdirirlər.**

### Azərbaycanın Mərkəzi Asiya strategiyası

Prezident İlham Əliyevin mətbuata bəyanatında diqqətçəkən mühüm məqamlardan biri Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv qəbul olunmasını "tarixi hadisə" kimi qiymətləndirməsi oldu. Uzun müddət Azərbaycan beynəlxalq münasibətlər sistemində əsasən Cənubi Qafqaz dövləti kimi qəbul edilirdi. Lakin dəyişən qlobal geosiyasi reallıqlar fonunda Bakı regional rolunu daha geniş müstəvidə müəyyənləşdirməyə başlayıb. Xəzər dənizi artıq Mərkəzi Asiya ilə Cənubi Qafqazı, oradan isə Avropanı birləşdirən strateji geoiqtisadi məkan kimi qiymətləndirilir. İlham Əliyevin çıxışında səsləndirdiyi "böyük Mərkəzi Asiya" yanaşması da məhz bu yeni baxışın konseptual ifadəsidir. Bu siyasətin arxasında, eyni zamanda, uzunmüddətli strateji hesablamalar dayanır. Bakı Mərkəzi Asiya ölkələri ilə institusional əməkdaşlığı genişləndirməyə çalışır, Xəzəri inteqrasiya platforması kimi təqdim edir və Türk Dövlətləri Təşkilatının (TDT) siyasi formatdan iqtisadi inteqrasiyaya keçidini dəstəkləyən əsas aktorlardan biri kimi çıxış edir. Mövcud strategiyanın əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan xarici siyasətində ənənəvi regional çərçivələri genişləndirərək Avrasiyanın yeni geosiyasi arxitekturasında daha fəal və təsirli rol oynamağa iddia edir.

### Geosiyasətdə nəqliyyat amili

Dövlət başçımızın "Nəqliyyat-logistika layihələrini siyasi qarşılıqlı fəaliyyətdən təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil" fikri bu gün nəqliyyat marşrutlarının dövlətlərin geosiyasi mövqelərini, iqtisadi təhlükəsizliyini və beynəlxalq təsir imkanlarını müəyyənləşdirən strateji alətlərdən birinə çevrildiyi məntiqinə söykənir. Son illər qlobal logistika sistemində yaşanan sarsıntılar bu reallığı daha aydın göstərdi. Rusiyaya qarşı tətbiq olunan sanksiyalar nəticəsində ənənəvi şimal marşrutlarının əhəmiyyəti azaldı, Qırmızı dənizdə təhlükəsizlik problemləri və Süveyş kanalı ətrafında yaranan risklər isə dünya ticarətinin alternativ dəhlizlərə olan ehtiyacını artırdı. Eyni zamanda, Çin ilə Avropa arasında ticarət dövriyyəsinin davamlılığı və təhlükəsiz marşrutlar vasitəsilə təmin olunması qlobal iqtisadiyyatın əsas prioritetlərindən birinə çevrildi. Məhz bu geosiyasi və geoiqtisadi dəyişikliklər Orta Dəhlizin əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artırdı. Marşrutun səmərəli fəaliyyəti isə Xəzər hövzəsində yerləşən əsas tranzit ölkələrin koordinasiyasından birbaşa asılıdır. Azərbaycan və Türkmənistan bu baxımdan Orta Dəhlizin iki əsas dayağı kimi çıxış edirlər. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tam potensialla işləməsi üçün Bakı ilə Aşqabad arasında liman infrastrukturu, bərə daşımaları, gömrük prosedurları və logistika siyasəti üzrə koordinasiyanın gücləndirilməsi həlledici əhəmiyyət daşıyır.

### Türkmənistanın xarici siyasət xətti

Türkmənistanın daimi neytrallıq siyasəti uzun illər beynəlxalq münasibətlərdə daha çox ölkənin regional və qlobal siyasi proseslərdən məsafəli dayanması kimi şərh olunurdu. Lakin son illər dəyişən geosiyasi reallıqlar göstərir ki, Türkmənistanın neytrallıq siyasəti mahiyyət etibarilə yeni məzmun qazanmağa başlayıb. Neytrallıq artıq müxtəlif geosiyasi mərkəzlərlə eyni vaxtda əməkdaşlıq etməyə imkan verən çevik xarici siyasət modelinə çevrilir. Bu kontekstdə Prezident İlham Əliyevin Türkmənistanın beynəlxalq səviyyədə tanınmış neytrallıq siyasətini xüsusi vurğulaması, Azərbaycanın bu siyasətə açıq dəstəyi Aşqabadın regional sabitlik və əməkdaşlıq arxitekturasında oynadığı rola verilən siyasi qiymət kimi dəyərləndirilə bilər. Eyni zamanda, Türkmənistanın neytrallıq siyasəti onu regional iqtisadi layihələrdən kənarda saxlamır. Əksinə, Aşqabad son illər nəqliyyat, logistika və enerji sahələrində fəallığını artıraraq Avrasiyanın əsas bağlantı mərkəzlərindən birinə çevrilmək istiqamətində addımlar atır. Orta Dəhlizin inkişafı, Trans-Xəzər daşımalarının genişlənməsi və Xəzər hövzəsində iqtisadi əməkdaşlığın dərinləşməsi bu siyasətin praktik nəticələri kimi çıxış edir. Bütün bu proseslər göstərir ki, Türkmənistan neytral statusunu qorumaqla yanaşı, regionun geoiqtisadi transformasiyasında da mühüm rol oynamağa başlayıb.

Bununla yanaşı, Aşqabad müxtəlif geosiyasi istiqamətlər arasında balansı qorumağı bacarır. Türkmənistan bir tərəfdən Türk dünyası çərçivəsində əməkdaşlığını genişləndirir, digər tərəfdən Çinlə iqtisadi əlaqələri inkişaf etdirir, eyni zamanda, Xəzər regionunda çoxtərəfli əməkdaşlıq mexanizmlərində fəal iştirak edir.

### Enerji əməkdaşlığında yeni mərhələ

Azərbaycan və Türkmənistan prezidentlərinin bəyanatlarında enerji əməkdaşlığı ayrıca geniş müzakirə mövzusu kimi təqdim edilməsə də, səsləndirilən fikirlər gələcək strateji istiqamətlər baxımından diqqətəlayiq mesajlar ehtiva edir. Prezident İlham Əliyevin "Türkmənistan və Azərbaycan geniş faydalı qazıntılara və enerji ehtiyatlarına malik iki ölkədir. Belə olan halda biz səylərimizi birləşdirmək üzrə əməkdaşlıq etmək niyyətindəyik" fikri iki ölkənin enerji sahəsində əməkdaşlığı yeni geoiqtisadi reallıqlar fonunda qiymətləndirdiyini göstərir. Məlumdur ki, Avropanın enerji təhlükəsizliyi məsələsi qitənin xarici siyasətinin əsas prioritetlərindən birinə çevrilib. Rusiya-Ukrayna müharibəsindən sonra Avropa İttifaqı enerji mənbələrinin və nəqli marşrutlarının diversifikasiyasını sürətləndirib. Bu prosesdə Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə etibarlı təchizatçı kimi mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib. Türkmənistan isə dünyanın ən böyük təbii qaz ehtiyatlarına malik dövlətlərdən biri olaraq hələ tam istifadə olunmamış böyük enerji potensialına sahibdir. Məhz bu baxımdan Bakı ilə Aşqabad arasında enerji sahəsində koordinasiyanın genişlənməsi Avrasiyanın enerji xəritəsində yeni imkanların formalaşması deməkdir.

### Qarabağ diplomatiyası və beynəlxalq tərəfdaşlıq

Prezident İlham Əliyevin çıxışında Türkmənistanın təşəbbüsü ilə Füzuli şəhərində inşa olunan məscidə xüsusi yer ayırması da mühüm siyasi mesaj kimi qiymətləndirilməlidir. Qarabağın bərpası prosesi azad edilmiş ərazilərin beynəlxalq əməkdaşlıq platformasına çevrilməsi istiqamətində aparılan siyasətin tərkib hissəsidir. Türkmənistanın bu prosesdə iştirakı xüsusi simvolik əhəmiyyət daşıyır. Bu, bir tərəfdən Azərbaycan ilə Türkmənistan arasında qardaşlıq münasibətlərinin konkret təzahürü kimi çıxış edir, digər tərəfdən isə Qarabağın bərpasına Türk dünyasının mənəvi və siyasi dəstəyi kimi qəbul oluna bilər. Belə layihələr Azərbaycanın postmünaqişə dövründə beynəlxalq tərəfdaşlıq şəbəkəsini genişləndirdiyini və azad edilmiş ərazilərin inkişafını çoxtərəfli əməkdaşlıq vasitəsilə həyata keçirdiyini göstərir.

### Türk dünyasında iqtisadi inteqrasiya

Bakıda keçirilən görüşün diqqətçəkən cəhətlərindən biri də əməkdaşlığın, bütövlükdə Türk dünyasının inteqrasiya prosesləri kontekstində təqdim olunması idi. Son illər TDT-nin fəaliyyəti daha çox siyasi dialoq, mədəni yaxınlaşma və ortaq kimlik məsələləri üzərində qurulurdu. Lakin hazırkı geosiyasi reallıqlar göstərir ki, təşkilat tədricən iqtisadi inteqrasiyanın da əsas platformalarından birinə çevrilir.

Azərbaycan, Türkmənistan, Qazaxıstan və Özbəkistan arasında nəqliyyat-logistika əlaqələrinin genişlənməsi, Trans-Xəzər marşrutunun inkişafı və yükdaşımalarının koordinasiyası Türk dünyasında vahid iqtisadi məkanın formalaşması istiqamətində mühüm addımlar hesab oluna bilər. Bütün bu proseslər təşkilatın fəaliyyətinə yeni



məzmun qazandırır və onu yalnız ortaq tarixi, dili və mədəniyyəti bölüşən dövlətlərin birliyi deyil, həm də Avrasiyada mühüm iqtisadi aktor kimi formalaşdırır. Əgər bu inteqrasiya dərinləşərsə, TDT gələcəkdə regional iqtisadi əməkdaşlıq sistemində daha böyük çəkiyə malik ola bilər.

Prezidentlərin Bakı görüşü göstərdi ki, Azərbaycan və Türkmənistan münasibətləri artıq klassik ikitərəfli əməkdaşlıq çərçivəsini aşaraq Xəzər hövzəsinin, Orta Dəhlizin və Türk dünyasının geoiqtisadi gələcəyini formalaşdıran strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir. Bu əməkdaşlığın dərinləşməsi yalnız iki ölkənin milli maraqlarına deyil, həm də Avrasiyada yeni nəqliyyat, enerji və iqtisadi inteqrasiya modelinin möhkəmlənməsinə münhüm töhfə verə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Tehranın ikibaşlı Zəngəzur siyasəti

*(əvvəli 1-ci səhifədə)*

Bu sözləri İranın Ali rəhbərinin hərbi müşaviri, İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) keçmiş baş komandanı (1997–2007-ci illər) general Yəhya Rəhim Səfəvi deyib. General bildirib ki, Bakı ilə bu mövzuda yaxşı anlaşma əldə ediblər: "Azərbaycan bizə bildirdi ki, şimal sərhədlərində anti-İran iddiaları mövcud deyil və İrana qarşı heç bir layihədə yer almayacaqlar. Azərbaycan bu məsələdə geri çəkilib (?). Onlar Ermənistandan keçən yolun kimin nəzarətində olmasından asılı olmayaraq Naxçıvana yolun açılmasını istədiklərini bildirdilər".

Y.R.Səfəvi, həmçinin onu da deyib ki, Ermənistan bu mövzuda daha radikal mövqe ortaya qoyub: "Birbaşa sərhədlərə ABŞ mühafizə xidməti adı ilə Amerika əsgərini gətirir. Ermənistan hər dəfə bizə "sizə qarşı heç bir layihədə iştirak etməyəcəyik deyir, amma addımlar bunun əksini göstərir. Xüsusilə dəhliz məntiqi ilə ərazilərin uzaq bir ölkəyə verilməsi yeni təhdid yaradır". Daha sonra iranlı general qeyd edib ki, bölgənin məsələsini region ölkələri qarşılıqlı maraqlar çərçivəsində həll etməlidir: "Region ölkələri ilə, o cümlədən Azərbaycanla münasibətlər düşmənçilik deyil, əməkdaşlıq və sabitlik üzərində qurulmalıdır. Azərbaycanla problemlərimizi müzakirə edərək həll edə bilərik və biz hazırda bunu həyata keçiririk".

Göründüyü kimi, general Səfəvinin açıqlaması qəribə məntiqi ilə seçilir və müəyyən suallar doğurur. Əvvələ, məgər Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı mövqeyində hansısa dəyişikliyi edib? "Azərbaycan bu məsələdə geri çəkilib" – deyəndə rəsmi Tehranın təmsilçisi nəyi nəzərdə tutur? Birləşmiş Ştatlarla gərgin danışıqlar dövründə olan ölkənin ali nümayəndəsinin qonşu ölkənin ünvanına belə radikal açıqlamasının diplomatik izahı varmı? Doğrudanmı Tehran indiki durumunda TRIPP marşrutuna əngəl ola biləcəyini düşünür? Axı, rəsmi Bakı dəfələrlə bəyan edib ki, bu marşrut beynəlxalq əhəmiyyət daşıyır. Yəni Tehran rejiminin pozuculuğu layihənin reallaşmasının qarşısını ala bilməz.

Bununla bağlı XQ-yə açıqlama verən **Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** indiki həssas məqamda İranın Ali rəhbərinin hərbi müşaviri, general Yəhya Rəhim Səfəvinin



dili ilə Zəngəzur dəhlizi ilə bağlı rəsmi Tehranın səsləndirdiyi məlum bəyanatın müəyyən suallar doğurduğunu vurğuladı: "Hesab edirəm ki, bu suallar həm Azərbaycan, həm də Ermənistan tərəfindən cavablar tələb edir. Bunu dəfələrlə demişik: Azərbaycan heç vaxt heç bir dövlətin, o cümlədən qonşu ölkələrin ərazilərinə iddia irəli sürməyib. Üstəlik, rəsmi Bakı onların maraqları ilə üst-üstə düşməyən addımlar atmayıb. Burada söhbət Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yaradacaq dəhlizdən gedir. Əslində, həmin dəhliz uzun illər boyu funksional fəaliyyət göstərib, indi, sadəcə olaraq, onu bərpa etmək istəyirik. Aydın məsələdir ki, əlaqənin bərpa variantı Azərbaycanın maraqlarına cavab verən proses olmalıdır. Buna Ermənistan hökuməti də də anlayışla yanaşır. Əgər indi iranlı general iddia edirsə ki, məlum layihə rəsmi Tehranın maraqlarına ziddir, çünki əraziyə kənar qüvvələr, xarici şirkətlər cəlb olunacaq, bu, artıq onların öz işləridir. Ehtiyac görürlərsə, yoxlasınlar, təhlil etsinlər. Axı, o ərazi üzərindən sərnişinlərin və yüklərin daşınmasına mülki şirkət nəzarət edəcəksə, bu marşrut ABŞ Prezidenti, D.Trampın adını daşıyacaqsa, buradan heç də o nəticə hasil olmamalıdır ki, layihə İrana qarşı atılan hansısa addımdır. Rəsmi Tehran bunu məhz bu cür başa düşməli və düzgün, sağlam yanaşma ilə qiymətləndirməlidir".

*

Ekspertin qeyd etdiyi kimi, öz qonşularına münasibətdə Azərbaycanın mövqeyində hər hansı dəyişiklik baş verməyib. General Səfəvinin söylədikləri anlaşılmaz olduğu qədər də ikibaşlıdır. TRIPP layihəsi ilə bağlı gerçəklik ondan ibarətdir ki, Tehranın bu məsələdə Ermənistanla bağlı narahatlıqları daha çoxdur. İİR-in özünə "düşmən" hesab etdiyi güclər bölgəyə Azərbaycan deyil, özlərinə qardaş sandıqları haylar dəvət edib. General Yəhya Rəhim Səfəvi zəhmət çəkib bu suala cavab versin: onun özünün də daxil olduğu hakimiyyətin SEPAH qanadı "Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir" bəyanatını verəndə nəyi nəzərdə tuturdu? Azərbaycan Zəngəzur dəhlizi mövzusunda bugünədək ikibaşlı deyil, şəffaf və konkret mövqe nümayiş etdirib. Bəli, Azərbaycan haqqı çatanı tələb edir: Naxçıvana quru yol, maneəsiz gediş-gəliş təmin edilsin! Artıq transmilli TRIPP marşrutuna, beynəlxalq yükdaşımalar logistikasına çevriləcək dəhlizin reallaşmasında hansı güclərin maraqlı olduğunu isə Tehran Bakıdan yaxşı bilir.

Fikirlərini davam etdirən professor F.Sadıxov birmənalı şəkildə bildirdi ki, İran hakimiyyətinin məsələyə bu tərzdə yanaşması Azərbaycanın maraqları ilə daban-dabana ziddir: "Bu müstəvidə əsas oyunçu Ermənistandır. Ona görə ki, birincisi, bu marşrut onun ərazisindən keçəcək.



Dəhlizin kimin adını daşıması isə simvolik məna kəsb edən məsələdir. Marşrutun normal fəaliyyət göstərməsi üçün ABŞ və Ermənistan şirkətləri imzaladıqları razılaşmaya əsasən müəyyən işləri görəcəklər. Yəni burada gizli heç nə yoxdur. Bəs İran prosesin indiki həlledici mərhələsində öz maraqlarına qarşı hansı təhlükəni görür? Açığı, bunu başa düşmək çox çətindir. İkinci məsələ isə marşrutun çəkilməsi zamanı müəyyən texniki problemlərin yaranacağı təbiidir. Amma rəsmi Tehranın bu zaman öz maraqları kontekstində hansısa addımları atacağı gözlənilməndir. İntəhası, bu ona gətirib çıxarmamalıdır ki, Azərbaycan Naxçıvana yolun açılmasını yenə neçə illər gözləməlidir".

Ekspert onu da bildirdi ki, əgər rəsmi Tehran bu marşrutun başqa cür adlanmasını, yaxud ABŞ şirkətinin prosesə cəlb olunmamasını istəyirdisə, bunu Ermənistana və Qarabağdakı separatçı rejimə hərtərəfli yardım göstərəndə fikirləşməli idi: "Yəni ədalətli mövqeyi o zaman sərgiləyərdi. Zəngəzur dəhlizinin açılması ilə bağlı İran özü səy göstərməli idi. Azərbaycan Prezidentinin dediyi kimi, bu marşrut mütləq açılacaq. Sadəcə olaraq, müvəqqəti maneçilik cəhdləri bu işi ləngidə bilər".

İranın Ali rəhbərinin hərbi müşaviri, general Yəhya Rəhim Səfəvinin açıqlaması təsadüfi sayıla bilməz. Aydın məsələdir ki, İran narahatdır və bunu bu formada bürüzə verir. Tehran rejimi yaxşı anlayır ki, TRIPP layihəsi onun beynəlxalq yükdaşımalarda payını azalda, rolunu zəiflədə bilər. İntəhası, Bakı və İrəvan dəfələrlə qeyd ediblər ki, Zəngəzur dəhlizindən İran da yararlana bilər. Bu fürsəti düzgün qiymətləndirmək əvəzinə, Hörmüz boğazı kimi beynəlxalq təzyiq alətinə malik cənub qonşumuzun Zəngəzura görə narahatlığı məntiqsiz görünür. Bu marşrut mütləq açılacaq. Ona görə rəsmi Tehran yersiz inadkarlıq göstərməyi buraxıb, bu beynəlxalq layihədən faydalanmaq barədə düşünsün, daha heç bir effekti olmayan təhdid ritorikasını da bir kənara qoysun...

***İ.HƏSƏNQALA***
***XQ***

# Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb

## *Strateji sənəd bölgələrdə müzakirə edilir və yüksək qiymətləndirilir*

## *Şirvan–Salyan iqtisadi rayonu*

**Dünən Biləsuvar şəhərində Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emal sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın icrasının təmin edilməsi məqsədilə Şirvan–Salyan iqtisadi rayonu üzrə növbəti regional müşavirə keçirilib.**






Müşavirə 25 may 2026-cı il tarixində Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında müəyyən edilmiş hədəflərin regionlar üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.




Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov son illərdə Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə ölkədə aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən islahatlar, qəbul edilmiş dövlət proqramları, kənd təsərrüfatına göstərilən dövlət dəstəyi və əldə edilmiş nəticələr barədə danışıb. O bildirib ki, keyfiyyətcə yeni mərhələyə keçidin vacibliyi, aqrar sahədə məhsuldarlığın və rəqabət qabiliyyətinin daha da artırılması yeni yanaşmaların tətbiqini zəruri edir. Prezident köməkçisi qeyd edib ki, 2026–2030-cu illər üçün Dövlət Proqramı kənd təsərrüfatının yeni inkişaf mərhələsini müəyyən edən strateji sənəd kimi çıxış edir. Proqram aqrar sahədə intensiv istehsal modelinə keçidin sürətləndirilməsini, emal və ixrac imkanlarının genişləndirilməsini, eləcə də ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsini nəzərdə tutur.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli bildirib ki, Dövlət Proqramı regionlarda istehsal infrastrukturunun gücləndirilməsi, müasir texnologiyaların tətbiqi və fermerlərin bazarlara çıxış imkanlarının genişləndirilməsini nəzərdə tutur. O qeyd edib ki, suvarma sistemlərinin təkmilləşdirilməsi, torpaq konsolidasiyası və rəqəmsal idarəetmə həllərinin tətbiqi məhsuldarlığın artırılmasına töhfə verəcək. Salyan rayonunun torpaq konsolidasiyası üzrə pilot ərazi kimi seçildiyini diqqətə çatdıran nazir müavini əlavə edib ki, saxlama, emal və logistika infrastrukturunun inkişafı aqrar sektorda dayanıqlı inkişafı və fermer gəlirlərinin artımını dəstəkləyəcək.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin birinci müavini Xəyyam Məmmədov bildirib ki, Şirvan-Salyan iqtisadi rayonunun aqrar və akvakultura potensialının reallaşdırılmasında su ehtiyatlarının səmərəli idarə olunması mühüm əhəmiyyət daşıyır. O, suvarma infrastrukturunun modernləşdirilməsi, su itkilərinin azaldılması, yeni suvarma kanallarının çəkilməsi və kollektor-drenaj şəbəkələrinin təmizlənməsi istiqamətində işlərin davam etdirildiyini qeyd edib. Bildirilib ki, proqram çərçivəsində rəqəmsal monitorinq, dəqiq su uçotu və fermerlərin maarifləndirilməsi prioritet istiqamətlərdən olacaq.








Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov rayonun aqrar sahədə mövcud vəziyyəti barədə məlumat verib. O deyib ki, Biləsuvar pambıqçılıq, taxılçılıq və heyvandarlıq sahələrində ölkənin aparıcı rayonlarından biridir. Aqroparkların fəaliyyəti və müasir suvarma sistemlərinin tətbiqinin istehsalın səmərəliliyinin artırılmasına mühüm töhfə verdiyini qeyd edən rayon rəhbəri əlavə edib ki, Dövlət Proqramı mövcud potensialın daha səmərəli reallaşdırılmasına və istehsal imkanlarının genişləndirilməsinə şərait yaradacaq.

Müşavirədə Biləsuvar, Hacıqabul və Neftçala rayonlarından olan fermerlər və sahibkarlar təsərrüfatlarının mövcud vəziyyəti və ümumi inkişaf istiqamətləri barədə məlumat veriblər. Onlar kənd təsərrüfatına göstərilən dövlət dəstəyinin istehsalın genişləndirilməsi və məhsuldarlığın artırılmasına müsbət təsir etdiyini qeyd ediblər.

Yekunda Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov Dövlət Proqramında müəyyən edilmiş hədəflərə nail olunmasında mərkəzi və yerli icra orqanlarının əlaqələndirilmiş fəaliyyətinin, eləcə də özəl sektorun fəal iştirakının mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, Dövlət Proqramı regionlarda kənd təsərrüfatının dayanıqlı inkişafına, məhsuldarlığın yüksəldilməsinə və emal imkanlarının genişləndirilməsinə mühüm töhfə verəcək. Bildirilib ki, müşavirədə səsləndirilən rəy, təklif və qeydlər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim olunacaq və Dövlət Proqramının icrası prosesində nəzərə alınacaq.

*

**Müvafiq Dövlət Proqramının icrasının təmin edilməsi çərçivəsində kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli XQ-nin suallarını cavablandırdı:**

***– Seymur müəllim, fermerlər üçün hansı yeni güzəşt və dəstək mexanizmləri nəzərdə tutulur?***

– Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar kənd təsərrüfatının inkişafına mühüm töhfə verib. Bu istiqamətdə işlər davam etdirilir və fermerlərin fəaliyyətini daha da stimullaşdırmaq məqsədilə yeni dəstək mexanizmlərinin, kredit və güzəşt alətlərinin tətbiqi nəzərdə tutulur. Bu güzəştlər texnika təminatı, emal müəssisələrinin yaradılması və yeni istehsal sahələrinin qurulmasını əhatə edəcək. Ümumilikdə, aqrar sektor üzrə genişmiqyaslı dəstək və güzəşt mexanizmlərinin tətbiqi planlaşdırılır.

***– Aqrar məhsulların keyfiyyətinin artırılması və ixrac imkanlarının genişləndirilməsi istiqamətində hansı addımlar atılacaq?***

– Keyfiyyətin artırılması əsas prioritetlərdən biridir. Bu məqsədlə intensiv bağların salınması, müasir təsərrüfatların yaradılması və fermerlərin bilik və bacarıqlarının artırılması vacib hesab olunur. Məqsəd məhsulun keyfiyyətinin yüksəldilməsi, sertifikatlaşdırılması və beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsidir. Eyni zamanda, soyuducu anbarların tutumu artırılacaq və ixrac olunan kənd təsərrüfatı məhsullarının logistika xərclərinin təxminən 70 faizi dövlət tərəfindən qarşılanacaq.

***– Gənc və qadın fermerlərin dəstəklənməsi istiqamətində hansı yeniliklər gözlənilir?***

– Dövlət Proqramının əsas hədəflərindən biri aqrar sektoru bütün fermerlər üçün daha gəlirli sahəyə çevirməkdir. Gəlirlilik artdıqca, gənclərin bu sahəyə marağı da yüksələcək və aqrar sektorun inkişafı sürətlənəcək. Məhz gənc və qadın fermerlərin dəstəklənməsi istiqamətində də məqsədyönlü yeni mexanizmlərin hazırlanması önəmini qoruyacaq.

***Nurlan ABDALOV***
***XQ***

***Biləsuvar***

## *Naxçıvan iqtisadi rayonu*

**İyunun 22-də Naxçıvan iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**





Toplantı Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Müşavirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən ardıcıl islahatlar kənd təsərrüfatında istehsal və ixrac potensialının artmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verib. Aqrar sektorda yeni inkişaf mərhələsinə keçidi təmin etmək məqsədilə qəbul edilən Dövlət Proqramı məhsuldarlığın, daxili istehsalın, ixrac imkanlarının və əlavə dəyərin artırılmasını, müasir aqrar xidmətlərin əlçatanlığının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur. Qeyd olunub ki, dövlət tərəfindən təqdim edilən çoxşaxəli dəstək tədbirləri və yeni Dövlət Proqramının yaratdığı imkanlar Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının və sahibkarlığın davamlı inkişafını təmin edəcək.

Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında aqrar sahənin mövcud vəziyyəti, son illərdə görülən işlərdən danışıb, qarşıda duran vəzifələrə və prioritetlərə toxunub. Dövlət Proqramının əsas məqsəd və hədəfləri barədə məlumat verən nazir qeyd edib ki, bu sənəd kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin genişləndirilməsi, emal sənayesinin inkişafı, ixrac potensialının gücləndirilməsi və özəl investisiyaların təşviqinə xidmət edir. Nazir əlavə edib ki, diferensial subsidiya siyasəti, müasir suvarma texnologiyalarının tətbiqi və yeni bağçılıq layihələri regionda kənd təsərrüfatının daha sürətli inkişafı üçün əlverişli imkanlar yaradır.

Məclisin davamında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək, “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nın vizual təqdimatını keçirib. Diqqətə çatdırılıb ki, Dövlət Proqramında fundamental və dəstəkləyici tədbirlər əks olunur.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov su təsərrüfatı infrastrukturunun rəqəmsallaşdırılması, müasir suvarma texnologiyalarının tətbiqi və fermerlərin maarifləndirilməsi istiqamətində görülən işləri vurğulayıb. Bildirilib ki, son illər ölkə üzrə, o cümlədən Naxçıvan Muxtar Respublikasında suvarma infrastrukturunun yenilənməsi, yeni su mənbələrinin yaradılması və müasir suvarma sistemlərinin tətbiqi istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir.

Naxçıvanın kənd təsərrüfatı naziri Rafail Quliyev çıxışında bildirib ki, muxtar respublika məhdud torpaq və su resurslarına malik olmaqla yanaşı, özünəməxsus iqlim şəraiti, əlverişli coğrafi mövqeyi, zəngin kənd təsərrüfatı ənənələri və yüksək əmək potensialı ilə fərqlənir. Naxçıvanın dağlıq və aran ərazilərinin mövcudluğu burada müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafına imkan yaradır. Taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, yemçilik, heyvandarlıq və digər istiqamətlər üzrə mövcud potensialın daha səmərəli istifadəsi Dövlət Proqramının əsas hədəfləri ilə üst-üstə düşür.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov qeyd edib ki, rayon kənd təsərrüfatı məhsullarının istehsalında Naxçıvan Muxtar Respublikasının aparıcı bölgələrindən biri olmaqla bitkiçilik, heyvandarlıq və emal sahələrində mühüm göstəricilərə malikdir.

Müzakirələrdə iştirak edən fermerlər və sahibkarlar kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək, bu sahəyə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Bildirilib ki, Dövlət Proqramında nəzərdə tutulan tədbirlər aqrar istehsalın genişləndirilməsi, emal sənayesinin inkişafı, investisiya imkanlarının artırılması və yeni biznes təşəbbüslərinin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

Müşavirənin yekununda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxış edərək diqqətə çatdırıb ki, Dövlət Proqramında müəyyən edilmiş hədəflərə nail olunması məqsədilə aidiyyəti dövlət qurumları, yerli icra hakimiyyəti orqanları və digər məsul qurumlar tərəfindən zəruri tədbirlər həyata keçirilməlidir. Bildirilib ki, rayonların aqrar potensialı, torpaq və su resursları nəzərə alınmaqla fəaliyyət planları hazırlanmalı, dövlət dəstəyi mexanizmlərinin və investisiya imkanlarının təbliği gücləndirilməlidir.

Aidiyyəti qurumlara Dövlət Proqramının icrası üzrə fəaliyyətin əlaqələndirilməsi, nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin mütəmadi monitorinqi və yaranan problemlərin operativ həlli istiqamətində tapşırıqlar verilib.

***XQ***

# Azərbaycan – İordaniya əməkdaşlığı Cənubi Qafqazı Yaxın Şərqlə yaxınlaşdırır

**Müasir dövrdə Cənubi Qafqaz və Yaxın Şərq regionları arasındakı qarşılıqlı təmaslar beynəlxalq münasibətlər sisteminin mühüm istiqamətlərindən sayılır. İyunun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etməsi məhz həmin geosiyasi dialoqun nəticəsidir. Görüşün əsas qayəsi regional gərginliyin artdığı şəraitdə dövlətlərarası münasibətlərin inkişaf perspektivlərini qiymətləndirməkdən və parlamentlərarası tərəfdaşlığı möhkəmləndirməkdən ibarət idi.**



Yaxın Şərq regionunda hərbi-siyasi böhranın, habelə gərginliyin yüksək həddə çatdığı vaxtda Bakı görüşü müstəsna əhəmiyyət daşıyırdı. İordaniya Haşimilər Krallığı regional münaqişələrin nizamlanmasında və vasitəçilik missiyasında aktiv fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan Cənubi Qafqazda suverenliyini tam təmin etmiş nüfuzlu dövlət kimi beynəlxalq arenada çəkisini getdikcə artırır. Belə vəziyyətdə hər iki tərəfin regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparması qlobal güc balansının tənzimlənməsinə töhfə verir. Tərəfdaşlıq əlaqələrinin siyasi, humanitar və parlament səviyyəsində genişləndirilməsi hər iki tərəf üçün strateji hədəf təşkil edir.

Görüşün diqqətçəkən məqamlarından biri İslam həmrəyliyinin möhkəmləndirilməsi və Fələstin məsələsi ilə bağlı aparılan müzakirələrdir. Ölkəmizin İslam həmrəyliyinə sadiqliyini ifadə edən dövlətimizin başçısı Fələstin probleminin həlli istiqamətində Azərbaycanın beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini diqqətə çatdırdı. Rəsmi Bakı Şərqi Qüds (Əl-Qüds Əl-Şərif) paytaxt olmaqla, iki müstəqil dövlət modelini hər zaman dəstəkləyir. Belə qətiyyətli mövqe Azərbaycanın İslam dünyasında ədalətli və qalıcı sülhün tərəfdarı olduğunu təsdiqləyir. İordaniya rəhbərliyi Qüdsdəki müqəddəs məkanların rəsmi himayədarı qismində çıxış etdiyi üçün sözügedən məsələdə Bakının göstərdiyi siyasi dəstəyi yüksək qiymətləndirir.

Bakıda keçirilməsi nəzərdə tutulan İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası çoxtərəfli parlament diplomatiyasının gücləndirilməsi baxımından əlverişli platformadır. Mazen Torki Saud Əl-Qadinin rəhbərlik etdiyi nümayəndə heyətinin tədbirdə iştirak etmək məqsədilə ölkəmizə gəlməsi İordaniyanın çoxtərəfli əməkdaşlığa verdiyi önəmi təsdiqləyir. Parlamentlərarası əlaqələr dövlət siyasətinin qanunverici səviyyədə möhkəmləndirilməsinə xidmət edir. Dövlət başçısı İlham Əliyev həmin səfərin qanunverici orqanlar arasındakı əməkdaşlığın gələcək perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını vurğuladı. Sessiya çərçivəsində aparılacaq müzakirələr müsəlman ölkələri arasında siyasi əlaqələrin koordinasiya edilməsinə kömək göstərəcək.

İordaniya nümayəndə heyətinin rəhbəri Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işlərini yaxından izlədiklərini bildirdi. “Otuz ilə yaxın işğal altında qalan torpaqların qısa müddətdə yenidən qurulması beynəlxalq miqyasda maraqla qarşılanır. Dağıdılmış şəhərlərin müasir standartlara uyğun tərzdə yenidən qurulması dövlətin siyasi iradəsini və gücünü göstərir” – deyən Mazen Torki Saud Əl-Qadi paytaxt Bakının təmizliyinin, təhlükəsizliyinin və gözəlliyinin onlarda zəngin təəssürat yaratdığını ifadə etdi. Həmin fikirlər Azərbaycanın postmünaqişə dövründə əldə etdiyi sabitliyin və inkişafın beynəlxalq tərəfdaşlar tərəfindən yüksək səviyyədə qəbul olunduğunu sübut edir.

***

Prezident İlham Əliyev İordaniya Kralı II Abdullah ibn Al Hüseynin rəhbərliyi ilə ölkənin uğurla inkişaf etdiyini qeyd etdi. İki ölkə rəhbəri arasındakı qarşılıqlı hörmət və etimad münasibətlərin davamlı inkişafını təmin edir. Azərbaycan Prezidenti Kral II Abdullahı ölkəmizə rəsmi səfərə dəvət etdi. Bu, ali səviyyəli diplomatik təmasların davamlı xarakter daşıdığını və gələcəkdə strateji əməkdaşlığın daha da dərinləşəcəyini nümayiş etdirir. Siyasi iradənin mövcudluğu diplomatik əlaqələrin praktiki müstəvidə reallaşdırılmasını asanlaşdırır. Azərbaycan və İordaniya liderlərinin uzaqgörən yanaşması regionlararası əməkdaşlığın uzunmüddətli təməllərini qoyur.

İordaniya parlamenti sədrinin səsləndirdiyi digər mühüm amil Azərbaycandakı xalq-iqtidar vəhdəti və ictimai ədalətin təmin olunması ilə bağlıdır. Mazen Torki Saud Əl-Qadi qeyd etdi ki, xalq ilə dövlət rəhbərliyi arasındakı sıx bağlılıq həyata keçirilən siyasətin uğurunu təmin edən əsas amildir: “Müasir idarəetmə sistemlərində daxili sabitlik fəal xarici siyasətin aparılması üçün mühüm zəmindir. Daxili sabitliyi təmin olunmayan ölkələrdə uğurlu xarici siyasət yürütmək çətinləşir. Azərbaycanın təhlükəsiz və sabit dövlət kimi çıxış etməsi beynəlxalq arenada rəsmi Bakının mövqeyini daha da artırır. İctimai ədalət və xalqın dövlət siyasətinə verdiyi dəstək milli təhlükəsizliyin qarantı hesab olunur”.

Yaxın Şərqdə münaqişələrin gərginləşdiyi, regional təhlükəsizlik təhdidlərinin artdığı hazırkı dövrdə belə təmasların qurulması regional sülhün qorunması məqsədinə xidmət edir. Azərbaycanın fəal xarici siyasət strategiyası regional və qlobal səviyyədə tərəfdaşlıq şəbəkəsini genişləndirməyə hədəflənir. Sözügedən kontekstdə İordaniya ilə əlaqələr həm ikitərəfli müstəvidə, həm də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində strateji əhəmiyyət daşıyır. Yaxın Şərqdə baş verən hərbi toqquşmalar və humanitar böhranlar fonunda müsəlman ölkələrinin vahid mövqedən çıxış etməsi beynəlxalq hüququn qorunması üçün vacibdir. Azərbaycanın Fələstin məsələsində nümayiş etdirdiyi qətiyyət yalnız bəyanat xarakteri daşımır, eyni zamanda, beynəlxalq təşkilatlarda real diplomatik fəaliyyətlə müşayiət olunur. İordaniya Haşimilər Krallığı da Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh gündəliyini, ərazi bütövlüyünün və suverenliyinin bərpasını dəstəkləyərək qarşılıqlı etimadı təsdiqləyir. Belə qarşılıqlı dəstək beynəlxalq hüququn aliliyinin qorunmasının vacibliyini sübut edir.

Beynəlxalq münasibətlərdə parlament əlaqələri xalqlar arasında əlaqələndirici körpü rolunu oynayır. Qanunverici orqanlar səviyyəsində qurulan münasibətlər dövlətlərarası müqavilələrin və siyasi razılaşmaların hüquqi bazasını möhkəmləndirir. Azərbaycan Milli Məclisi ilə İordaniya Nümayəndələr Palatası arasındakı tərəfdaşlıq hər iki ölkənin qanunvericilik təcrübəsinin mübadiləsinə əlverişli şərait yaradır. İkitərəfli dostluq qruplarının fəaliyyəti siyasi dialoqun daha çevik şəkildə aparılmasına kömək göstərir. Bakıda keçiriləcək sessiya çərçivəsində planlaşdırılan görüşlər parlament səviyyəsində əməkdaşlığın yeni hədəflərini müəyyən etməyə imkan verəcək.

Azərbaycan və İordaniya arasındakı münasibətlər qarşılıqlı etimad, hörmət və əməkdaşlıq prinsipləri üzərində qurulub. Prezident İlham Əliyev və Kral II Abdullahın siyasi iradəsi əlaqələrin inkişafının əsas təminatçısı rolunu oynayır. Mazen Torki Saud Əl-Qadinin rəhbərlik etdiyi nümayəndə heyətinin səfəri və Bakıda keçirilən yüksək səviyyəli müzakirələr iki ölkə arasındakı tərəfdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyən edir. Regionda və qlobal müstəvidə baş verən dəyişikliklərə baxmayaraq, Azərbaycan-İordaniya dostluğu sarsılmaz xarakter daşıyır. Hər iki tərəfin regional sülhün qorunması və beynəlxalq hüququn aliliyinin təmin edilməsi istiqamətində göstərdiyi səylər qlobal təhlükəsizliyə əsaslı töhfə verir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ölkəmizin “beynəxalq ictimaiyyət” yanaşması

## *Ədalətsizlik üçün qlamur platforma yox, daha geniş məkan*



**Prezident İlham Əliyev iyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimindəki çıxışında bir sıra vacib məqamlara toxundu. Yazımızda həmin məqamlardan biri üzərində dayanaraq, dünya düzənindəki ədalətsizlik tendensiyası barədə söz açacağıq. Daha doğrusu, Azərbaycanın bu tendensiyaya qarşı demarşı barədə.**

Beləliklə, dövlət başçımız bildirdi ki, Azərbaycanın müstəqil xarici siyasəti beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb: “Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır. Bəzən “beynəlxalq ictimaiyyət” sözünü eşitdikdə bəziləri düşünür ki, o, inkişaf etmiş ölkələrdən ibarət bir məhdud qrupdur və əgər, belə demək olarsa, bu adı özünə seçən ölkələr tərəfindən belə yanaşılır. Lakin bu, yanlış yanaşmadır”.

Bəli, dünyada “beynəlxalq ictimaiyyət” ifadəsinin qavramı xüsusunda ciddi problemlərin olduğunu görürük və mövcud vəziyyət, mahiyyət etibarilə, ədalətsizliyə yol açır. Buna yol verən isə özünü beynəlxalq ictimaiyyətin təmsilçisi hesab edir. Onlar bu təmsilçiliyi xüsusi imtiyaz halına gətiriblər. Elə bir imtiyaz ki, barəsində söz açdığımız ədalətsizliyi, bir növ, normaya çevirir. Müvafiq olaraq, ədalətsizliyin yazılı sənədlərlə rəsmiləşdirilmək cəhdlərinə də rast gəlinir.

Məsələn, Avropa İttifaqının genişlənmə məsələləri üzrə komissarı Marta Kos bir müddət əvvəl bildirmişdi ki, quruma gələcək üzvlərin hazırkı üzv dövlətlərlə eyni səsvermə hüququna malik olmamasını nəzərdə tutan ideya müzakirə olunur. Bu, o deməkdir ki, istənilən dövlət Aİ-yə daxil olduqdan sonra ittifaqın digər üzvləri kimi eyni öhdəlikləri daşıyacaq, lakin hüquqlar baxımından onlarla bərabər olmayacaq. Belə düşünmək də mümkündür ki, qurumda yeni üzvlərlə bağlı məsələlərə dair qərarların çıxarılmasında onların iştirakları müşkilə çevriləcək. Halbuki, Aİ həmişə bütün üzvlərin vahid qaydalar qarşısında bərabərliyini nəzərdə tutan layihə olub və Kosun hazırkı yanaşması qurumun təməl prinsipini kökündən dəyişir, onu bərabərhüquqlu dövlətlər ittifaqından “birinci dərəcəli” və “ikinci dərəcəli” xalqların birliyinə çevirir. Prezident İlham Əliyevin də üzərində dayandığı məqam, faktiki olaraq, həm də bu kimi mənfi meyillərlə bağlıdır.

Azərbaycan lideri çıxışında onu da bildirdi ki, beynəlxalq ictimaiyyət bütün dünyadan, BMT-yə üzv olan ölkələrdən ibarətdir. Yəni belə demək mümkünsə, dünyanın marta kosların təqdim etdikləri üstünlük sistemi yolverilməzdir. Ancaq BMT-nin də struktur baxımından ədalətsizliyə yol açan düzən olduğunu görürük. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan əbəs yerə dünyanın beşdən böyük olduğunu bildirməmişdi. O, məşhurlaşmış deyimi ilə BMT Təhlükəsizlik Şurasında qərar verən 5 ölkənin əlahiddəliyinin əleyhinə çıxmışdı. Yeri gəlmişkən, Prezident İlham Əliyevin də oxşar fikirləri olub.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun 2023-cü ilin iyulunda Bakıda keçirilmiş Nazirlər görüşündə hazırda beynəlxalq təşkilatların, xüsusilə BMT-nin bəşəriyyətin gözləntilərinə cavab vermədiyini açıqlamış, qurumda ciddi islahatların aparılmasının qaçılmazlığını vurğulamışdı. “Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq. Şadam ki, bu gün bu ideya ilə bağlı dünyada artan konsensus var”, - deyən İlham Əliyev BMT TŞ-də Qoşulmama Hərəkatına bir daimi yerin verilməli olduğunu bildirərək zəngin məzmunlu konkret təklif də irəli sürmüşdü: “Biz bu fikirdəyik ki, QH-yə, İƏT-ə və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar”.

Göründüyü kimi, Aİ-nin də təxminən BMT-dəki əlahiddəliyə can atdığının şahidiyik və bu amilin sırf siyasi məqsədlərdən irəli gəldiyini deməliyik. Diqqət yetirək, Aİ-də Ukraynanın 2030-cu ilədək quruma sürətli üzvlüyünün gerçəkləşdirilməsinin mümkünlüyündən söz açılır. Gürcüstanın Aİ yolunda olduğunu, lakin ölkə iqtidarı ilə qurum arasında problemlərin yaşandığını bilirik. Üstəlik, Ermənistan da ittifaqa can atır və bu canatma müəyyən pozitiv çalarlar qazanır. Çünki ölkəni Cənubi Qafqazda anti-Rusiya qalası kimi təsəvvürə gətirənlər var…

Halbuki, Aİ-nin prinsip kimi qəbul edilən standartları çox yüksəkdir və nə Ukraynanın, nə Gürcüstanın, nə də Ermənistanın təşkilata üzvlük üçün elementar normaları yerinə yetirmək potensialından söz açmaq mümkündür. Bəlkə nə zamansa adları çəkilən ölkələr Aİ-nin fundamental tələblərinə uyğunluq dövrünə qədəm qoyacaqlar. Ancaq məsələ bunda da deyil.

Məsələ ondadır ki, Aİ-yə üzvlüyün özü siyasi alətə çevrilir. İndiki məqamda Ukraynanın, Gürcüstanın və Ermənistanın xüsusunda qurumda təmsilçilik məsələlərinin qabardılması yalnız “piar”a hesablanıb. Marta koslar da durumun fərqindədirlər və buna görə qurum daxilində əlahiddə status müəyyənləşdirməyə çalışırlar. O status ki, ondan yararlanan “birinci dərəcəli” xalqlar “ikinci dərəcəli” xalqlara özlərindən aşağı olduqlarını göstərsinlər. Elə isə sual yaranır: Aİ-yə inteqrasiya etməyə dəyərmi? Sualımız ritorikdir. Əlbəttə ki, Marta Kos kimi çiy təfəkkürlülərin olduqları məkana, hətta boylanmaq belə mənasızdır.

Prezident İlham Əliyevin üzərində dayandığı məqam son dərəcə vacibdir, həm də o səbəbdən ki, hazırda “beynəlxalq ictimaiyyət” ifadəsi, sanki, ədalətsizliyin pərdələnməsi naminə ortaya atılıb. Bu ifadə, müəyyən mənada, haqsızlıq üçün qlamur təqdimat formasıdır. Halbuki, dövlətimizin başçısının yanaşması “beynəlxalq ictimaiyyət”i daha geniş formada götürmək məramına söykənir. Ona görə də İlham Əliyev Azərbaycanın özünü qlamur sayan dar çevrənin deyil, geniş məkanın dəstəyini qazanmasından söz açır: “Dünyanın tam mütləq əksəriyyətinin dəstəyini qazanmaq, artıq söylədiyim kimi, həqiqətən, yalnız bəyanatlar əsasında deyil, praktiki addımlara əsaslanan hörməti göstərir”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistanda da Gürcüstan ssenarisi təkrarlanırmı?




**Hər iki ölkədə seçkilərdə qalib gələn hakimiyyət nəticələrin legitim olduğunu bəyan edib, müxalifət isə seçki prosesinin nəticələrini qəbul etməyərək parlamentdə iştirakdan imtina məsələsini gündəmə gətirib. Hadisələrin zahiri oxşarlığına baxmayaraq, siyasi məzmun və geosiyasi baxımından Ermənistan və Gürcüstan arasında ciddi fərqlər var.**

Ermənistanda hakim "Mülki müqavilə" partiyasının lideri Nikol Paşinyan seçkilərdə 50 faizə yaxın səs toplayaraq parlament çoxluğunu qoruyub saxladı. Amma bu nəticə ona konstitusion çoxluq vermədi. Müxalif "Güclü Ermənistan" və "Ermənistan" blokları seçkinin nəticələrini şübhə altına alaraq Konstitusiya Məhkəməsinə müraciət edib, eyni zamanda, parlament mandatlarından imtina variantını müzakirə etməyə başlayıblar.

Bu mənzərə Gürcüstanda 2024-cü ilin oktyabrında keçirilmiş parlament seçkilərindən sonra yaşanan proseslərlə oxşardır. Həmin seçkilərdə hakim "Gürcü arzusu" partiyası təxminən 54 faiz səs topladığını açıqladı. Müxalifət və prezident Salome Zurabişvili isə nəticələri tanımadı, seçkilərin saxtalaşdırıldığını bildirdi və parlamenti qeyri-legitim saydı. Sonrakı mərhələdə müxalifət parlament fəaliyyətini boykot etdi. Oxşarlıq ondan ibarətdir ki, hər iki ölkədə müxalifət seçkisonrası siyasi mübarizənin əsas aləti kimi parlament boykotunu seçməyə meyillənib. Bu strategiyanın məntiqi parlamentin legitimliyini şübhə altına almaq və hakimiyyət üzərində daxili və beynəlxalq təzyiq yaratmaqdır. Lakin Gürcüstan təcrübəsi göstərir ki, boykot hər zaman gözlənilən nəticəni vermir.

2024-cü ilin noyabrında Gürcüstan parlamenti müxalifətin iştirakı olmadan fəaliyyətə başladı. Hakim "Gürcü arzusu" parlamentdə dominant mövqe qazandı və siyasi qərarların qəbulunda faktiki maneə ilə üzləşmədi. Müxalifət küçə etirazlarına və beynəlxalq dəstəyə ümid etsə də, hakimiyyət dövlət institutları üzərində nəzarəti qorumağa nail oldu. Nəticədə, boykot müxalifətin parlament tribunasını itirməsinə, qərarların qəbuluna təsir imkanlarının azalmasına gətirib çıxardı. Çünki hakimiyyət konstitusion çoxluğa sahib idi.

Bu gün Ermənistanda da eyni sual müzakirə olunur: parlamentdən kənarda qalmaq hakimiyyətə zərbə vuracaq, yoxsa əksinə, onun mövqelərini gücləndirəcək?

Hadisələrin diqqətçəkən tərəfi ondan ibarətdir ki, müxalifətin seçki nəticələrinə etirazı, ilk növbədə, hüquqi müstəvidə aparılır. Bu, əvvəlki illərdə müşahidə olunan küçə etirazlarından fərqli yanaşma hesab edilir. Lakin hüquqi mübarizənin siyasi nəticələri daha geniş ola bilər. Ermənistanın keçmiş ədliyyə naziri Arpine Ovannisyanın açıqlamaları göstərir ki, müxalifət parlamentdə iştirak etməmək qərarına gəlsə belə, bu addım avtomatik olaraq yeni seçkilərə yol açmır. Onun fikrincə, parlament formalaşdırılacaq, lakin siyasi legitimlik problemi qalacaq. Bu halda ölkə uzunmüddətli institusional böhranla üzləşəcək.

İki ölkə arasında əsas fərq geosiyasi müstəvidə ortaya çıxır. Gürcüstanda seçkilər, faktiki olaraq, Avropa İttifaqına inteqrasiya ilə Rusiya təsiri arasında seçim kimi təqdim olunurdu. Qərb institutları və Avropa Parlamenti müxalifəti dəstəkləyirdi. Seçki prosesinə dair narahatlıqlarını açıq ifadə etməklə yanaşı, Gürcüstan hakimiyyətinin legitimliyi ilə bağlı tənqidi bəyanatlar vermişdi. Ermənistanda isə vəziyyət fərqlidir. Burada Qərbə yaxınlaşma siyasəti aparan Paşinyan hakimiyyətdədir, müxalifət deyil. Gürcüstandan fərqli olaraq seçkilərin nəticələrinə etiraz edən əsas qüvvələr daha çox Rusiya ilə yaxın münasibətlərin tərəfdarıdır. Bu səbəbdən beynəlxalq reaksiyanın xarakteri də fərqlidir. ATƏT müşahidə missiyası seçkilərin ümumilikdə rəqabətli şəraitdə keçirildiyini, seçicilərə real seçim təqdim etdiyini bildirdi. Bununla belə, kampaniyanın gərgin və qarşıdurmalı atmosferdə keçdiyini də qeyd etdi.

*

Gürcüstan və Ermənistan təcrübələri arasında əsas fərqlərdən biri də hakimiyyətlərin parlamentdəki güc balansı ilə bağlıdır. Gürcüstanda hakim partiya qanunverici orqan üzərində faktiki tam nəzarəti təmin edərək konstitusion çoxluğa sahibdir. Ermənistanda isə Paşinyan parlamentdə üstünlüyü qorusa da, üçdəiki səs çoxluğunu əldə edə bilməyib. Bu, xüsusilə Konstitusiyada dəyişikliklərin edilməsi, Azərbaycanla sülh sazişinin hüquqi rəsmiləşdirilməsi və digər strateji qərarlar baxımından icra hakimiyyətinin manevr imkanlarını məhdudlaşdırır.

Mövcud parlament arxitekturasına görə, üçdəikidən az səsə malik hakim partiya Konstitusiyaya dəyişiklik edə bilmir və həmin dəyişiklikləri referendumun müzakirəsinə çıxarmaq səlahiyyətinə də sahib deyil. Eyni zamanda, prezidentin vəzifədən kənarlaşdırılması kimi institusional prosedurların təkbaşına həyata keçirilməsi də mümkün deyil. Bununla belə, hakim partiya digər qanunvericilik təşəbbüsləri üzrə yetərli səs çoxluğunu saxladığından, parlamentdə boş yerlər yaransa belə, bir sıra qərarları müstəqil şəkildə qəbul etmək imkanına malikdir.

Bu kontekstdə Baş nazir Nikol Paşinyanın qarşısında iki institusional seçim dayanır: ya mövcud hüquqi boşluğun aradan qaldırılması üçün Konstitusiya Məhkəməsinə müraciət etmək, ya da mandatların digər siyasi qüvvələr arasında yenidən bölüşdürülməsinə imkan verən qanunvericilik təşəbbüsü irəli sürmək. Lakin hər iki variantın reallaşma ehtimalı aşağı qiymətləndirilir, çünki bu addımlar Paşinyanın formalaşdırdığı legitimlik narrativinə təsir göstərə bilər.

Eyni zamanda, müxalifətin mandatlardan imtinası hüquqi və texniki baxımdan mürəkkəb prosedurdur. Qanunvericiliyə əsasən, mandatdan imtina fərdi qaydada, yazılı ərizə ilə həyata keçirilir. Kütləvi imtina hallarında belə, mandatlar avtomatik olaraq hakim partiyaya keçmir və parlament yalnız "Mülki müqavilə"nin qazandığı yerlərlə fəaliyyət göstərir. Beləliklə, iqtidar 64 deputatla təmsil olunur ki, bu da konstitusion çoxluq üçün tələb olunan 70 mandat həddindən aşağıdır.

Bu, Ermənistan müxalifətinin boykot strategiyasını Gürcüstan modelindən fərqləndirən əsas məqamdır. Gürcüstanda boykot hakimiyyətin mövqeyini daha da möhkəmləndirdiyi halda, Ermənistanda parlamentdən kənar müxalifət bəzi strateji qərarların qəbulu prosesinə dolayı təsir göstərmək imkanını saxlayır.

Mövzu ilə bağlı **siyasi şərhçi Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, istənilən inkişaf ssenarisi Ermənistan siyasi sistemi üçün ciddi institusional çağırışlar ya-



radır: "Son aylar həm Ermənistan, həm də Gürcüstanda müşahidə olunan proseslər Cənubi Qafqazda yeni siyasi dinamikanın formalaşdığını göstərir. Seçkilərdən sonrakı mübarizə artıq yalnız küçə etirazları ilə deyil, legitimlik uğrunda hüquqi-siyasi qarşıdurma müstəvisində davam edir. Müxalifətin boykot taktikası hakimiyyətin legitimliyini zəiflətməyə yönəlsə də, Gürcüstan təcrübəsi göstərir ki, bu strategiya hər zaman gözlənilən siyasi nəticəni vermir və bəzən əks-effekt yaradaraq hakim qüvvənin mövqelərini daha da gücləndirir.

Bu mənzərə fonunda Ermənistan müxalifəti qarşısında strateji seçim dayanır: ya Gürcüstan modelinə uyğun olaraq parlamentdən kənar siyasi mübarizəni davam etdirmək, ya da qanunverici orqanda iştirak edərək müxalifət rolunu seçmək. Hər iki halda əsas müzakirə predmeti təkcə mandat deyil, ölkənin siyasi sabitliyi, Azərbaycanla münasibətlərin normallaşması və Ermənistanın gələcək geosiyasi istiqamətinin müəyyənləşdirilməsidir. Buna görə də mövcud müzakirələr taktiki deyil, ölkənin orta və uzunmüddətli siyasi kursunu formalaşdıracaq strateji qərarlar kimi qiymətləndirilir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Məğlubların müqəssir axtarışı

## *Konstitusiya Məhkəməsi davakar tör-töküntüyə nə cavab verəcək?*

**Ermənistanda iyunun 7-də keçirilmiş parlament seçkilərinin prosesi müşahidə edən beynəlxalq qurumların qiymətləndirməsinə görə, demokratik seçki standartlarına əsasən cavab verdiyi bildirilsə və iyunun 14-də yekun nəticələr elan olunsa da, revanşist müxalifət bu istiqamətdə mübahisələrin qızışdırılmasına çalışır. Müxalif düşərgə əsas diqqəti seçki prosesində yol verildiyini iddia etdiyi pozuntuların araşdırılmasına və nəticələrin hüquqi yollarla mübahisələndirilməsinə yönəldib.**





Bu səbəbdən seçkisonrası siyasi qarşıdurmanın əsas ağırlıq mərkəzi məhkəmələrə və aidiyyəti dövlət qurumlarına, xüsusilə Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyinə daşınıb. Müxalifətin hazırda əsas ümid yeri Konstitusiya Məhkəməsidir (KM). Suda boğulan saman çöpündən yapışdığı kimi, müxalifət də seçkilərin nəticələrinin ləğv ediləcəyi və ya yenidən nəzərdən keçiriləcəyi ümidi ilə KM-nin qərarını gözləyir. Dünən yayılan xəbərdə bildirilir ki, KM iyunun 26-da parlament seçkilərinin nəticələrinin ləğvi tələbi ilə bağlı 7 siyasi qüvvənin müraciətinə baxacaq. Bu məhkəmə instansiyasına müraciət edənlər "Güclü Ermənistan" bloku, "Birlik qanadları" partiyası, "Demokratiya. Qanun. İntizam" partiyası, "Çiçəklənən Ermənistan" partiyası, "Respublika uğrunda – demokratiyanın müdafiəçiləri" partiyası, "Ermənistan" bloku və "Yeni güc" Partiyasıdır.

KM-nin bununla yaydığı məlumatda bildirilir: "Qeyd olunan işlərin eyni məsələyə aid olduğunu nəzərə alaraq, "Konstitusiya Məhkəməsi haqqında" Konstitusiya Qanununun 41-ci maddəsinə uyğun olaraq bu işlər bir icraatda birləşdirilib və 2026-cı il iyunun 26-da saat 11:00-da keçiriləcək eyni məhkəmə iclasında araşdırılacaq".

*

Əslində, seçkilərdən sonra Ermənistanda müşahidə olunan mənzərə bir məqamı aydın göstərir. Bu da ondan ibarətdir ki, müxalifət cəmiyyətin geniş təbəqələrini öz arxasınca aparmaq gücündə deyil. Əgər seçkilərin nəticələrinin saxtalaşdırıldığına dair ciddi ictimai inam formalaşsaydı, bunun ilk əlaməti küçələrdə görünərdi. Ermənistan siyasi tarixində bunun nümunələri kifayət qədər çox olub. 2008-ci ildə də, 2018-ci ildə də insanlar öz narazılıqlarını meydanlarda ifadə etmişdilər. İndi isə belə bir mənzərə yoxdur. Seçkilərin nəticələrindən narazı olan özlərini "siyasi lider" adlandıran şəxslər var, lakin onların çağırışına geniş ictimai dəstək müşahidə edilmir. Bu vəziyyət xüsusilə R.Koçaryanın rəhbərlik etdiyi düşərgə üçün ciddi siqnaldır. Uzun illər hakimiyyəti qəsb etmiş və ölkənin böhrana düşməsində məxsusi rol oynamış şəxslərin yenidən hakimiyyətə qayıtmaq planları seçicilərin böyük hissəsində ciddi maraq doğurmur. Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsi keçmiş hakimiyyət nümayəndələrinin geri dönüşünü çıxış yolu kimi görmür. Məhz buna görə seçkilərdən sonra müxalifətin ən fəal addımı küçə mübarizəsi deyil, məhkəmə şikayətləri olub.

Lakin KM-nin qarşısında duran məsələ siyasi deyil, hüquqi xarakter daşıyır. Məhkəmənin seçkilərin nəticələrini ləğv etməsi üçün təkcə narazılıq kifayət etmir. Bunun üçün nəticələrə birbaşa təsir göstərən ciddi və sübuta yetirilmiş qanun pozuntuları ortaya qoyulmalıdır. Hazırkı mərhələdə isə belə miqyaslı faktların mövcudluğu barədə hər hansı inandırıcı mənzərə görünmür. Müxalifətin səsləndirdiyi iddialar daha çox seçki kampaniyasının gedişi və ümumi siyasi mühitlə bağlıdır ki, bunlar da nəticələrin tam ləğvi üçün yetərli əsas hesab edilmir. Həm seçkilərin rəsmi yekunları, həm də ölkədəki mövcud siyasi reallıqlar nəzərə alındıqda, məhkəmənin nəticələri köklü şəkildə dəyişəcək qərar verməsi ehtimalı olduqca zəif görünür.

Digər tərəfdən, seçkilərin yekunları hakim "Mülki müqavilə" partiyasının üstünlüyünü kifayət qədər aydın şəkildə ortaya qoyub. Hakim komandanın əldə etdiyi nəticə ilə müxalif qüvvələrin topladığı səslər arasında ciddi fərq var. Belə bir şəraitdə seçkilərin nəticələrinin ləğv edilməsi yalnız hüquqi deyil, həm də siyasi baxımdan son dərəcə böyük qərar olardı. Ermənistanın hazırkı reallığında bunun baş verməsi ehtimalı olduqca aşağı qiymətləndirilir. Buna görə də iyunun 26-da keçiriləcək KM-nin iclası daha çox seçkisonrası proseslərin formal yekunu kimi görünür. Müxalifət son ümidlərini bu məhkəmə mərhələsinə bağlasa da, prosesin nəticələrinin parlamentdə formalaşmış siyasi mənzərəni dəyişməsi gözlənilmir. Görünən odur ki, seçkilərdə məğlub olan qüvvələr üçün əsas problem məhkəmə qərarlarından daha çox cəmiyyətin etimadını yenidən qazanmaqdır. Ermənistan siyasətində gələcək uğurun açarı da məhz burada axtarılmalıdır.

*

Bu çərçivədə siyasi təhlil xarakterli yazıları ilə ixtisaslaşmış "ArmenianReport" saytında yerləşdirilmiş "Demokratiya müqayisədə: "Ermənistan" bloku aşkar həqiqətləri necə yenidən yazmağa çalışır" sərlövhəli məqalə maraq doğurur. Məqalədə bildirilir ki, seçkilərin nəticələrinin KM-də mübahisələndirilməsi müxalifətin gözlənilən addımı idi. Xüsusilə Koçaryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun seçkilərin nəticələrinin ləğvi tələbi ilə çıxış etməsi siyasi baxımdan sürpriz sayılmır: "Lakin məsələ ondadır ki, səsləndirilən iddiaların miqyası ilə ortaya qoyulan arqumentlər arasında ciddi fərq görünür. Müxalifət seçki prosesində genişmiqyaslı pozuntuların baş verdiyini iddia etsə də, bu fikirlər hələlik beynəlxalq müşahidəçilərin hesabatlarında təsdiqini tapmayıb. Seçkiləri izləyən müxtəlif beynəlxalq missiyalar ümumilikdə səsvermənin demokratik standartlara uyğun keçirildiyini bildiriblər. Bu isə belə bir sual yaradır: əgər müxalifətin iddia etdiyi kimi proses tam şəkildə pozuntularla müşayiət olunmuşdusa, niyə bunu müşahidə edən beynəlxalq qurumlar eyni qənaətə gəlməyiblər? Belə çıxır ki, müxalifət ya bütün müşahidəçilərin yanıldığını, ya da qərəzli mövqe tutduğunu iddia edir. Bu isə kifayət qədər inandırıcı görünmür".

Qeyd edilir ki, əslində, seçkilərlə bağlı mübahisələr yalnız Ermənistana xas hadisə deyil: "Dünyanın ən inkişaf etmiş demokratik ölkələrində belə seçki nəticələri ətrafında ciddi müzakirələr və qalmaqallar yaşanır. Məsələn, 2000-ci ildə ABŞ-da Corc Buş və Albert Qor arasında keçirilən prezident seçkilərinin taleyi Florida ştatında səslərin yenidən sayılması ilə bağlı mübahisələr fonunda həll olundu və son sözü Ali Məhkəmə dedi. Həmin proses Amerika siyasi tarixinin ən mübahisəli seçkilərindən biri kimi yadda qaldı".

Bildirilir ki, Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyan dövrlərində keçirilən seçkilər ətrafında yaranmış qalmaqallar hələ də yaddaşlardadır. Həmin illərdə inzibati resurslardan istifadə, seçki pozuntuları və nəticələrin saxtalaşdırılması ilə bağlı iddialar cəmiyyətin geniş hissəsində ciddi narazılıq doğururdu. Bir çox hallarda seçkilərin nəticələrinə etimad minimum səviyyədə idi: "Bu səbəbdən "Ermənistan" blokunun mövqeyi bir qədər məğlubiyyətin səbəblərini izah etmək cəhdi təsiri bağışlayır. Çünki müxalifətin əsas problemi seçki mexanizmi ilə bağlı deyil, cəmiyyətin böyük hissəsini öz ətrafında birləşdirə bilməməsi ilə əlaqədardır. Seçkilərin nəticələri də məhz bunu göstərdi. KM-nin qarşısında duran məsələ, ilk növbədə, hüquqi xarakter daşıyır. Məhkəmə təqdim olunan faktlar əsasında qərar verəcək. Amma indiki vəziyyət göstərir ki, bu proses hakimiyyət üçün deyil, daha çox müxalifət üçün sınaq xarakteri daşıyır. Çünki əsas sual budur: müxalifət seçicilərin verdiyi qərarı qəbul edib yeni siyasi strategiya quracaq, yoxsa məğlubiyyətin səbəblərini yalnız kənarda axtarmağa davam edəcək?"

Sonda vurğulanır ki, bugünkü Ermənistan bütün problemlərinə baxmayaraq, əvvəlki dövrlərlə müqayisədə fərqli mərhələdədir. "Bu yol asan deyil və çatışmazlıqlar da kifayət qədərdir. Ancaq prosesə bütöv şəkildə baxdıqda ölkənin geriyə deyil, irəliyə doğru hərəkət etdiyi görünür. Buna görə də seçkilərin nəticələrini tamamilə gözdən salmağa yönəlmiş cəhdlərin ciddi nəticə verməsi ehtimalı yüksək deyil. Cəmiyyət artıq əvvəlki illərin siyasi yanaşmalarından daha çox konkret proqramlar və real alternativlər gözləyir", – təhlildə qeyd olunur.

***Səxavət HƏMİD***
***XQ***

# Dəyişən dünya nizamı və ABŞ–İran razılaşması



## II MƏQALƏ

### Sazişdən sonra: ilk risklər

Türkiyə xarici işlər nazirinin ABŞ-İran razılaşması fonunda ehtiyatlı fikirlər irəli sürməsi təsadüfi deyilmiş. Dünya dövlətlərinin bu sənədə münasibəti prizmasında onun səbəblərini görmək mümkündür. İlk növbədə, İran, İsrail və ABŞ "üçbucağında" razılaşma sənədinin bəndləri fonunda hələlik qaranlıq məqamlar müşahidə edilir.

Məsələn, tərəflər texniki çalışmalara başlamaqla bağlı bəndin şərtinə əməl etməmişlər ("Tərəflər razılaşmanın və gələcək öhdəliklərin icrasına nəzarət etmək üçün mexanizm yaratmaq barədə razılığa gəlirlər" bəndi). Əvəzində bir sıra suallar meydana gəlir.

Bundan başqa, D.Vens İsveçrəyə həmin məsələ ilə bağlı səfərinə nədənsə öncədən elan edilmiş müddətdə getmədi. Ekspertlər bunu İran tərəfinin nüvə məhdudiyyəti ilə bağlı nəzərdə tutulan şərtlərə ehtiyatlı yanaşması ilə əlaqələndirirlər. İranın yeni dini lideri M.Xamenei də xalqa müraciətində "başqa fikirdə" olduğunu, lakin hörmətli Prezident M.Pezeşkianın bəzi məsələlərə zəmanət verdiyini ifadə etmişdir. Bu, məsuliyyətdən qaçmaq, yaxud bölüşmək əlamətidirmi? Hələlik aydın deyil.

İsraildən yayılan informasiyalar daha qorxunc təsir bağışlayır. Belə yazırlar ki, B.Netanyahu ümumiyyətlə, ABŞ ilə İran arasında yekun sazişin imzalanmayacağını deyib. Çünki Təl-Əviv buna mane olacaq. İsrailin arqumenti İranın verdiyi sözlərə əməl etməyəcəyi ilə bağlıdır. Bununla əlaqədar bir sıra KİV orqanları prezident D.Trampa Amerikadakı yəhudi lobbisinin ciddi təzyiqlər göstərəcəyindən yazır.

Bunların fonunda İsrail mənbələri Livanın cənubundan İsrail hərbi qüvvələrinin çıxarılmasında D.Trampın israr edə biləcəyini vurğulayırlar. Yəni ABŞ İranla münasibətləri normallaşdırmaq üçün İsraillə ixtilafa girməyə hazırdırmı? Onun əlamətləri görünmür. Əvəzində Ağ Ev yenə də "İbrahim övladları" sazişini müsəlman dövlətlərinin imzalamalı olduğu şərtini təkrarlayır.

Bunlar həm ABŞ-İran-İsrail zəncirində münasibətlərin ziddiyyətli olduğunu, həm də razılaşmanın tam yerinə yetirilməsinə əminliyin yaranmadığını göstərir. H.Fidan bütün bunlara görə praqmatik tezis irəli sürmüşdür. Bu məqamda istiqamətverici siyasi-diplomatik təcrübənin mövcudluğu məsələsi çox aktuallaşır.

### Dominantlıqdan imtina

Görünür, bu şərt hər iki tərəf üçün fundamental məna kəsb edir. Hər hansı ölkə regional və ya qlobal miqyasda dominantlığa cana atacaqsa və onu rəqabət yarışına çevirəcəksə, imzalanan sənəd adi kağız parçası olacaq. Əslində isə indiki vəziyyət tərəflərin dominantlıq xislətindən qaynaqlanır. Bu iddianın razılaşma sənədinin imzalanmasından sonra da qaldığı ilə bağlı şübhələr yaranmışdır. Onun başlıca əlaməti hər iki tərəfin özünü qalib elan etməsində özünü göstərir.

Hansı "qələbədən" söhbət gedir? Ümumiyyətlə, məqsəd səmimi şəkildə dünyanı daha təhlükəsiz hala gətirməkdən ibarətdirsə, kim kimin üzərində qələbə çalır? Hər iki tərəfin özünü qalib elan etməsi, bu anlamda siyasi şüurun militarist mahiyyətinin saxlanması deməkdir. Yəni dərinliklərdə rəqabət və qarşı tərəfi məhv etmək xisləti qalır. Bu da dominantlığın başlıca əlamətidir.

Belə alınır ki, bu cür yanaşmada hələ də öncəki geosiyasi mənzərənin bir sıra cəhətləri özünü göstərir. Tərəflər bir-birinə rəqib kimi baxaraq dominantlıq xəttini davam etdirirlər. Lakin bu, müasir geosiyasətin tələblərinə uyğun deyil və hər hansı uzunmüddətli müsbət nəticə verə bilməz.

Ancaq tərəflər üçün (ABŞ, İsrail, İran) faydalı ola biləcək bir siyasi-diplomatik nümunə var. O, Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırma fəlsəfəsində ifadə olunmuşdur.

### Qalibiyyəti dominantlığa çevirməyən ölkə

Azərbaycan ərazi bütövlüyünü bərpa etmək məqsədini qarşısına qoymuşdu. Burada başqasına qarşı hər hansı təcavüzdən söhbət gedə bilməz. Əksinə, Azərbaycan uzun müddət kənar qüvvələrin ciddi dəstəyi ilə böyük haqsızlıqlar törətmiş bir ölkəyə ədaləti anladandan sonra yüksək humanizm nümayiş etdirmişdir.

Prezident İlham Əliyev hərbi əməliyyatların gedişində belə Ermənistanın dinc yanaşı yaşamaq yolunu seçdiyi halda barış və əməkdaşlığa hazır olduğunu dəfələrlə bəyan etmişdir. Bunun fonunda qələbədən sonra Azərbaycan rəhbərliyinin daim hüquq və ədalət çərçivəsində barış və sülh içində yaşamaq uğrunda qətiyyətli mübarizəsi dünya üçün faydalı siyasi təcrübədir.

Bütün təxribatlara baxmayaraq, Azərbaycanı qələbə əsasında regional dominantlığa sürükləyə bilmədilər. Əksinə, rəsmi Bakı böyük səbir və qətiyyətlə regional sülh, təhlükəsizlik və əməkdaşlığı bərabərhüquqlu olmaq prinsipi əsasında bərqərar etmək xəttini həyata keçirdi. Hətta regionun geosiyasi konfiqurasiyası üçün daha geniş platforma təklif etdi: 1) "3+3" formatı üzrə təhlükəsizlik təmin olunsun. 2) Zəngəzur dəhlizi Orta dəhlizin tərkib hissəsi statusunda nəqliyyat-logistika və əməkdaşlıq məkanı qismində yeni geosiyasi element kimi qəbul edilsin.

### Ciddi geosiyasi anlam

Birincisi, Azərbaycan praktiki olaraq hərb meydanında birmənalı və tam qalibiyyətini zərrə qədər də öz dominantlığı üçün istifadə etmədi. Bu, böyük siyasi-diplomatik seçim, iradə və humanistlik əlamətidir. ABŞ/İsrail-İran hərbi qarşıdurmasının isə real qalibi yoxdur, lakin bir neçə dövlət buna iddialıdır. O iddia üzərində də dominant olmağa canatmalar özünü göstərir. Bizcə, Azərbaycan nümunəsindən öyrənmək olar.

İkincisi, Azərbaycan-Türkiyə tandemi daha geniş geosiyasi məkanda dominantlığı və rəqabəti deyil, qarşılıqlı faydalı əməkdaşlığı təşviq etməkdədir. Artıq bu istiqamətdə də iki qardaş dövlətin müsbət nəticə verən təcrübəsi mövcuddur. Mərkəzi Asiyadan tutmuş Yaxın Şərq, Balkanlar və Cənubi-Şərqi Avopaya qədər geniş məkanda həmin təcrübənin nümunələri var.

Ayrıca, ABŞ prezidenti Türkiyəyə İran məsələsində ciddi rol oynadığına görə xüsusi təşəkkürünü bildirmişdir. Belə alınır ki, şərti olaraq "türk sülh yaratmaq təcrübəsi" adlandıra biləcəyimiz nümunədən Tehran, Təl-Əviv və Vaşinqton faydalana bilərlər.

Gec və ya tez bunun belə olacağına şübhə etmirik. Adını başqa cür qoysalar da, Azərbaycan və Türkiyənin bu istiqamətdə təcrübələri çox faydalı olacaq və qazandıracaqdır.

### İkinci təcrübə: Azərbaycanın infrastruktur diplomatiyası

Bu, çox faydalı və dərin geosiyasi təhlilə ehtiyacı olan məsələdir. Çünki o, həm regional, həm də regionlararası miqyaslarda müsbət tətbiq təcrübəsini ehtiva edir. Azərbaycan infrastruktur diplomatiyasını Cənubi Qafqaz regionu miqyasında sistemli və praktiki nəticəverici formada tətbiq etməkdədir, müsbət nəticələri göz qabağındadır.

Məsələn, Ermənistanla ticarət əlaqələrinin dinamik genişləndirilməsi, onun faktiki olaraq yeni səviyyəyə yüksəldilməsi, Gürcüstanla Bakı-Tbilisi-Qars nəqliyyat-logistika marşrutunu, bütövlükdə, regionun inteqrasiyası və faydalanması müstəvisinə çıxarması. Hazırda regionun əməkdaşlıq və təhlükəsizlik fəlsəfəsi məhz Azərbaycanın bu kimi siyasi-diplomatik töhfələri konkret olaraq infrastruktur diplomatiyası üzərində bərqərar olur.

Sualı Cənubi Qafqaz kontekstində belə müəyyənləşdiririk: İranı bu infrastruktur şəbəkəsi yaratmaq prosesinə cəlb etməyin faydası ola bilərmi?

Nəinki faydası ola bilər, hətta İran və regionun hər bir ölkəsi üçün bu, strateji zərurətdir! Azərbaycan-Türkiyə tandemi regional geosiyasi və əməkdaşlıq dinamikası fonunda bunu bacaracaq. Bu da razılaşma sazişinə Cənubi Qafqaz miqyasında fundamental praktiki əhəmiyyəti olan töhfədir.

Ancaq Azərbaycanın infrastruktur diplomatiyasının barış, sülh və perspektivli əməkdaşlıq kontekstində razılaşma sazişinə yardımı bununla məhdudlaşmır. Sazişin bəndlərindən ikisini xatırladaq:

"- ABŞ regional tərəfdaşları ilə birlikdə İran iqtisadiyyatının bərpası və inkişafı üçün ən azı 300 milyard dollar maliyyələşdirmə təmin ediləcək hərtərəfli plan hazırlayacaq.

- Bu planın icra mexanizmi 60 gün ərzində son razılaşma ilə eyni vaxtda hazırlanacaq".

Ayrılacaq 300 milyard dollar həcmində sərmayə qoyuluşu ilə hansı strateji viziyon üzrə İran iqtisadiyyatını elə bərpa etmək və inkişaf etdirmək doğru olardı ki, birincisi, ölkənin dinamik sosial-iqtisadi infrastrukturunun yeniləşməsinə xidmət etsin, ikincisi, İran siyasi və ictimai şüurunda yer almış militarist əlamətlər minimuma ensin? Çünki gerçəkdən bu iki nəticə olmasa, növbəti ixtilafda trilyonlar da vəziyyəti düzəldə bilməyəcək.

Deməli, İranda, İsraildə, Qərbdə və hətta Rusiya və Çində ictimai şüurun militarist əlamətlərinin yox olunması strateji baxımdan vacib məsələdir. Bu istiqamətdə Azərbaycan-Türkiyə və daha geniş miqyasda Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən infrastruktur diplomatiyasının fəlsəfəsi yardımçı olar.

Burada Azərbaycan nümunəsi aparıcı rol oynaya bilər. Cənubi Qafqaz kontekstini yuxarıda vurğuladıq. Bu təcrübənin bir tərəfi qonşu kimi İrana faydalıdır. Digər yandan isə Azərbaycanın infrastruktur diplomatiyası təcrübəsinin Çin də daxil olmaqla Türk Dünyası və Avropa, Yaxın Şərq miqyaslarında konkret müsbət nəticələr verən təşəbbüsləri mövcuddur. Şübhə yoxdur ki, ABŞ-İsrail-İran şərti "geosiyasi üçbucağı" aspektində də həmin təcrübə çox faydalı ola bilər. 300 milyard dollarlıq sərmayə qoyuluşunun (və ondan sonrakı mərhələdə sərmayə qoyuluşlarının) fəlsəfi, siyasi, iqtisadi və geosiyasi bəhrələri Azərbaycan təcrübəsinin tətbiqi sayəsində əməkdaşlıq, sülh və təhlükəsizliyin təmininə xidmət edə bilər.

Nəhayət, ABŞ, İsrail, İran münasibətlərinin konstruktivliyinin Cənubi Qafqaz konteksti də çox əhəmiyyətlidir. Çünki bu region üçün faydalı olmayan hər hansı razılaşma bünövrəsiz binaya bənzəyəcək. İran bütün hallarda Cənubi Qafqazın geosiyasi identikliyinin bir parçasıdır. Bu prizmada "3+3" çox əhəmiyyətli və maraqlıdır. Onun razılaşma sazişi fonunda təhlili vacibdir.

### Üçüncü təcrübə: Azərbaycanın regional təhlükəsizlik modeli

"3+3" modeli çoxçalarlı anlama malikdir. Onlardan biri Cənubi Qafqazın təhlükəsizlik və əməkdaşlıq aspektlərində "yaşıl region"a çevrilməsindən ibarətdir. İran kontekstində bu o deməkdir ki, Tehran regionun güclü dövlətlərindən biri kimi, həm "3+3"ün üzvü olmalı, həm də bu region üçün məsuliyyət daşıyan böyük dövlətlərdən biri olaraq fəallıq göstərməlidir. O mənada ki, İranın həmin platformanın reallaşmasında nüfuzu az olmamalıdır.

Buradan avtomatik olaraq, razılaşma sazişi kontekstində İrana sərmayə qoyuluşu və onunla yanaşı, yeni infrastrukturunun səmərəli şəkildə yaradılması aspektlərində mövcud praktiki səmərəsi olan təcrübədən yararlanması zərurəti meydana çıxır. Bu baxımdan Azərbaycan Cənubi Qafqaz və TDT miqyasında həyata keçirdiyi infrastruktur diplomatiyası ilə "3+3" arasında bağlılığı təmin edə bilər. Bu da İranın inkişafı və təhlükəsizliyini həm regional, həm də qlobal kontekstə daxil etməyin praktiki səmərəli yoludur.

Aydındır ki, Azərbaycan təcrübəsinin təməlində enerji və nəqliyyat-logistika təcrübələrinin regionun hər bir dövlətinin milli təhlükəsizlikləri ilə uyğunlaşdırılması xətti dayanır.

Beləliklə, ABŞ/İsrail-İran qarşıdurmasının sona çatması üçün artıq mövcud olan təcrübələrdən istifadə etmək faydalı olardı. Əlbəttə, burada riskləri, mümkün təxribatları, geosiyasi maneələri, diplomatik pozuculuğu və digər neqativ faktorları nəzərə almaq vacibdir. Lakin tərəflər səmimiyyətlə davam etmək istəsələr, qarşıya qoyulan əməkdaşlıq və təhlükəsizliyə nail olmaq üçün kifayət qədər potensial var.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Avropa İttifaqı liderlərinin Brüsseldə bir araya gəldiyi zaman İspaniyanın daxili miqrasiya siyasəti gözlənilmədən gündəliyin ən isti mövzularından birinə çevrildi. İtaliyanın Baş naziri Corcia Meloni diqqətçəkən bir addım ataraq həmkarı Pedro Sançezi birbaşa tənqid atəşinə tutdu. Məsələnin kökündə Madridin ölkədə qalan təxminən 500 min sığınacaq axtaran şəxsə leqal status vermək qərarı dayanırdı. Prosesin yalnız İspaniyaya aid olmadığını, bütün Avropa üçün ciddi nəticələr doğura biləcəyini iddia edən Meloniyə görə, qərar müttəfiqlərlə əvvəlcədən müzakirə edilməli idi.**

# Brüsseldə "hegemonluq savaşı"

## *Aİ-nin miqrasiya siyasətində kimin sözü keçərlidir?*



### Qapalı otaqda açıq mübarizə

Meloni İspaniyanın miqrasiya qərarını müzakirəyə çıxarmaqla bildirdi ki, leqallaşdırma addımına "barmaqarası" baxmaq olmaz. Çünki Aİ daxilindəki sərbəst hərəkət hüququ sayəsində leqal status almış hər bir şəxs nəzəri cəhətdən istənilən üzv dövlətə keçid edə bilər. Sançez isə bu narahatlıqlara qəti şəkildə etiraz edərək leqal status almış miqrantların böyük hissəsinin Latın Amerikasından olduğuna diqqət çəkib. Görünür, ispaniyalı nazir bu arqumentlə sözügedən məsələnin Avropa qitəsinə dəniz yolu ilə keçən nizamsız köç dalğaları ilə birbaşa əlaqəsinin olmadığını vurğulamaq istəyib. Sammitdən sonra da İspaniya hökuməti öz mövqeyini dəyişməyib. Rəsmi Roma isə hadisəni böyütməkdən çəkinib. Ölkə rəsmiləri görüşü "adi lider müzakirəsi" kimi xarakterizə edərək, bunun hər hansı bir qarşıdurma olmadığını söyləyiblər. Lakin diplomatik dairələr fikir mübadiləsini Aİ-dəki miqrasiya gərginliyinin son əlamətlərindən biri kimi dəyərləndiriblər.

Yeri gəlmişkən, Aİ mühüm qanunvericilik dəyişikliyini də rəsmiləşdirib. Üzv dövlətlərə sığınacaq müraciəti rədd edilmiş şəxsləri üçüncü ölkələrdəki xüsusi mərkəzlərə göndərməyə icazə verən mexanizm qəbul edilib. Birliyin bu addımının əsas məqsədi deportasiya prosesini sürətləndirmək, ölkəni tərk etməyə məcbur olanların qaytarılma prosesini idarəolunan hala gətirməkdir. Yeni mexanizmdən neçə ölkənin faktiki olaraq yararlanacağı hələlik bilinməsə də, Aİ üzvlərinin mühüm hissəsi sözügedən istiqamətdə addım atmağa hazır olduğunu artıq bəyan edib. Birlik daxilindəki 27 üzvdən 19-u Danimarka ilə İtaliyanın birgə hazırladığı məktuba imza atıb. Həmin sənəddə üçüncü ölkələrdəki saxlama mərkəzlərini daha fəal istifadə etmək çağırışını əks olunur. Sənəddə qeyd olunur: "Ölkələrimiz artıq mövcud imkanlardan, o cümlədən üçüncü ölkələrdə saxlama obyektlərinin yaradılmasından istifadə etmək yolunda ciddi addımlar atır. Biz bu prosesə şəxsən rəhbərlik etməyə hazırıq".

### İki fərqli Avropa

Brüsseldə baş verənlər Aİ-nin miqrasiya siyasəti üzrə dərinləşən fikir ayrılıqlarını bir daha göz önünə sərib. Yazının əvvəlində vurğuladığımız kimi, məsələnin bir tərəfində İspaniya, digər tərəfində isə İtaliya dayanır. Madrid üçüncü ölkələrdəki saxlama mərkəzlərinin yaradılmasına prinsipial olaraq qarşı çıxır. Hökumətin arqumentinə görə, bu cür strukturlar hüquqi dolaşıqlıq yaratmaqla yanaşı, insanlığa sığmayan şəraitə zəmin hazırlayar. İtaliya, Danimarka və onlarla həmfikir olan ölkələr hesab edirlər ki, nizamsız köçün qarşısını almaq üçün sərt tədbirlər şərtdir. Deportasiya mərkəzləri bu yolda əvəzolunmaz alətdir. Meloninin Brüsseldəki çıxışı məhz həmin məntiqin davamı olaraq başa düşülə bilər. Bir məqamı da qeyd edək ki, İspaniyanın miqrantlara leqal status verməsi ittifaqın siyasəti ilə ziddiyyət təşkil edir. Maraqlıdır ki, Sançez sammit zamanı öz yanaşmasını müdafiə edərkən İspaniyanın son aylardakı göstəricilərinə istinad edib. Onun sözlərinə görə, ölkənin tətbiq etdiyi siyasət effektiv nəticə verməkdədir. Rəsmi məlumatlara əsasən, cari ilin birinci rübündə İspaniyaya yönəlmiş qeyri-qanuni miqrant axını nəzərəçarpacaq dərəcədə zəifləyib. Daha dəqiq desək, Madridin seçdiyi yol mərkəzçi Avropa ölkələrinin qəbul etdiyi sərt xətdən fərqli olsa belə, öz nəticəsini verir.

### Oktyabr gündəliyinə miqrasiya əlavəsi

Sammitdəki gərginliyin başqa bir fonu da var. Bu günlərdə Avropa Parlamentinin sədri Roberta Metsola sığınacaq müraciəti rədd edilmiş şəxslərin deportasiyasını daha tez icra etməyə imkan verən qanun layihəsini uğurla həyata keçirdi. Danimarkanın Baş naziri Mette Frederiksen bu addımı alqışlayaraq Metsolanı şəxsən təbrik etdi və bu prosesin irəliləməsindəki rolunu xüsusi olaraq vurğuladı. Frederiksenin ardıcıl təzyiqləri sayəsində miqrasiya məsələsi indi rəsmi olaraq oktyabr ayında keçiriləcək Avropa Şurası iclasının gündəliyinə salınıb. Şübhəsiz, sözügedən qərar çox əhəmiyyətlidir. Çünki Aİ liderlərinin miqrasiya mübahisəsi artıq mövsüm başa çatdıqdan sonra da öz aktuallığını qoruyub saxlayacaq.

Sonda bu nəticəyə gəlmək olar ki, cərəyan edən hadisələr Aİ-nin miqrasiya siyasəti ətrafında ortaq məxrəcə gəlməkdə çətinlik çəkdiyini bir daha sübuta yetirdi. Hazırda İspaniya inteqrasiya yolunu seçərkən, ittifaqın böyük hissəsi kənarlaşdırma istiqamətinə üz tutub. Mövcud vəziyyəti analiz etdikdə, fərqli mövqelərin hələ xeyli müddət bir-biri ilə toqquşmağa davam edəcəyi görünür.

***Nəzrin ELDARQIZI***
***XQ***

---

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Corcia Meloni ilə Pedro Sançez arasında miqrasiya məsələsindəki fikir ayrılıqları Avropa İttifaqının miqrasiya siyasətində uzun illər mövcud olan struktur parçalanmanı nümayiş etdirir. İtaliyanın Baş naziri Corcia Meloni qeyri-qanuni miqrasiyanın sərt şəkildə məhdudlaşdırılmasını, xarici sərhədlərin gücləndirilməsini və miqrantların Avropaya çatmamış üçüncü ölkələrdə saxlanılmasını müdafiə edir. İspaniyanın Baş naziri Pedro Sançez isə miqrasiyaya daha humanitar və iqtisadi yanaşmanın tərəfdarıdır, əmək bazarının ehtiyaclarını və qanuni miqrasiya kanallarını ön plana çıxarır. Fərqli yanaşmalar Aİ daxilində vahid miqrasiya strategiyasının formalaşdırılmasını çətinləşdirir və üzv dövlətlər arasında həmrəylik mexanizmini zəiflədir.

Daha geniş mənada isə mübahisə Avropa İttifaqının gələcəyi ilə bağlı ideoloji xəttin bir hissəsidir. Cənubi Avropanın sərhəd ölkələri daha çox təhlükəsizlik və yük bölgüsü tələb etdiyi halda, bəzi hökumətlər miqrasiyanı demoqrafik və iqtisadi problemlərin həlli vasitəsi kimi görür. Nəticədə Brüsselin qəbul etdiyi qərarların icrasında ləngimələr yaranır, populist və avroskeptik qüvvələr üçün əlavə arqumentlər formalaşır. Birlik üçün əsas risk ondan ibarətdir ki, miqrasiya məsələsi təkcə sərhəd təhlükəsizliyi deyil, həm də siyasi həmrəylik sınağına çevrilir və Meloni–Sançez xəttində görünən fikir ayrılıqları gələcəkdə Aİ-nin xarici siyasət, təhlükəsizlik və inteqrasiya gündəminə də təsir göstərə bilər.

*Aqrar proqramın hədəfləri*

# “Baba bulağı”nın çay çeşməsi

## *Masallıda müasir çayçılıq təsərrüfatı*



**Çay dünyada çox geniş yayılmış bitkilərdəndir. Çin, Hindistan, Şri-Lanka kimi iri miqyasda çayçılıqla məşğul olan ölkələrlə yanaşı, digər dövlətlər də çayçılığın inkişafına böyük sərmayə qoyurlar. Ölkəmizdə isə cənub bölgəsinin Xəzərboyu ərazilərində, əsasən, Masallı, Lənkəran və Astara rayonlarında çayçılıq aqrar sahənin mühüm istiqamətlərindən sayılır.**

Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr edilmiş müşavirədə dövlət başçısının nitqində ölkəmizdə çay istehsalının 11 min, idxalın 2,5 min, ixracın 1000 tona yaxın olduğu, özümüzü 86 faiz çayla təmin etdiyimiz vurğulanıb. İndi əsas vəzifələrdən biri bu gəlirli sahənin inkişafını sürətləndirməkdir.

Böyük aqrar potensiala malik Masallı rayonunda çayçılıq ənənəvi əkin sahələrindən biridir. Keçən əsrin 50-ci illərindən başlayaraq rayonda çayçılıq inkişaf etdirilir. Gözəl və füsunkar Talış dağlarının ətəklərinə sığınmış, əlverişli torpaq-iqlim xüsusiyyətlərinə, kifayət qədər su ehtiyatlarına malik Mahmudavar kəndi uzun illər çayçılıq və tərəvəzçilik üzrə ixtisaslaşıb. Bu gün də kənddə çayçılıq ənənələri uğurla davam etdirilir.

**Gənc, bacarıqlı sahibkar xanım Zəmanə Babayeva-Cəfərzadənin** rəhbərlik etdiyi “Baba bulağı” MMC-nin başlıca fəaliyyət istiqamətlərindən biri də çayçılıqdır. Zəmanə xanım kənd təsərrüfatı məsələlərinə həsr olunmuş respublika müşavirəsinin ölkəmizin aqrar sektorunun inkişafında yeni mərhələnin başlanğıcı kimi mühüm əhəmiyyət daşıyıdığını dedi:

– Müşavirədə cənab Prezident tərəfindən müəyyən edilmiş prioritet istiqamətlər, qarşıya qoyulan konkret vəzifələr və eləcə də “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” kənd təsərrüfatının müasir çağırışlara uyğun inkişafını, məhsuldarlığın artırılmasını, innovativ yanaşmaların tətbiqini və kənd yerlərində məşğulluğun genişləndirilməsini nəzərdə tutur. Bu strateji hədəflər aqrar sahibkarlığın genişləndirilməsini və istehsalın keyfiyyətcə yeni mərhələyə keçməsini vacib, ümdə vəzifə kimi qarşıya qoyur.

**Müşavirədə möhtərəm Prezidentimizin nitqində deyildiyi kimi, “bölgələrdə elə şərait yaradılmalıdır ki, insanlar orada yaşasınlar, qalsınlar, öz dədə-baba torpaqlarında çalışsınlar, ənənəvi fəaliyyətlə məşğul olsunlar, əkin, biçin, turizm imkanları. Yəni orada xidmət sektoru da yüksək səviyyədə olmalıdır”.**

Dövlət başçısının sədrliyi ilə 2017-ci il sentyabrın 3-də Lənkəran şəhərində çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsinin keçirilməsi, “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul edilməsi bizə stimul vermiş, çayçılığı dirçəltməyə, inkişaf etdirməyə ruhlandırmışdı. Elə o vaxtdan biz yeni çay plantasiyalarının salınmasına başladıq.

Zəmanə xanım sözünə davam etdi:

– Hazırda 7 hektar çay sahəmiz var və yaxın illərdə bunu 17 hektara çatdıracağıq. Müəssisənin nəzdində müasir avadanlıqlarla təchiz edilmiş çay emalı fabriki qurulub. İstehsal etdiyimiz ekoloji cəhətdən təmiz, unikal, ətirli məhsullar “Baba çay” brendi ilə satışa çıxarılır.

Həm rayon icra hakimiyyətinin, həm də Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi çayçılığın inkişafı ilə bağlı təşəbbüslərimizə diqqətlə yanaşır. RİH başçısı Araz Əhmədov yerli sahibkarlara hərtərəfli dəstək verir, hər hansı bir çətinliyin öhdəsindən gəlməyimiz üçün bizə əməli yardım göstərir.

Bu il may ayının 5-dən 8-dək Bakı Ekspo Mərkəzində keçirilən XIX Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumunda təmsil olunmağımız da dövlətimizin aqrar sahənin inkişafına göstərdiyi misilsiz qayğının bariz nümunəsidir. Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, kənd təsərrüfatı naziri Məcnun Məmmədovun forum çərçivəsində “Masallı rayonunun məhsulları” adlı pavilyona baş çəkməsi, əməyimizin yüksək qiymətləndirilməsi masallılı fermer və sahibkarları hədsiz sevindirdi.

Bu günlərdə Lənkəran şəhərində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nın müzakirəsi ilə bağlı keçirilən regional müşavirədə iştirak etdim. Prezidentin köməkçisi–Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov və digər dövlət qurumlarının rəhbərləri aqrar sahədə həyata keçirilən sistemli islahatlardan söhbət açaraq Dövlət Proqramının aqrar sektorun yeni inkişaf mərhələsini müəyyən edən strateji sənəd olmaqla məhsuldarlığın artırılmasına, rəqabətqabiliyyətli və ixracyönümlü istehsal modelinə keçidin sürətləndirilməsinə xidmət etdiyini bildirdilər.

Müşavirədə fermerlər və sahibkarlar rəhbərlik etdikləri təsərrüfatlarda görülən işlər, əldə olunan nəticələr və inkişaf planları barədə məlumat verdilər. Kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək Dövlət Proqramında müəyyən edilmiş hədəflərin icrasında fəal şəkildə iştirak etməklə bundan sonra da var qüvvə ilə çalışacaq, səylərimizi davam etdirəcəyik.

Zəmanə xanım halal, zəhmətkeş ailə ənənələrinin davamçısıdır. Babası Vəzir Babayev 12 övlad atası olub. Bənnalıq, sənətkarlıqla məşğul olsa da, təsərrüfatdan, əkin-biçindən heç vaxt ayrılmayıb. Ömür-gün yoldaşı Qəribnisə xanım böyük bir ailənin qayğısını çəkməklə yanaşı, çayçılıq briqadasında işləyib, övladlarını uşaqlıqdan əməyə alışdırıb. Zəmanə xanım deyir ki, ailənin torpağa, zəhmətə bağlılıq ənənəsini yaşadır, Qəribnisə nənənin çayçılıqla bağlı işini davam etdirirlər. Elə “Baba bulağı”nda çalışanlar da ailə üzvləri, kənd sakinləridir.

Müəssisənin icraçı direktoru Əfqan Babayevin də ilk əmək fəaliyyəti Qəribnisə ana ilə çay sahəsindən başlanıb. 1982-ci ildə Əfqanıstanda həqiqi hərbi xidmətdən qayıdandan sonra üzünü yenə çayçılıq təsərrüfatına tutub. Əhali arasında hörməti, nüfuzu, yüksək işgüzarlığı sayəsində 15 il Mahmudavar bələdiyyəsinin sədri işləyib. Uşaq bağçasını, kənddaxil yolları əsaslı təmir etdirib. O, fədakar əməyinə görə “Qızıl bələdiyyə” nişanı ilə təltif olunub. Hazırda kənd ağsaqqallar şurasının sədridir.

Artıq neçə ildir ki, Əfqan Babayev həyatını “Baba bulağı”na bağlayıb.

“Ailədə 9 qardaş, 3 bacı olmuşuq”, - deyə söhbətə başlayır. İnsan dünyaya qurub-yaratmaq üçün gəlir. İşləmək, zəhmət çəkmək lazımdır. Alın tərin torpağa qarışanda torpaq bərəkətini əsirgəmir. Mən əkin-biçindən, gündəlik işimdən zövq alıram.

Çayçılıq həmişə çörək, ruzi mənbəyimiz olub. Yadımdadır, ümummilli lider Heydər Əliyevin yüksək qayğısı sayəsində Masallı rayonunda tutumu 46 milyon kubmetr olan Viləşçay su anbarı tikilərək istifadəyə verildi. Çayçılığın inkişafı üçün geniş imkanlar açıldı. O illərdə çay plantasiyaları xeyli genişləndirildi, yeni emal müəssisələri tikildi. Təəssüf ki, 1990-cı illərin əvvəllərindən çay sahələri və istehsalı tədricən azalmağa başladı. Hazırda dövlətimizin yüksək qayğısı sayəsində çayçılıq dirçəlir, yeni inkişaf inkişaf dövrünü yaşayır.

Söhbət edə-edə göz işlədikcə uzanan çay plantasiyasının yanına çatırıq. Ərazidəki gölləri, subartezian quyusunu, müasir suvarma sistemini göstərib deyir ki, yay mövsümündə su problemi olmur. Ancaq göllərin lillərdən təmizlənməsi çox vacibdir. Müəssisədə kifayət qədər texnika da var. Cərgələrarası kultivasiya işlərini aparmaq üçün müasir traktorlar çatışmır.

Payızda 1 hektar yeni çay sahəsi salınıb. Məhsuldar olduğu üçün “Kolxida”



sortlu tinglər əkilib. Əvvəllər çay tinglərini qonşu rayondan alıb gətiriblər. İndi təsərrüfatın özündə çay toxumları yığılır, qidalı dibçəklərdə yetişdirilərək sahələrə köçürülür. Nəticədə, xeyli vəsaitə qənaət olunur.

Son illərə qədər yığılan məhsul Astara rayonunun emal müəssisələrinə göndərilirdi. Artıq “Baba bulağı”nın özünün emal sexi var. Burada yeni avadanlıqlar, müasir laboratoriya quraşdırılıb.

Sutkalıq gücü 0,5 tondur. Keyfiyyətli məhsul istehsalı üçün hər cür şərait yaradılıb. Məhsulun qablaşdırılmasına hazırlıq görülür. May ayının çay dərimi başa çatıb. Sahələrdən 3,5 ton yaşıl çay yarpağı yığılaraq emal olunub. İlin sonuna kimi 10 tondan artıq yaşıl çay yığımı nəzərdə tutulub.

“Baba bulağı” MMC-də çayçılıqla yanaşı, sitrus, subtropik bitkilər, intensiv bağçılıq, taxılçılıq, heyvandarlıq və aqroturizm də inkişaf etdirilir. Müəssisə 12 hektar sahədə limon, naringi, portağal, hallabonq, feyxoa, 4 hektarda göycə alçası, göyəm, əzgil, alça və digər meyvə ağacları əkilib. Gələcəkdə intensiv meyvə bağlarının sahəsi 30 hektara, məhsuldarlığı 20 tondan 30 tona çatdırılacaq.

Müəssisədə istehsal olunan meyvənin müəyyən hissəsi daxili bazarlarda satılır, bir hissəsindən cem, mürəbbə, kompotlar hazırlanır və qalan hissəsi qurudulur. Burada çalışan 40 nəfər ilboyu işlə təmin olunur. Orta aylıq əməkhaqqı 450 manatdır.

“Baba bulağı”nın 50 hektar torpaq sahəsi var. Biz orada olarkən 22 hektar buğda əkilmiş sahədə biçin gedirdi. İcraçı direktorun dediyinə görə, sahələrdə hər hektardan 3,5 tondan çox buğda istehsal olunacağı gözlənilir. Həmçinin 70 baş qaramalın qış dövrü üçün kifayət qədər yem tədarük olunur.

“Baba bulağı” MMC həm də nümunəvi aqroturizm məkanı kimi respublikamızda tanınır. Eyni vaxtda 50 nəfərin dincəlməsi üçün inşa edilmiş kotteclərdə hər cür şərait yaradılıb. Ərazidə əyləncə, istirahət guşələri salınıb, mini futbol və voleybol meydançaları tikilərək istifadəyə verilib.

Müəssisədə istehsal olunan quru çay, meyvə, ət, süd, yağ və digər ağartı məhsulları, Masallı mətbəxinin ləzzətli, dadlı təamları, yüksək mədəni xidmət turistləri, qonaqları razı salır. Mövsüm vaxtı istirahətçilər çay, sitrus, meyvə yığımında iştirak edir, bu gözəl, füsunkar məkandan xoş təəssüratla ayrılırlar.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Hadisə*

# Dübəndidə neft sızması qəzası aradan qaldırılır

## *Xəzərdə ekoloji təhlükə də sovuşdurulacaq*

**Xəbər verildiyi kimi, iyunun 19-da “Azneft” İstehsalat Birliyinə Dübəndi çimərliyi ərazisində neftlə çirklənmə izlərinin müşahidə edilməsi ilə bağlı məlumat daxil olub. Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən verilən məlumata əsasən, dərhal aparılan əməliyyatla Pirallahı adası ilə Dübəndi arasındakı akvatoriyada gəmilər və helikopter vasitəsilə aparılan ilkin baxış zamanı neft ləkəsi aşkar edilib.**

Qeyd edilib ki, hadisənin ilkin mərhələsində neftin fəal çıxış nöqtəsi vizual olaraq müşahidə olunmadığından mümkün çirklənmə mənbələrinin bir neçə variantı nəzərdən keçirilib. Aparılmış nəzarətli diaqnostik yoxlama nəticəsində sızma mənbəyinin “Azneft” İB-yə məxsus sualtı





neft kəmərlərindən biri olduğu müəyyən edilib və qəza baş vermiş sualtı kəmərlə neftin nəqli dayandırılıb, operativ qərargah yaradılıb və vəziyyət nəzarətə götürülüb. “Azneft” İB-nin dalğıc xidməti sualtı neft kəmərində mexaniki xarakterli zədələnmələr aşkar edib. Qəzanın xarici predmetlə, ehtimal ki, lövbər ilə təmas nəticəsində yarandığı müəyyən edilib.

Məlumatda daha sonra bildirilib: “Zədələnmə aşkar edildikdən dərhal sonra təmir-bərpa işlərinə başlanılıb. Bu işlər yekunlaşana qədər zədələnmiş kəmər istismardan kənar saxlanılır ki, bu da dənizə neft sızmasının davam etməsinin qarşısını alır. Hadisənin nəticələrinin aradan qaldırılması, eləcə də dənizin və sahilyanı ərazilərin təmizlənməsi işləri Fövqəladə Hallar Nazirliyi və “Azneft” İB tərəfindən sıx koordinasiyalı şəraitində həyata keçirilir”.

Qeyd edək ki, belə hadisələr dünyanın dəniz və okean sularında da zaman-zaman müşahidə olunur. Bunun isə əsas səbəbi dəniz ekosistemlərindəki neft-qazçıxarma platformalarındakı sızmalar, gəmiçilik qəzaları, çirkab sularının qanunsuz olaraq axıdılması, eləcə də dəniz dibindəki təbii neft və qaz sızıntıları kimi amillərlə bağlıdır. Ləkələrin əmələgəlmə və yayılma səbəblərinə gəldikdə isə, bu cür hallar ən çox neftin çıxarılması və nəqli, dənizdə yerləşən neft quyuları və platformalarındakı qəzalar, eləcə də gəmilərin istismarı zamanı baş verir. Hər il qlobal miqyasda irili-xırdalı onlarca neft sızması hadisəsi qeydə alınır. Belə hadisələr nəticəsində milyonlarla barel neft suya qarışır.

Tarixin ən böyük neft sızması isə 1991-ci ildə Fars körfəzi müharibəsi zamanı baş verib. Həmin hadisə vaxtı körfəzə, təxminən, 1,5 milyon tona yaxın neft axıdılıb. 2010-cu ildə Meksika körfəzində qeydə alınmış təsadüfi dəniz neft sızması da bu tip ən böyük hadisələrdəndir. Platformada qeydə alınmış partlayışdan sonra 87 gün ərzində dənizə, təxminən, 3,19 milyon barel neft sızıb. 2024 və 2026-cı illərdə Meksika körfəzində və Qara dənizdə də qeydə alınıb. Həmin hadisələr nəticəsində neft və neft məhsullarının dənizə sızması baş verib.

Yeri gəlmişkən, Beynəlxalq Tanker Sahiblərinin Çirklənmə Federasiyasının statistikalarına əsasən, qlobal miqyasda dəniz neft sızmalarının sayı əvvəlki onilliklərlə müqayisədə ciddi şəkildə azalsa da, hələ də müxtəlif bölgələrdə qəza və boru xətti nasazlıqları qeydə alınmaqdadır. Bu baxımdan Azərbaycanın yerləşdiyi Xəzər dənizi hövzəsində də bu tipli lokal monitorinqlər aparılır və müvafiq təmizləmə tədbirləri həyata keçirilir.

Ekspertlərin fikrincə, sızma riskləri Xəzər dənizi kimi əsas neft-qaz hasilatı mərkəzləri üçün də xarakterikdir. Odur ki, təşviş üçün ciddi əsas yoxdur və Xəzərin Dübəndi sahilində müşahidə olunan neft ləkələri tezliklə təmizlənərək dənizin ekoloji mühitinin sağlamlaşdırılması tam təmin olunacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**

Dənizdə baş verən neft sızmaları zamanı operativ müdaxilə və peşəkar idarəetmə ekoloji və iqtisadi fəsadların minimuma endirilməsində həlledici rol oynayır. Neft sızmaları zamanı ilk saatlarda həyata keçirilən tədbirlər sonrakı mərhələlərdə yaranacaq risklərin miqyasını müəyyənləşdirir. Ümumilikdə isə, belə məsələlərdə operativlik həddindən artıq önəmlidir. Çünki bu tip fəsadlar ilk saatlarda daha sürətli olur. Quyu bağlansa da, yaxud mənbə lokallaşdırılsa da, kəmərdə qalan təzyiq nəticəsində müəyyən qədər boşalmalar davam edə bilir. Buna görə də ilk saatlarda edilən kritik müdaxilələr çox böyük əhəmiyyət daşıyır.

Müdaxilənin gecikməsi isə neftin daha geniş ərazilərə yayılmasına və dəniz ekosisteminə daha çox zərər vurmasına səbəb ola bilər. Bu isə dənizdə yaşayan canlıların həyatını risk qarşısında qoyur. Təkcə balıqların deyil, bütövlükdə, dəniz florası və faunasının ciddi ziyan görməməsi üçün prosesə dərhal müdaxilə edilməsi vacibdir.

Dünyanın neft sənayesində formalaşmış təcrübəyə əsasən, belə hallarda əsas məqsəd, ilk növbədə, sızmanın mənbəyini lokallaşdırmaq və yayılmanın qarşısını almaqdır. Dünyanın aparıcı neft şirkətləri ilə uzunmüddətli əməkdaşlıq edən SOCAR-ın bu tip proseslərin idarə olunması ilə bağlı kifayət qədər təcrübəsi var. Beynəlxalq təcrübədə belə hadisələrin idarə olunmasında, ilk növbədə, mənbə bağlanır. Bundan sonra neftin yayılmasının məhdudlaşdırılması üçün tədbirlər görülür. Çünki suyun səthinə çıxan neft sürətlə geniş əraziyə yayıla bilir. Buna görə də mexaniki üsullarla yayılmanın qarşısı alınır. Bəzi hallarda dispersantlardan və bioloji təmizləmə metodlarından da istifadə edilir.

Sızmanın qarşısı alındıqdan sonra vəziyyətin tam qiymətləndirilməsi məqsədilə monitorinq mərhələsi başlayır. Bunun qarşısı alındıqdan sonra artıq suyun keyfiyyəti və dəniz canlılarının vəziyyəti monitorinq olunur ki, mövcud vəziyyət qiymətləndirilsin. Sonrakı mərhələdə isə sıradan çıxmış infrastrukturun bərpası həyata keçirilir, boru kəmərləri və digər texniki qurğularda yaranmış nasazlıqlar aradan qaldırılır. Bu cür hadisələr dünyanın müxtəlif ölkələrində zaman-zaman baş verir və əsas məsələ operativ reaksiya, peşəkar idarəetmə və nəticələrin qısa müddətdə aradan qaldırılmasıdır. Bu istiqamətdə çevik tədbirlərin görülməsi həm ekoloji risklərin, həm də mümkün iqtisadi itkilərin minimuma endirilməsinə imkan yaradır.

# Göygöldə "Qərbi Azərbaycan irsi - Tarixi köklərə qayıdış" festivalı

**Göygöl rayonunun Yeni Zod kəndində qurulan "Xan Yurdu" etno qəsəbəsində Qərbi Azərbaycan İcması və Göygöl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan irsi - Tarixi köklərə qayıdış" festivalı keçirilib.**





İştirakçılar əvvəlcə Qərbi Azərbaycanın zəngin mədəni irsini əks etdirən stendlərə və səhnəciklərə baxıblar. Festivalın açılış mərasimində çıxış edənlər Qərbi Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunmasının və gələcək nəsillərə çatdırılmasının vacibliyini vurğulayıblar. Bildirilib ki, belə festivallar xalqımızın qədim köklərinə bağlılığını nümayiş etdirməklə yanaşı, milli yaddaşın yaşadılmasına, adət-ənənələrin təbliğinə və gənc nəslin tarixi həqiqətlər barədə məlumatlandırılmasına mühüm töhfə verir.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, Göygöldə təşkil olunan festival milli mədəniyyətimizin, qədim adət-ənənələrimizin dirçəldilməsi və Qərbi Azərbaycanın zəngin mədəni irsinin nümayişi və yaşadılması baxımından yaddaşı təzələyir və möhkəmləndirir. İcma sədri vurğulayıb ki, tariximizin və milli-mənəvi dəyərlərimizin gənc nəslə aşılanması, xalqımızın mədəni kimliyinin təbliği istiqamətində keçirilən belə toplantılar Qarabağ zəfərinin yaratdığı təntənənin davamı olaraq xalqın qəhrəmanlıq ruhunu yeni qələbələrə kökləyir. Əziz Ələkbərli rəngarəngliyi ilə seçilən bu festivalların ölkəmizin digər bölgələrində də keçiriləcəyini söyləyib.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Gəncə şəhəri üzrə nümayəndəsi Zəfər Qurbanov bildirib ki, belə genişmiqyaslı mədəni layihələrin məqsədi Qərbi Azərbaycanın qədim irsini, mədəniyyətini və zəngin tarixini gələcək nəsillərə ötürmək, xüsusilə də gənclərin tarixi yaddaşını hər zaman canlı saxlamaqdır. "Bu gün hər birimizin qəlbi böyük bir tarixi qayıdışa dərin inamla döyünür. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ümummilli mübarizə bütün soydaşlarımızın yaxın zamanda öz doğma yurd-yuvalarına qovuşacağına, qədim torpaqlarımızda yenidən firavan həyatın bərqərar olacağına qəti ümid yaradır".

Festival Qərbi Azərbaycana Qayıdış hərəkatına mənəvi dəstək qazandıran çal-çağırla davam edib.

***T.RÜSTƏMLİ***
***XQ***

*Böyük Qayıdışın addımları*

# Azad torpaqlarda məşğulluq layihələri

**İşğaldan azad edilmiş ərazilərin bərpası infrastruktur layihələrlə məhdudlaşmır. Prosesin əsas istiqamətlərindən biri də əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin yaradılması və həmin ərazilərin iqtisadi potensialının yüksəldilməsidir. Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm hissəsidir.**

Genişmiqyaslı quruculuq işləri nəticəsində müxtəlif sahələr üzrə yeni məşğulluq imkanları yaradılıb. Ənənəvi kənd təsərrüfatı sahələrinin bərpası, fermer təsərrüfatlarının inkişafı həm yerli sakinlərin məşğulluğuna, həm də regionun iqtisadi fəallığının artmasına imkan verir. Bu ərazilərdə məşğulluğun təmin edilməsi insanların sosial rifahının yüksəldilməsi, regionların davamlı inkişaf məqsədlərinə nail olunması baxımından strateji əhəmiyyət daşıyır.





**Müsahibimiz Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri Hasil Abbasov** söylədi ki, işğaldan azad olunan ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, müasir infrastrukturun yaradılması, keçmiş məcburi köçkünlərin doğma yurd yerlərinə qayıdışı hər birimizdə sonsuz qürur hissi yaradır.

– İşğaldan azad edilmiş ərazilərə köçürülmüş sakinlərin dayanıqlı məskunlaşması və sosial rifahının təmin edilməsi sahəsində aparılan işlərin bir istiqaməti də onların məşğulluğunun təminatına yönəlib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi bu istiqamətdə işləri davam etdirir. Sakinlərin vakansiyalar üzrə işlə təminatı, özünüməşğulluq, əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramlarına cəlb edilmələri, əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmələri üçün hazırlıq kurslarının təşkili, mütəmadi olaraq əmək yarmarkalarının keçirilməsi və s. istiqamətlərdə işəgötürənlərlə sıx əməkdaşlıq qurulub.

Birgə fəaliyyətdə əsas prinsiplərdən biri də azad edilmiş ərazilərdə yaranan vakansiyaların, ilk növbədə, bu ərazilərə köçürülən sakinlərə təqdim edilməsidir. İşğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərlə görüşlər keçirilir, onların məşğulluq imkanları qiymətləndirilib, peşə bacarıq və təcrübələri, hansı fəaliyyət sahələrində işləməyə olan maraqları müəyyən edilir. Qiymətləndirmələrin nəticələrinə uyğun olaraq, sakinlərin qeyd edilən proqramlara cəlb edilmələri üçün ilkin qeydiyyatı aparılır.

Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən işəgötürənlərlə mütəmadi görüşlər də keçirilir. İşğaldan azad edilmiş ərazilərdə məşğulluğun təminatı istiqamətində görülən işlər və birgə tədbirlər müzakirə olunur.

Bu günə qədər doğma yurdlarına qayıdan sakinlərdən artıq 10,8 minədək şəxsin istehsal, xidmət, kənd təsərrüfatı və s. fəaliyyət sahələrində öz təsərrüfatlarını qurmaları üçün özünüməşğulluq proqramı çərçivəsində əhəmiyyətli işlər görülür. Köçürülən sakinlərdən artıq 900-ə yaxın sakin proqram çərçivəsində mal və materiallar formasında aktivlərlə təmin edilib.

Verilmiş aktivlər hesabına onlar kiçik ailə bizneslərini qurublar. Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində həmin ərazilərdə insan kapitalının inkişafı, bu istiqamətdə peşə hazırlıqlarının təşkili və ixtisaslı kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi əsas prioritetlərdən biridir. Agentlik Qarabağ və Şərqi Zəngəzur üzrə artıq 500-dən çox şəxsi peşə kurslarına cəlb edib.

Hasil Abbasov 2023-cü ilin avqust ayında Bərdədə istifadəyə verilən Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlərin peşələr üzrə bilik və bacarıqlara yiyələnməsinin təminində də müasir tələblərə cavab verən bir müəssisə kimi mühüm rol oynadığını bildirdi. Mərkəz 48 peşə istiqaməti üzrə tədrisin həyata keçirilməsi imkanlarına malikdir. Peşə kurslarının təşkilində özəl tədris müəssisələri ilə də əməkdaşlıq həyata keçirilir. Bu ərazilərdə ötən dövrdə işəgötürənlərlə əməkdaşlıq sayəsində 40 əmək yarmarkası təşkil olunub.

Azad edilmiş ərazilərə köçürülən keçmiş məcburi köçkünlərin nazirliyin önəmli məşğulluq proqramlarından olan "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı çərçivəsində iş yerləri ilə təminatı da həyata keçirilir. Proqram üzrə işlə təmin edilənlərin bir il ərzində əməkhaqlarının bir hissəsini Dövlət Məşğulluq Agentliyi maliyyələşdirir.

Xatırladaq ki, son illərdə Əmək Məcəlləsinə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis" anlayışı əlavə olunub. Bu anlayışa peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan və ölkəmizin işğaldan azad edilmiş ərazilərində əmək müqaviləsi əsasında işləyən işçilər aiddir. Onlara 600 manat məbləğində proaktiv qaydada birdəfəlik müavinət verilir, maaşlarına əlavə hesablanır, əlavə 5 gün ödənişli əmək məzuniyyəti ilə təmin edilirlər. Bütün bunlarla yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müəssisələrdə əməyin mühafizəsinə dair maarifləndirmə tədbirləri də keçirir.

Bildirildi ki, Məşğulluq, Minatəmizləmə, Kiçik və Orta Biznesin İnkişafı agentliklərinin, Həmkarlar İttifaqları Konfederasiyasının iştirakı ilə keçirilən tədbirlərdə işəgötürənlərə və işçilərə əməyin mühafizəsi, sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi, layiqli əmək prinsipləri və əmək qanunvericiliyinin əsas tələbləri barədə məlumatlar verilir.

***Mustafa KAMAL***
***XQ***










*Bəhram Mansurov – 115*

# Ustad tarzənin irsinə ayna tutan nəşr

**Görkəmli tarzən, Xalq artisti Bəhram Mansurovun 115 illiyi ilə əlaqədar Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə nəşr etdiyi "Bəhram Mansurov. Biblioqrafiya" kitabının təqdimatı olub.**




Azərbaycan musiqisinin beynəlxalq aləmdə tanıdılmasına böyük töhfə vermişdir və görkəmli tarzənin zəngin irsinin öyrənilməsi və təbliği istiqamətində həyata keçirilən layihələr, o cümlədən "Bəhram Mansurov. Biblioqrafiya" kitabı milli musiqi irsinin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Konservatoriyasının prorektoru, professor Lalə Hüseynova, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru, professor Gülnaz Abdullazadə, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri, Xalq artisti Ağaverdi Paşayev, Xalq artisti Zamiq Əliyev, professor Nazim Kazımov, mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov Bəhram Mansurovun Azərbaycan musiqi mədəniyyətindəki misilsiz xidmətlərindən danışıblar.



Qeyd edilib ki, Bəhram Mansurov təkcə böyük tarzən və muğam ifaçısı deyil, həm də milli musiqi ənənələrinin qorunub gələcək nəsillərə ötürülməsində mühüm rol oynamış sənətkardır. Ustad tarzənin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında uzun illər göstərdiyi fəaliyyət, muğam operalarının inkişafına verdiyi töhfələr və yetişdirdiyi sənətkarlar milli musiqi tariximizin mühüm səhifələrini təşkil edir. Onun ifasında "Çahargah" və "Rast" muğamlarının nota alınması, bir sıra muğamların UNESCO xətti ilə vallara və CD-lərə yazılaraq dünya miqyasında yayılması milli musiqi irsinin qorunması və beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm hadisədir.

Mərasimdə Milli Kitabxananın direktoru, professor Kərim Tahirov kitab barədə məlumat verərək qeyd edib ki, yeni nəşrdə Bəhram Mansurovun zəngin yaradıcılıq yolu, özünəməxsus ifaçılıq məktəbi, Azərbaycan muğam sənətinin inkişafına verdiyi mühüm töhfələr geniş əks olunub: "Kitab Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış görkəmli sənətkarın irsinin elmi-biblioqrafik baxımdan sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə hazırlanıb. Biblioqrafiyada sənətkarın həyat və fəaliyyətinin əsas tarixləri, əsərləri, dövri mətbuatda dərc olunmuş məqalələri, onun haqqında yazılmış materiallar, arxiv materialları, elektron resurslar və dünyanın müxtəlif kitabxanalarında mühafizə olunan mənbələr sistemli şəkildə toplanıb".

Mədəniyyət nazirinin müavini Murad Hüseynov bildirib ki, Bəhram Mansurovun yaradıcılığı milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı,

Unudulmaz tarzənin oğlu ünlü bəstəkar, Xalq artisti Eldar Mansurov atasının irsinə verilən yüksək dəyərə görə minnətdarlıq edib, nəşri hazırlayanlara təşəkkürünü bildirib.

***T.AYDINOĞLU***
***XQ***

# Azərbaycan–Özbəkistan mədəni əlaqələr dialoqu

**Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində bu il Azərbaycanda təşkil olunacaq VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Bakı prosesi: Azərbaycan–Özbəkistan dostluq əlaqələrində mədəni dialoqun rolu" mövzusunda təqdimat keçirilib.**



Proqramda Özbəkistanın müxtəlif ali təhsil müəssisələrində çalışan professor-müəllim heyəti, ictimaiyyət və media nümayəndələri, tələbələr, eləcə də Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

AMM-nin rəhbəri Akif Marifli "Bakı prosesi"nin beynəlxalq əhəmiyyətindən bəhs edərək bildirib ki, bu təşəbbüs mədəniyyətlərarası dialoqun inkişafına, xalqlar və dövlətlər arasında qarşılıqlı etimadın və humanitar əməkdaşlığın möhkəmlənməsinə xidmət edən mühüm qlobal platformadır. O qeyd edib ki, Azərbaycan və Özbəkistan kimi tarixi, mədəni və mənəvi yaxınlığa malik iki dost ölkə arasında münasibətlər Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin siyasi iradəsi nəticəsində bu modelin uğurlu nümunələrindən birinə çevrilib.

Təqdimatda "Bakı prosesi"nin yaranma tarixi, konseptual əsasları və mədəniyyətlərarası dialoq mexanizmi kimi əhəmiyyəti barədə məlumat verilib. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən "Bakı prosesi" müxtəlif ölkələri və mədəniyyətləri bir araya gətirən, səmərəli dialoq, qarşılıqlı anlaşma və əməkdaşlığa geniş imkanlar yaradan mühüm beynəlxalq təşəbbüsdür.

Çıxış edənlər "Bakı prosesi"nin Azərbaycan–Özbəkistan münasibətlərində mühüm humanitar platforma kimi əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, siyasi və iqtisadi əlaqələrin inkişafı ilə yanaşı, xalqlar arasında mənəvi yaxınlıq və mədəni əməkdaşlıq münasibətlərin dayanıqlılığını təmin edən əsas şərtlərdən biridir.

***Q.KAZIMOV***

**Daşkənd**

# Özbək xanlığı – Qərbi Sibirdə və Qıpçaq çöllərində qədim türk dövləti

**Batı xanın qardaşı Şeybanın nəslindən olan Əbülxeyr xan XV əsrin ortalarında parçalanan çöl tayfalarını öz ətrafında toplayaraq vahid siyasi hakimiyyət altında birləşdirdi, Qərbi Sibir çöllərində və Dəşti-Qıpçaq ərazilərində güclü Özbək xanlığının əsasını qoydu, bu, regionda yaranan yeni bir siyasi güc idi.**



Əbülxeyr xan taxtda



Özbək xanlığı güclü vaxtlarda

Dövlətin fəaliyyəti bölgədə siyasi sabitliyin möhkəmlənməsinə və yeni dövlətçilik ənənələrinin formalaşmasına mühüm təsir göstərdi. Əbülxeyr xanın əsasını qoyduğu Özbək xanlığı yalnız bir dövlət deyil, həm də çöllərin siyasi xəritəsini dəyişdirən tarixi dönüş nöqtəsi oldu.

1451-ci ilə qədər Əbülxeyr xanın həyata keçirdiyi birləşdirici siyasət nəticəsində Özbək xanlığı regional gücə çevrildi və sonra Türküstan tarixinin istiqamətini müəyyənləşdirən mühüm siyasi mərkəzlərdən biri oldu.

Mənbələrdə Özbək xanlığı, Özbək ulusu, Özbək Ordası və Əbülxeyr Ulusu kimi də adlandırılır. Görkəmli Amerika tarixçisi Peter Golden "Əbülxeyr Özbək Ordası" termininindən istifadə edib. Peter Golden yazır: "Qızıl Orda süqut etdikdən sonra yeni xanlıqlar yarandı. Əbülxeyr xan 1451-ci ilə qədər Qərbi Sibir çöllərində dominant gücə çevrildi".

Əbülxeyr xanın və ailəsinin üzvləri ədəbiyyata böyük həvəs göstəriblər. Əbülxeyr xan məşhur şair, mistik və sufi tərəfdarı Cəlaləddin Ruminin əsərlərinin cığatay türkcəsinə tərcüməsini sifariş edib. Əbülxeyr xanın ulusunun tarixi Məsud ibn Osmani Kuhistani tərəfindən təsvir edilib. Məşhur sufi lideri Nəcməddin Kubranın nəslindən olan Hüseyn Xarəzmi cağatay türkcəsində Əbülxeyr xana həsr olunan bir əsər də yazmışdı.

Xarəzmin Teymurilərdən olan hökmdarı Əmir İbrahim Urgənçdə ilahiyyatçıların, şeyxlərin və şairlərin toplantılarını təşkil edirdi. Bu məclislərin birində bir şair Əmir İbrahim xana həsr etdiyi şeirini oxuyur və xana hədiyyə edir və xan məclisdə iştirak edən Hüseyn Xarəzmiyə ona şərh yazmasını buyurur. Şərh çağatay türkcəsində yazılmış və Kamaləddin Hüseyn Xarəzmi onu "Kəşf əl-Xuda" ("Həqiqi yolun aşkarlanması") adlandırıb. O, həmçinin, Əbülxeyr xana həsr olunmuş bir qəsidə də yazıb.

**Qızıl Ordaya daxil olana qədər Özbək Ulusunu idarə edən xanlar:**

Şiban nəslindən olan hökmdarlar və şahzadələr bunlardır:

Bu hökmdarlar və şahzadələr "Özbək ulusu"nun siyasi əsasını təşkil edən Şiban qolunun nümayəndələri hesab olunur və bəzi şəxslərin hakimiyyət illəri və rolları barədə fərqli məlumatlar mövcuddur.

**Şiban (Şeyban, Şiban xan),** təxminən XIII əsr, Cuçinin beşinci oğlu idi, Batı xan ona Uraldan Sırdəryaya qədər uzanan əraziləri vermişdi.

**Bahadur Oğul** – Şibanın oğlanlarından biri, Dəşti-Qıpcaqdakı Özbək və Sibir xanlarının əksəriyyəti onun soyundan gəlir.

**Cuçi Buqa** – bəzi mənbələrdə Cuci-Buqa və ya Cuqi Buqa kimi keçir, Şiban ulusunun ağsaqqallarından biri olub, Bahadur Oğulun varisi hesab edilir. XIV əsrdə şərqi Dəşti Qıpçaq bölgəsində nüfuz sahibi idi.

**Bad Oğul (Badaqul, Bad Oğlan kimi də yazılır)** – Şiban şəcərəsində yer alan hökmdarlardan biri, Qızıl Orda xanlarının bir hissəsi onun nəslindən gəlir.

**Mengü Teymur Oğlan** – Şiban ulusunun rəhbərlərindən biri, XIV əsrdə Qızıl Orda taxtına çıxan bəzi Şiban xanlarının əcdadı hesab olunur.

XIII–XIV əsrlərdə Qızıl Ordanın əsas hakim sülaləsi Batı xanın nəslindən idi. Şibanlar isə daha çox çöl bölgələrində öz uluslarını idarə edirdilər və mərkəzi hakimiyyətdə ikinci planda qalırdılar. Batı nəslinin zəifləməsindən sonra Şibanilər ön plana çıxmağa başladılar.

Onun adı bəzən Qızıl Orda hökmdarı Mengu Teymurla qarışdırılır, lakin onlar fərqli şəxslərdir.

**Fulad Oğul** – Şiban qolunun nüfuzunu qoruyan hökmdarlardan biri, Özbək ulusu hökmdarlarının birbaşa əcdadı hesab olunur.

**İbrahim Sultan** – Fuladın oğlu, XV əsrdə yüksələn Şibani gücünün əsas əcdadlarından biridir.

**Ərəb Şah** – XIV əsrin sonu, XV əsrin əvvəllərində yaşayıb, onun nəslindən sonralar həm Sibir xanları, həm də bəzi Özbək xanları çıxıb. Mənbələrdə "Arabşahilər" qolunun banisi sayılır. Arabşahi qolu həm də Xivə xanlarının əcdadları sayılır. Yəni XVI əsrdə həm Buxara xanları, həm də Xivə xanları əslində eyni Şiban nəslindən gəlirdilər, sadəcə, fərqli budaqlara mənsub idilər.

**Dövlət Şeyx Oğlan** – Şiban nəslinin ən nüfuzlu şahzadələrindən biri olub.

Onun oğlu Əbülxeyr xan sonradan bütün özbəkləri birləşdirib.

Dövlət Şeyx Oğlan Şibanlar arasında nüfuzlu əmirlərdən idi.

Əbülxeyr hələ uşaq ikən vəfat edib.

Bu tarixi şəxslərin çoxu haqqında məlumatlar əsasən şəcərə xarakterlidir. Daha ətraflı məlumatlar XVI əsrdə yazılan "Şəcərəyi-Türk", "Təvarixi-Güzidəyi-Nüsrətnamə" və "Məcmə ət-Təvarix" kimi əsərlərdə qorunub.

**Dövlət Şeyx Oğlanın nəslindən olan xanlar:**

Özbək xanlığının banisi Əbülxeyr xan Dövlət Şeyx Oğlanın oğlu idi. Tarixçilər çox vaxt onu "köçəri özbəklərin ilk böyük hökmdarı" adlandırırlar.

Əbülxeyr xanın oğlu Şeyx Heydər 1441-ci ildə İbakla döyüşdə öldürülüb.

Quş Heydər

Şah Budağ Sultan

Köçküncü xan (1452-1530), Şeybanilər dövlətinin xanı, Əbülxeyr xanın oğlu.

Süyunçxoca xan (1454-1524), Əbülxeyr xanın oğlu, sonralar Şeybanilər dövlətinin Şaş (Daşkənd) əyalətinin hakimi olub.

Məhəmməd Şeybani, Şah Budaq Sultanın oğlu, Əbülxeyr xanın nəvəsi idi.

**Çingizilərin sadələşdirilmiş şəcərəsi belədir:**

**Çingiz xan**
**Cuçi**
**Şiban**
**Bahadur Oğul**
**Cuçi Buqa**
**i Buqa**
**Bad Oğul**
**Mengu Timur Oğlan**
**Fulad Oğul**
**İbrahim Sultan**
**Ərəb Şah**
**Dövlət Şeyx Oğlan**
**Əbülxeyr xan**
**Məhəmməd Şeybani xan**

1227-ci ildə Qızıl Ordanın bir hissəsi kimi yaranan Ağ Orda 1361-ci ildə Qızıl Ordadan ayrıldıqdan sonra bir müddət müstəqil dövlətə çevrilib və Qızıl Ordanın parçalanmasının qarşısını almaq üçün Göy Orda ilə birləşib. Lakin 1428-ci ildə Qızıl Orda xanı Barak xanın ölümündən sonra Qızıl Orda parçalanır və Ağ Orda Özbək Xanlığına və Noqay Ordasına, qalan torpaqlar cənubda Mustafa Xan və şimalda Məhəmməd Xan arasında bölünür. Müasir Qazaxıstanın böyük bir hissəsinə hakim olan Özbək Xanlığı Barak Xana sui-qəsd planında iştirak edən Əbülxeyr Xan tərəfindən dəstəklənib.

**Özbək xanlığı və ya Özbək Ulusunun yaranması,** (Xanlıq **Özbək Ordası** və **Əbülxeyr xanlığı** kimi də tanınır).

Özbək xanlığı 1428-ci ildə Batı xanın qardaşı Şeybanın nəslindən olan Əbülxeyr xanın Cənub-Qərbi Sibirdə, Dəşti-Qıpçağın şərqində yaratdığı böyük bir dövlət idi.

Xanlığın paytaxtı 1428-1446-cı ilədək Çingi-Tura, 1446–1469-cl ilədək indiki Qazaxıstanın Sığnaq, 1469–1471-ci illərdə isə Türküstan şəhəri, dini İslam, ərazisi 3,000 000 kvadratkilometr olub.

Əbülxeyr xanın dövləti Ural və Sırdərya çaylarından Balxaş gölünə və İrtış çayına qədər uzanırdı. Əbülxeyr xan hakimiyyətə gəldikdən sonra üç il ərzində hazırlıqlara başlayaraq 1431-ci ildə Xarəzmi və Gürgənci, 1447-ci ildə Seyhun çayı ətrafındakı Sığnaq şəhərindən Özkəndə qədər olan geniş əraziləri öz torpaqlarına qataraq Özbək xanlığını möhkəmləndirib. Sonra Əbülxeyr xan Türküstanı – indiki Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan torpaqlarını tam olaraq fəth edib. 1451-ci ildə Əbülxeyr xan Teymuri Əbu Səidlə birlikdə Səmərqənd üzərinə yürüş edir, Səmərqəndi Teymurilərdən alır. Özbək xanlığı və Əbu Səid arasındakı ittifaq uğurlu olur və bunun müqabilində Əbu Səid Özbək xanlığına xərac verir.

Özbək xanlığı ilk əvvəl Cığatayların, sonra Teymurilərin, ardınca Səfəvilərin ağır zərbələri nəticəsində parçalanıb, Xorasan Səfəvilərin, Daşkənd və ətrafı Qırğız-Qazax türklərinin əlinə keçib.

Əbülxeyr xan bir neçə oğlu ilə birlikdə 1468-ci ildə qazaxlarla döyüşdə öldürülüb. Zadəganlar onun yerinə Şeybanilər sülaləsinin başqa bir qolundan olan yaşlı Yadigar xanı hakimiyyətə gətirirlər. Lakin Yadigar xan 1469-cu ildə vəfat edib, Əbülxeyr xanın böyük oğlu Şeyx Heydər taxta çıxıb, lakin onun hakimiyyəti qısa olub.

Əbülxeyr xanın ölümündən sonra onun imperiyası sultanlar və qəbilə başçıları tərəfindən idarə olunan daha kiçik torpaqlara parçalanır. Bu torpaqlardan birinə Əbülxeyrin nəvəsi Məhəmməd Şeybani rəhbərlik edirdi. O, yaxşı təhsil almış, böyük hərbi zəkaya malik bir sərkərdə idi və Məvarəünnəhrin torpaqlarını işğal etməyi qarşısına məqsəd qoymuşdu. Bununla belə, Teymurilərin də qarşıya qoyduğu məqsədlər vardı.

1468-ci ildə Özbək xanlığının Teymurilər tərəfindən məğlub edilməsi və siyasi təsir dairəsindən sıxışdırılması Teymurilərin Türküstanda öz hakimiyyətini möhkəmləndirmək, mühüm ticarət yollarına nəzarəti ələ keçirmək və rəqib siyasi qüvvələri zəiflətmək istəyindən irəli gəlirdi. Bu hadisə, eyni zamanda, Özbək xanlığındakı daxili çəkişmələrin və siyasi zəifliyin nəticəsi idi.

Elə buna görə də 1468-ci ildə, 40 ildən sonra Özbək xanlığı süqut etdi.

Deyildiyi kimi, dövlətin cəmi üç xanı olub:

**Əbülxeyr xan** 1428–1468-ci illərdə hakimiyyətdə olub, dövləti qurub və ən qüdrətli dövrünü yaşadıb.

**Yadigar xan** Şeybanilər sülaləsindən olub, taxta çıxdığı il vəfat edib.

**Şeyx Heydər xan** — Əbülxeyr xanın oğlu, atasının ölümündən sonra taxtda oturub, hakimiyyət uğrunda mübarizə aparıb. Dövləti zəiflədib və qazax sultanları güclənib, lakin dövləti qoruyub saxlaya bilməyib və 1471-ci ildə məğlub edilərək öldürülüb.

**Əbülxeyr xanın ailəsi və övladları**

Əbülxeyr xanın on bir oğlu var idi: Şah Budaq Sultan, Xoca Məhəmməd Sultan, Əhməd Sultan, Məhəmməd Sultan, Şeyx-Heydər Sultan, Səncər Sultan, İbrahim Sultan, Kuçkunci Xan, Suyunçxoca Xan, Ak Burun Sultan, Seyid Baba Sultan. Əbülxeyr xanın həmçinin Güyüf Camal adlı bir qızı da var idi.

Əbülxeyr xan Teymurilərlə qohum idi, o, Mirzə Uluqbəyin qızı Rəbiyə Sultan Bəyimlə evlənmişdi və qızı Xanxada Bəyimi Moğol sülaləsinin banisi Zahirəddin Baburun babası Teymuri Əbu Seydə ərə vermişdi.

1430–1431-ci illərdə Əbülxeyr xan və Çingiz xanın nəslindən olan, Deşti-Qıpçaq bölgəsində hakimiyyət uğrunda mübarizə aparan Mahmud Xoca xan arasında qarşıdurma zamanı Mahmud Xoca xan məğlub olur və edam edilir. Əbülxeyr xan ənənəyə uyğun olaraq Mahmud Xoca xanın arvadı Ağanak bikə ilə evlənir.

**Xanlığın süqutu**

Bu dövlətin süqutundan sonra Əbülxeyr xanın nəvəsi Məhəmməd Şeybani xan sonradan Mavəraünnəhrdə Buxara (Şeybani) dövlətini qurub və özbəklərin siyasi mərkəzini Dəşti-Qıpçaqdan cənuba köçürüb (Bu haqda ayrıca söhbət açılacaq).

Dəşti-Qıpçaqda Özbək xanlığının süqutu təkcə bir dövlətin dağılması deyil, bütöv bir siyasi dövrün sonu idi.

Özbək xanlığının parçalanması ilə Dəşti-Qıpçağın geniş çöllərində hökm sürən siyasi nizam sarsıldı və bölgə yeni güc mərkəzlərinin mübarizə meydanına çevrildi.

Bir zamanlar Dəşti-Qıpçağın taleyinə yön verən Özbək xanlığı daxili çəkişmələr və hakimiyyət uğrunda mübarizələr nəticəsində tarix səhnəsindən çəkildi.

Özbək xanlığının süqutu çöllər imperiyasının son akkordu, yeni xanlıqlar və yeni siyasi kimliklər dövrünün başlanğıcı oldu.

Dəşti-Qıpçaqda Özbək hakimiyyətinin dağılması köhnə siyasi sistemin iflası, bölgənin etnik və siyasi xəritəsinin yenidən cızılması demək idi.

XV əsrin ikinci yarısında Dəşti-Qıpçaqda Özbək xanlığının süqutu tarixdə dönüş nöqtəsinə çevrildi. Bu hadisə yalnız bir sülalənin hakimiyyətdən getməsi deyil, həm də regionda yeni siyasi birliklərin, xüsusilə Qazax xanlığının formalaşmasına yol açan köklü geosiyasi dəyişikliklərin başlanğıcı idi.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**




Özbək xanlığının ərazisi



Türküstanda Əbülxeyr xanın xanımı Rəbiyyə Sultan bəyimin türbəsi

*Yubilyar filmlər*

# "Qocaman" əsərlərin həmişəcavan şöhrəti

**Ötən yazılarımızda "Yubilyar filmlər" seriyasından olan ekran əsərlərini – 110 yaşlı "Neft və milyonlar səltənətində", "Ölümünə 1 saat qalmış", "Arvad"və "Knyaz Dəmir Bilal", 100 yaşlı "Müxtəlif sahillərdə", 90 yaşlı "Almaz" və digər kinolentləri xatırlamışıq. Sonrakı 20 ilədək olan dövr ərzində o qədər də parlaq bədii filmlərimiz olmayıb. Nəhayət, 1956-cı ildə - dahi bəstəkar Üzeyir Hacıbəylinin vəfatından 8 il sonra onun eyni adlı operettası əsasında çəkilmiş "O olmasın, bu olsun" filmi II Dünya müharibəsindən sonra dirçəlməyə başlayan Azərbaycan kinematoqrafının böyük tamaşaçı sevgisi qazanmış ən "qocaman" və ilk rəngli ekran əsəridir.**



Rejissoru Hüseyn Seyidzadə, ssenari müəlifi Sabit Rəhman, quruluşçu operatoru Əlisəttar Atakişiyev, musiqi redaktoru və dirijoru Fikrət Əmirov olan bu populyar film dnyanın 50 ölkəsində nümayiş etdirilib. Həm operetta, həm musiqili komediya, həm də bədii film kimi ən çox uğur



qazanan əsər olub. Süjet xəttini hər kəsin, az qala, əzbər bildiyi filmdə əsas rollarda Əliağa Ağayev, Arif Mirzəquliyev, Tamara Gözəlova, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, İsmayıl Əfəndiyev, Mustafa Mərdanov, İsmayıl Osmanlı, Möhsün Sənani, Lütfəli Abdullayev və başqa "ulduzlar" çəkiliblər.

Filmin hadisələri 1910-cu ilin Bakı həyatından götürülüb. Gənc Sərvərlə Gülnazın ülvi sevgisindən, məhəbbətin cəhalətə, pula və feodal qalıqlarına qalib gəlməsindən bəhs olunur. Bir qədər də yumor estetikası ilə təqdim olunan ekran əsərində baş qəhrəmanlarla yanaşı, Rüstəm bəyin bir çox dost-tanışı: tacirlər, qoçular, qələmini pula satan qəzetçilər də olaylarda iştirak edirlər. Tamaşaçılar mənfi tipajların belə oyununa həvəslə baxırlar. Bazarda qoçuların davası, Rüstəm bəyin evində qonaqların qalmaqalı, hamam səhnələri və s. kinokomediyanın əsasını təşkil edən ictimai motivlər kölgədə qoymur, əksinə onun koloritini artırır. Sonda bütün çətinliklərə baxmayaraq, sevgililər qovuşurlar. Yaşlı Məşədi İbad isə qulluqçu Sənəmlə kəbin kəsdirməli olur...

Qeyd edək ki, rejissor Hüseyn Seyidzadə filmdə Məşədi İbad roluna aktyor Mirzəağa Əliyevi çəkmək istəyib. Lakin çəkilişlər yenicə başlananda aktyor vəfat etdiyi üçün onu Əliağa Ağayev əvəzləyib. Ekran əsərinin qonaqlıq səhnəsində Xan Şuşinski "Kürd-Şahnaz" muğamını ifa edib, Tükəzban İsmayılova isə "Segah" muğamı üstündə oxuyub. Qəhrəmanların mahnılarını isə Mirzə Babayev və Firəngiz Əhmədova səsləndiriblər. Rəqqasə Əminə Dilbazi, tarzən Bəhram Mansurov, kamança ifaçısı Tələt Bakıxanov da filmdə iştirak ediblər. Kino əsərində Novruz səhnələrinə qadağa qoyulsa da, "O olmasın, bu olsun"un hər il martın 21-də ekranlara çıxarılması zamanına görə əsl cəsarət nümunəsi sayılmalıdır.

Bu il yubileyi olan digər məşhur filmlər 1961-ci ildə çəkilmiş "Leyli və Məcnun", "Kor ərəbin mahnısı", "Bizim küçə"dir. Düz 65 il əvvəl ekranlara çıxmış bu filmlər



də son dərəcə böyük maraqla qarşılanıb.

"Leyli və Məcnun" film-dastanı sevgililərin faciəvi taleyi ilə bağlı Şərq poeziyasında yüz illərlə yaşayan qədim rəvayətin ekran təcəssümüdür. Vizual sevgi hekayətində Məhəmməd Füzulinin eyni adlı poemasının motivləri əsas götürülüb. Eyni zamanda, Nizami Gəncəvinin poemasından Zeyd ilə Zeynəbin sevgi motivindən də istifadə edilib.

Azərbaycan kinosunda öz yeri olan sənət nümunələrindən sayılan bu filmin ssenari müəllifi Ənvər Məmmədxanlı, quruluşçu rejissoru Lətif Səfərov, əsas operatoru Arif Nərimanbəyov, bəstəkarı isə Qara Qarayev olub. Əsas rollarda Nodar Şaşıqoğlu (Qeys), Kima Məmmədova (Leyli), Gündüz Abbasov (Qeys), Rafiq Tağıyev (Nofəl), Qriqori Tonuns (İbn Səlam), Əli Zeynalov (Şeyx Haşimi) oynayıblar. Digər obrazları isə Ələsgər Ələkbərov, Firəngiz Qurbanova, Nəcibə Məlikova, Ağasadıq Gəraybəyli, Adil İsgəndərov, Məmmədrza Şeyxzamanov, Lütfi Məmmədbəyli, Müxlis Cənizadə və başqaları canlandırıblar.

Kinoşünasların yazdığına görə, 1955-1960-cı illərdə ərəb ölkələrində "Leyli və Məcnun" faciəsi mövzusunda bir neçə film çəkilib. "Azərbaycanfilm" kinostudiyasının da o zaman belə bir əsərə müraciət etməsi yaradıcılarımızdan cəsarət tələb edirdi. Məlum dastanlardan və filmlərdən fərqli bir ssenari yazılıb və kinolentinə orijinal quruluş verilib.

Müəlliflər burada iki sevən gəncin taleyi ilə bərabər, orta əsr rəzalətlərini, islam fanatizminin dəhşətlərini məharətlə açıb göstəriblər. Qeys adi divanə deyil, fövqəladə dərəcədə ağıllı və zəkalı biri kimi təqdim olunur. O, şəhər meydanında zəncirli halda söylədiyi monoloqunda hakim feodal-ruhani əxlaqının mənəvi əsarətinə, hünər və kamal əhlinin başına gətirilən müsibətlərə qarşı etiraz səsini ucaldır: "...Mənim qollarım bağlıdırsa, sizin ruhunuz, sizin varlığınız bu zəncirdədir. Mənim ayaqlarım bağlıdırsa, sizin ümidləriniz, arzularınız bu zəncirdədir. Mənim boynum bağlıdırsa, sizin duyğularınız, düşüncələriniz bu zəncirdədir. Əgər həqiqət axtarırsınızsa, nicat istəyirsinizsə, qırın siz də o paslı zəncirləri…"

60-cı illərin mətbuatı yazırdı ki, tamaşaçı Qeysin halına yalnız acımır, həm də başlıca olaraq onun müdrik fikirlərinə, nəcib hərəkətlərinə şərik çıxır və hətta yerindən qalxıb ucsuz-bucaqsız qumlu səhralarda Qeysin tənha səsinə səs vermək istəyir.

Məcnun rolunu ifa edən Nodar Şaşıqoğlu da, digər müqtədir sənətkarlar da təxminən 1 saat 45 dəqiqə davam edən film boyu tamaşaçını həyəcanda saxlaya biliblər. Leyli obrazının ifaçısı Kima Məmmədova haqqında məlumat az olsa da, öyrənə bildik ki, bu aktrisa "Azərbaycanfilm"in istehsal etdiyi "Əsl dost" (1959), "Telefonçu qız" (1962) və "Mən ki, gözəl deyildim" (1968) filmlərinə də çəkilib.

***Ə.DOSTƏLİ***
***XQ***

*Təqvim yada salır*

# Ədəbiyyatşünasın "Qarabağnamə"si

## *Əsəd Cahangirin "Səs" essesi və "Xarıgülnar" poeması barədə qeydlər*

**Həyatı anlayanlar, dərk edənlər, öyrənənlər çox şeyə vaqif olurlar. Tanrının bəxş etdiyi ömür payını elm, irfan, ədəb, mərifət içərisində keçirirlər. O da öyrənirdi. Gecəsini-gündüzünə qatıb nəhayətsiz bilik ümmanına baş vururdu. Elə ilk yazılarında istedad nişanəsi duyulurdu.**

Elmə yiyələnməkdə qüvvəli, təpərliydi. Azərbaycan ədəbiyyatının, dünya söz sənəti korifeylərinin əsərlərini oxumaqdan, görkəmli tənqidçilərin qiymətli irsini əxz etməkdən yorulmurdu. Ədəbiyyat bir ahənrübatək onu həmişə özünə çəkir, möcüzəli cazibəsində saxlayırdı.

Əsəd Cahangir çağdaş söz sənətimizdə və ədəbi tənqidimizdə sayılıb-seçilən, çevik ədəbi prosesi izləmək, istiqamətləndirmək missiyasını çiynində daşıyan ünlü isimlərdəndir. Azərbaycan ədəbiyyatşünaslığına töhfələr bəxş edən tanınmış ədəbi tənqidçi, esseist, incə ruhlu şeirlər müəllifinin qələmə aldığı mövzulara



özünəməxsus fəlsəfi baxışı, fərqli yanaşması var. Ədəbiyyat və incəsənətin elə bir sahəsi yoxdur ki, onda maraq doğurmasın. Əsəd Cahangirin teatr və kino resenziyaları, tarixi, dini, fəlsəfi məqalələri, icmalları, sənət adamları haqqında portret və təhlili yazıları maraqla oxunur.

Görkəmli ədəbi tənqidçilər, ədəbiyyatşünas alimlər, qələm dostları Əsəd Cahangirin intellektual mövzulu əsərlərini yüksək qiymətləndiriblər. Akademik Nizami Cəfərov, Xalq yazıçıları Anar, Elçin, Sabir Əhmədli, Afaq Məsud, Xalq şairləri Fikrət Qoca, Ramiz Rövşən, tanınmış söz adamı, şair-publisist Elxan Zal Qaraxanlı və başqaları müəllifin esselərini və poemalarını yeni üslubda yazılmış əsərlər kimi qiymətləndiriblər.

Əsəd Cahangirin yaradıcılığında Qarabağ mövzusu əhatəli yer tutur. Bu əsərlərin məna yükü, ifadə forması fərqlidir, qutsal ideyası ümumbəşəri prinsiplərə əsaslanır. Qarabağ şəhidlərimizin ruhuna ithaf olunmuş "Səs" essesi və "Xarıgülnar" poemasında şəhidliyin estetik anlamı incələnib.

"Oyanmış ruhun özünüdərki" məqaləsinin müəllifi, akademik Nizami Cəfərovun fikrincə, dialektik düşüncə, ehkamçılıqdan uzaqlıq, dünyaya və onun bədii inikası olan sözə daimi dəyişmə, inkişaf və ya tənəzzüldə olan canlı proses kimi baxmaq – Əsəd Cahangirin düşüncəsinə məxsus daha bir cəhət budur. Bu, onun yazılarına qabarıq nəzərə çarpan tarixilik keyfiyyəti verir... Bunu "Səs", "Dəmirbaşlar", "Aprel tezisləri" kimi təsirli esselərində də aydın görürük. Əsəd bütün yazılarında ilk essesinin sərlövhəsinə sadiqdir... Onun yazılarının alt yapısında bir fəlsəfi suala cavab cəhdi durur: Hardan gəlib, hara gedirik?

Akademik qeyd edir ki, "Səs" essesində məmləkətimizi 3 geokulturoloji–söz, səs və rəng məkanlarına bölür. Naxçıvan, Göyçə, Qazax və Borçalı sözün, Qarabağ səsin, Bakı və Şirvan isə rəngin məkanıdır: "Başqa sözlə, "Səs", bütünlüklə, "Qarabağnamə"dir. Bu əsərdə Qarabağ ədəbi mühitinin həm də tarixilik baxımından yeri və rolu geniş əks etdirilmişdir. "Səs"də tarixə metatarixi baxış var və bunun hesabına Qarabağa da, səsə də yanaşmanın hüdudları müqayisəsiz dərəcədə genişlənir. Min dəfələrlə eşitdiklərimizi, gördüklərimizi, sanki, ilk dəfə görür. Müəlliflə birlikdə biz də öz ölkəmizi geokulturoloji rakursdan yenidən kəşf edirik".

Qarabağ bizim səs incəsənətimizin bətnidir, Qarabağ uğrunda şəhadət özünü milli varlığımız uğrunda qurban vermək deməkdir" söyləyən müəllifin milli qüruru, güvənci, modernist təfəkkürü heyranlıq doğurur. Əsədin "Səs"i, ünü ucalırdı, fitrən istedadlı, ədəbi zirvələri sözlə fəth edən qələm adamının Qarabağ həqiqətlərindən bəhs edən bu essesini bütün məmləkət oxuyurdu. Çünki "Səs" haqqın, ədalətin səsi idi. Təsadüfi deyil ki, Əsəd Cahangir bu müqəddəs mövzuya həsr olunmuş "Səs" (1999) essesinə görə Azərbaycan Yazıçılar Birliyinin təsis etdiyi "İlin tənqidçisi" adına layiq görülüb.

Az sonra müəllif oxucularını Qarabağ mövzusunda qələmə aldığı daha bir əsəri ilə duyğulandırdı. "Xarıgülnar" poeması ilə. Əl-əl gəzib axtarılan yeni epik əsərə verilmiş bənzərsiz addan tutmuş, poemanın məna yükü, bədii siqləti, qayəsinədək hər şey düşündürücüdür.

Əsəd Cahangirin yaradıcılıq fəaliyyətinin daha bir yönü, qolu var: tərcüməçilik. Onun hələ 2012-ci ildə ruscadan dilimizə çevirdiyi "Erməni genosidi: mif və həqiqət" kitabında erməni soyqırımı məsələsinin əsl mahiyyəti üzə çıxarılıb.

"Ən böyük qazancım Tanrıya inamımdır. Həyat bir məktəbdir və burda əsas məsələ ruhun mümkün qədər çoxlu bilgi toplamasıdır", – deyən Əsəd Cahangir ömrünün kamillik mərhələsinə qədəm qoyub. Düşüncə, fikir adamı, bədahətən şeirlər söyləyən qələm dostumuz Əsəd Cahangirə ömrünün yetkinlik çağına qapı açan yeddinci onilliyin başlanğıcında yaradıcılıq üfüqləri fəth etməyi, ədəbi cameəmizi və oxucularını yeni əsərlərlə sevindirməyi arzulayırıq.

***Zemfira MƏHƏRRƏMLİ,***
***yazıçı-publisist***

# Borçalı türkoloq oğlunu unutmur




**Gürcüstanda fəaliyyət göstərən Qafqaz Hüquq və İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə Bolnisi Bələdiyyəsinin mərkəzində görkəmli türkoloq, professor Mədəd Çobanovun xatirəsi ehtiramla anılıb.**

Mərasim iştirakçıları dilçi-alimin yaradıcılığını əks etdirən, haqqında yazılmış kitablardan ibarət sərgi ilə tanış olublar.

Qafqaz Hüquq və İnteqrasiya Mərkəzinin direktoru Rezo Həsənov Mədəd Çobanovun ömür yolu, elmi yaradıcılığı, pedaqoji və ictimai fəaliyyəti haqqında ətraflı məlumat verib. Alimin yetirməsi Tahirə Əliyeva unudulmaz müəlliminin ana dilimizə, milli mədəniyyətimizə və türkologiya elminə verdiyi dəyərli töhfələr barədə geniş təqdimatla çıxış edib.

Mərasimdə müəllimlər, ziyalılar, mərhum alimin tələbələri, ailə üzvləri və Darvaz ictimai məktəbinin şagirdləri çıxış edərək professor Mədəd Çobanovla bağlı xatirələrini bölüşüblər.

Gürcüstan parlamentinin keçmiş deputatı, tarixçi-alim və ictimai xadim Ramiz Bəkirov, Faxralı ictimai məktəbinin müəllimi Bayram Abbasov, Kəpənəkçi və Darvaz ictimai məktəbinin müəllimi Zakir Məmmədov, Mədəd Çobanovun Tbilisi Dövlət Pedaqoji Unuversitetində çalışdığı illərdə dərs dediyi keçmiş tələbələrindən Tinatin Əliyeva, Kifayət Cəfərli, Minarə Gərəkova, Nənəxanım Bayramova alimin elmi və mənəvi irsinin gələcək nəsillərə çatdırılmasının əhəmiyyətini vurğulayıblar.

***XQ***

# "Xəzər" ansamblı "Neva" sahillərində




**Rusiyada Azərbaycan milli xoreoqrafiya sənətini təbliğ edən "Xəzər" Azərbaycan xalq rəqsləri ansamblı Sankt-Peterburqda 7-ci dəfə hesabat konsertini təqdim edib.**

"Xəzər" ansamblının bədii rəhbəri Nurlan Zərbəliyev tamaşaçılara kollektivin 2019-cu ildə təsis edildiyi gündən bəri fəaliyyəti və nailiyyətləri barədə danışıb.

Sonda Azərbaycanın Əməkdar artisti Xanlar Bəşirovun iştirakı ilə Azərbaycanın zəngin xalq rəqsləri repertuarından ibarət konsert proqramı təqdim olunub.

Konserti ölkəmizin Sankt-Peterburqdakı baş konsulu vəzifəsini icra edən Anar Yusifzadə, Türkiyənin baş konsulu Beşer Başol, Azərbaycan icmasının nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, azərbaycanlı tələbələr maraqla izləyiblər.

***XQ***

*Dünya çempionatı – 2026*

# Qrup mərhələsinin II turu başa çatır

## *Haiti, Türkiyə və Tunis çempionatla vidalaşdı*

**Futbol üzrə Dünya çempionatının qrup mərhələsinin 2-ci turunun oyunları sona yaxınlaşır. Artıq ilk 2 turun nəticələrinə görə Haiti, Türkiyə və Tunis millilər turnirlə rəsmən vidalaşıb.**



İyunun 19-da keçirilən oyunlarda C və D qruplarında gərgin mübarizə qeydə alınıb və ümumilikdə 7 qol vurulub. D qrupunda Sietl stadionunda baş tutan görüşdə ev sahibləri ABŞ Avstraliya üzərində üstün oyunla qələbə qazanıb–2:0. Oyunda qolları 11-ci dəqiqədə Kameron Börces (avtoqol) və 44-cü dəqiqədə Aleks Frimen vurub.

Həmin qrupda Paraqvay millisi Türkiyə ilə qarşılaşıb. San-Fransiskoda baş tutan qarşılaşmada Türkiyə millisi 0:1 hesablı məğlubiyyətlə üzləşərək mundialdakı pley-off ümidləri ilə vaxtından əvvəl vidalaşıb. Görüşün 2-ci dəqiqəsində Xulio Ensisonun ötürməsindən sonra Paraqvay millisinin yarımmüdafiəçisi Matias Qalarsa uzaq məsafədən dəqiq zərbə ilə hesabı açıb. Türklər birinci hissənin sonlarında azlıqda qalan paraqvaylılarla bacara bilməyib.





C qrupunda Braziliya Haitini böyük hesabla məğlub edib. İlk oyundakı xal itkisindən sonra "sambaçılar" rəqibini məğlub edib. 23-cü və 36-cı dəqiqələrdə Mateus Kunya hesabı 2-yə çatdırıb. Matçın ilk hissəsinə əlavə olunmuş vaxtda (45+3-cü dəqiqədə) Lukas Paketanın ötürməsindən sonra qapıçı ilə təkbətək çıxan Vinisius Junior yekun hesabı müəyyənləşdirib 3:0. Bu məğlubiyyətdən sonra Haiti yığması isə pley-off şansını tamamilə itirib.

Boston stadionunda keçirilən bu qrupdakı digər matçda Mərakeş Şotlandiya ilə görüşüb. İsmail Saibari matçın 2-ci dəqiqəsində (70-ci saniyəsində) İspaniyanın "Real Sosyedad" klubunun ulduzu Brahim Diazın ötürməsindən sonra topu qapının üst küncünə vuraraq hesabı açıb–1:0.

İyunun 20-də E və F qruplarında keçirilən qarşılaşmalarda hücum futbolun ön plana çıxdığı həmin gün azarkeşlər 13 qolun şahidi olublar.

F qrupunda Niderland–İsveç matçı Hüston stadionunda baş tutub. Niderlandlılar turnirin ən böyük darmadağınlarından birinə imza atıblar–5:1. Brayan Brobbi matçın 5-ci və 17-ci dəqiqələrində erkən qollarla dubl edərək Niderlandı sürətlə önə keçirib–2:0. Kodi Qakpo ikinci hissənin əvvəlində, 47-ci və 54-cü dəqiqələrdə vurduğu qollarla hesabı 4:0 edib. Entoni Elanqa 59-cu dəqiqədə İsveç millisinin oyundakı yeganə təsəlli qoluna imza atıb. Krisensio Sammervill matçın 89-cu dəqiqəsində yekun hesabı (5:1) müəyyənləşdirib.

Bu qrupda Yaponiyanın komandası Tunis üzərində inamlı qələbə qazanıb–4:0. Daiçi Kamada qarşılaşmanın 4-cü dəqiqəsində Keito Nakamuranın ötürməsini qapıdan keçirərək hesabı açıb. Bu, Yaponiyanın DÇ tarixində vurduğu ən erkən qol olub. Ayase Ueda 31-ci dəqiqədə cərimə meydançasının kənarından uzaq küncə güclü zərbə ilə hesabı 2:0 edib. O, 83-cü dəqiqədə növbəti qolunu vuraraq baxımlı baş zərbəsi ilə dublunu tamamlayıb və matçın ən yaxşı oyunçusu seçilib. Cunya İto isə 69-cu dəqiqədə Uedanın ötürməsindən sonra qapıçı ilə təkbətək çıxaraq komandasının üçüncü qoluna imza atıb.

Afrikalılar bu məğlubiyyətdən sonra rəsmən turnirdən kənarlaşdırılıblar.

E qrupunda Almaniya Fil Dişi Sahili ilə qarşılaşıb. Torontoda keçirilən dramatik oyunda almanlar minimal fərqlə qalib gələrək (2:1) növbəti pley-off vəsiqəsini təmin ediblər. Frans Kessi oyunun 30-cu dəqiqəsində Yan Diomandenin ötürməsindən sonra afrikalıları hesabda önə keçirib. Deniz Undav 68-ci dəqiqədə və matçın sonuna əlavə olunmuş vaxtda (90+4-cü dəqiqədə) 2 qol vuraraq almanlara qələbə qazandırıb.

E qrupunda Kanzas Siti stadionunda keçirilən Ekvador – Kurasao oyununda hesab açılmayıb–0:0.

İyunun 21-də – turnirin nəhənglərinin meydana çıxdığı bu gündə qapılara 11 qol vurulub. Atlantada keçirilən H qrupunda İspaniya–Səudiyyə Ərəbistanı qarşılaşmasında gənc ulduz Lamine Yamal Dünya çempionatında ilk qolunu vurub. İspanların rəqib qapısına vurduğu 4 cavabsız qol onların növbəti mərhələyə adlamaq şansını xeyli artırıb. Matçın 11-ci dəqiqəsində Lamin Yamal Mikel Oyarsabalın ötürməsindən sonra hesabı açaraq, İspaniya forması ilə DÇ tarixində qol vuran ən gənc ikinci futbolçu olub. İspanların hücumçusu Mikel Oyarsabal 21-ci və 24-cü dəqiqələrdə ard-arda iki qol vuraraq dubla imza atıb və matçın ən yaxşı oyunçusu seçilib. Həsən Əl-Tambakti ikinci hissənin əvvəlində, 49-cu dəqiqədə Səudiyyə Ərəbistanı millisinin müdafiəçisi Həsən Əl-Tambakti topu öz qapısına göndərərək (avtoqol) yekun hesabı müəyyənləşdirib–4:0.

G qrupunda Misir–Yeni Zelandiya görüşündə Məhəmməd Salahın liderliyində Afrika təmsilçisi tarixi qələbə qazanıb–3:1. Finn Serman 15-ci dəqiqədə künc zərbəsindən sonra güclü baş zərbəsi ilə Yeni Zelandiya millisini hesabda önə keçirib–1:0. Mustafa Ziko 58-ci dəqiqədə Məhəmməd Haninin ötürməsindən sonra başla dəqiq oynayaraq hesabı bərabərləşdirib–1:1. Məhəmməd Salah 67-ci dəqiqədə Mustafa Zikonun dabanla ötürməsindən sonra sol ayağı ilə uzaq küncü dəqiq nişan alaraq Misiri önə keçirib–2:1. Trezeqe 82-ci dəqiqədə Məhəmməd Salahın yerinə yetirdiyi künc zərbəsindən ötürülən topu başla qapıdan keçirərək yekun hesabı müəyyənləşdirib–3:1.

Həmin qrupda Belçika–İran görüşündə qol vurulmayıb. Belçika millisi 10 nəfərlə qaldığı matçda İranın inadkar müdafiəsini yara bilməyib və tərəflər xalları bölüşüb.

H qrupunda Uruqvay – Kabo-Verde qarşılaşması da dramatikliyi ilə yadda qalıb. Mundialın debütantı Kabo-Verde tarixi oyun nümayiş etdirərək güclü Uruqvaydan 1 xal qoparmağı bacarıb. Kevin Lenini oyunun 21-ci dəqiqəsində cərimə zərbəsindən, təxminən, 30 metrlik məsafədən baxımlı qol vuraraq Kabo-Verdeni hesabda önə keçirib–1:0. Bu debütant ölkənin Dünya çempionatları tarixindəki ilk qolu kimi qeydə alınıb. Maksimiliano Arauxo 44-cü dəqiqədə rəqib müdafiəçinin öz dirəklərinə vurmasından sonra qayıdan topu başla tamamlayaraq Uruqvay üçün bərabərlik qolunu vurub–1:1. Aqustin Kanobbio ilk hissəyə əlavə olunmuş vaxtda (45+6-cı dəqiqədə) Arauxonun ötürməsini qapıdan keçirərək Uruqvay millisini fasiləyə üstün yollayıb–2:1. Lakin Kabo-Verde təslim olmayıb. Oyuna sonradan daxil olan hücumçu Elio Varela 61-ci dəqiqədə Uruqvayın qapıçısı Fernando Musleranın kobud səhvindən istifadə edərək topu boş qapıya göndərib və matçın yekun hesabını (2:2) müəyyənləşdirib.



Dünən axşam J qrupunda keçirilən Argentina – Avstriya oyununda keçmiş dünya çempionları 2:0 hesabı ilə qalib gəlib. Matçın 9-cu dəqiqəsində penalti zərbəsindən yararlana bilməyən dünya futbolunun ulduzu Leonel Messi 38-ci və 90+5 dəqiqələrdə vurduğu qollarla dubla imza atıb. Bu oyundakı qolları ilə Messi DÇ tarixində ümumi qol sayını 18-ə çatdıraraq Miroslav Klozeni geridə qoyub və dünya çempionatlarının bütün zamanların ən çox qol vuran futbolçusu olaraq mütləq rekorda imza atıb.

Bu gün gecə və səhər saatlarında keçirilən 3 qarşılaşma ilə qrup mərhələsinin II turu başa çatıb. Futbol azarkeşlərinin maraqla izlədiyi J qrupunda İordaniya – Əlcəzair, I qrupunda isə Fransa – İraq və Norveç – Seneqal görüşləri ilə 2-ci tura yekun vurulub. Qarşıda isə bizi qrup mərhələsinin həlledici görüşləri–3-cü turun oyunları gözləyir.

***Qabil ƏLİYEV***
***XQ***

*Beynəlxalq həyat*



# İsveçrədə İran–ABŞ danışıqları

## *Əyləc altında irəliləyiş*

**İsveçrənin Bürgenstok şəhərində keçirilən İran–ABŞ danışıqları tərəflərin illərdir davam edən qarşıdurması fonunda diqqətçəkən diplomatik hadisə kimi qiymətləndirilə bilər. Hələlik yekun siyasi razılaşmadan söhbət getməsə də, görüşün nəticələri prosesin formal təmas mərhələsindən çıxaraq strukturlaşdırılmış müzakirə mərhələsinə keçdiyini göstərir.**



Pakistan və Qətərin vasitəçiliyi ilə keçirilən görüşdən sonra yayılan birgə bəyanatda danışıqların "müsbət və konstruktiv atmosferdə" keçdiyi vurğulanıb. Vasitəçilər tərəflərin qarşılıqlı maraq doğuran məsələlər üzrə irəliləyiş əldə etdiyini, həmçinin texniki müzakirələrin həftə boyunca davam etdirilməsi barədə razılığa gəldiyini bildiriblər. Rəsmi açıqlamaya görə, danışıqların növbəti mərhələsi konkret mexanizmlərin hazırlanmasına həsr olunacaq.

İranın xarici işlər naziri Abbas Əraqçi görüşdən sonra verdiyi açıqlamada prosesin faydalı keçdiyini qeyd edib və Pakistanla Qətərin vasitəçilik rolunu yüksək qiymətləndirib. Onun sözlərinə görə, tərəflər bir sıra həssas mövzular üzrə dialoqu davam etdirmək üçün lazımi siyasi iradə nümayiş etdiriblər. Bununla belə, Tehran nüvə proqramı və sanksiyalar kimi əsas mübahisəli məsələlər üzrə yekun razılığın əldə olunduğunu bəyan etməyib. Bu da İran tərəfinin prosesə nikbin, lakin ehtiyatlı yanaşdığını göstərir.

ABŞ nümayəndə heyətinin açıqlamaları da oxşar tondadır. Vaşinqton danışıqların geniş gündəlik əsasında aparıldığını, nüvə proqramı ilə yanaşı, regional təhlükəsizlik məsələlərinin də müzakirə olunduğunu təsdiqləyib. ABŞ tərəfi, həmçinin əldə olunan nəticələri hələlik ilkin mərhələnin məhsulu kimi təqdim edib və əsas fikir ayrılıqlarının aradan qalxmadığını vurğulayır.

Danışıqların ən mühüm nəticəsi tərəflərin prosesi davam etdirmək barədə razılığa gəlməsi hesab olunur. Məlumatlara görə, yaxın iki ay ərzində mümkün razılaşmanın parametrlərini müəyyənləşdirməyə yönəlmiş yol xəritəsi üzərində iş aparılacaq. Bu isə o deməkdir ki, tərəflər siyasi bəyanatlarla kifayətlənməyərək müzakirələri konkret texniki və hüquqi müstəviyə keçirməyə hazırdırlar. Diplomatik praktikada belə addımlar adətən müəyyən qarşılıqlı etimadın formalaşdığını göstərən siqnal kimi qəbul edilir. İsveçrə hökuməti də görüşlə bağlı açıqlamasında ölkənin dialoq üçün neytral platforma təqdim etdiyini və tərəflərin bir masa arxasında toplaşmasını regional sabitlik baxımından müsbət hadisə kimi qiymətləndirdiyini bildirib.

Baş verənləri təhlil etdikdə Bürgenstok görüşünü diplomatik proses baxımından müəyyən uğur saymaq olar. Lakin bu uğurun miqyasını şişirtmək o qədər də düzgün olmazdı. Çünki İranın nüvə proqramının gələcəyi, sanksiyaların taleyi, regional təhlükəsizlik arxitekturası və qarşılıqlı öhdəliklərin mexanizmləri kimi mürəkkəb məsələlər hələ müzakirə mərhələsindədir.

Elə bu səbəbdən hazırkı vəziyyəti nə diplomatik sıçrayış, nə də sıradan bir görüş kimi xarakterizə etmək mümkündür. Daha balanslı qiymətləndirmə o ola bilər ki, tərəflər uzun müddət davam edən gərginlik fonunda danışıqlar prosesini qoruyub saxlaya biliblər və ilk dəfə onu konkret siyasi və texniki çərçivəyə salmağa nail olublar.

***N.BEYDİYEVA***
***XQ***


## "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

24 iyul 2026-cı il saat 11.00-da Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti 1965-ci məhəllə, "Çinar Park" Biznes Mərkəzi, bina 1, 413 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** İmtiyazlı səhmin alqı-satqısı barədə müzakirə.

**2.** Müşahidə şurasının fəaliyyət qaydalarına dəyişiklik edilməsi barədə müzakirə.

**3.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı saat 12.00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu – (+994 12) 311-41-45.**

**E-mail – info@finexkredit.az**

**Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti, 1965-ci məhəllə, "Çinar Park" Biznes Mərkəzi, bina 1, 413 nömrəli ofis.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 108 (31077) 23 iyun 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Fransada parabadminton bürüncü

**Fransanın Mülüz şəhərində keçirilən Beynəlxalq Parabadminton Turnirinə yekun vurulub. 20 yaşlı parabadmintonçumuz İbrahim Əliyev kişi idmançıların birgə mübarizə apardığı qoşa yarışda (SU-5 kateqoriyası) polşalı tərəfdaşı Bartlomiej Mroz ilə birlikdə bürünc medal qazanıb.**




Cütlük qrup mərhələsində braziliyalı rəqibləri Ramos Santos və Yeily Rodrigues üzərində qələbə qazanıb, Çin Taypeyini təmsil edən Jen-Yu Fang və Gui Yu Pu cütlüyünə isə məğlub olub.

Bu nəticə ilə yarımfinala yüksələn İbrahim Əliyev və Bartlomiej Mroz Malayziya təmsilçiləri Mohamed Azri və Cheah Liek Hou ilə qarşılaşmada məğlub olaraq turniri bürünc medalla başa vurublar.

### Həmyerlilərimiz Monte Paternonun zirvəsində



**Bakı – Azərbaycan Alpinizm Federasiyasının üzvləri Fidan Məmmədova və Sima Səfərova 18–19 iyunda İtaliya Respublikasının şimalında yerləşən və UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Dolomit dağlarında növbəti uğurlu dağçılıq fəaliyyətini həyata keçiriblər.**

Federasiya üzvləri Tre Cime di Lavaredo (Tre Çime di Lavaredo – "Lavaredonun üç zirvəsi") massivində yerləşən, 2744 metr hündürlüyə malik Monte Paterno zirvəsinə məşhur De Luca–Innerkofler Via Ferrata marşrutu üzrə uğurla yüksəliblər. Texniki xüsusiyyətləri, qayalıq keçidləri, ekspozisiyalı hissələri və Birinci Dünya müharibəsi dövründən qalmış tarixi tunelləri ilə seçilən bu marşrut Dolomitlərin ən maraqlı və populyar via ferrata marşrutlarından biridir.

Yüksəliş zamanı iştirakçılar mürəkkəb dağ relyefi, sıldırım qayalıqlar və yüksək dağ şəraitinin yaratdığı çətinlikləri uğurla dəf edərək zirvəyə çatıblar. Zirvədən Tre Cime di Lavaredo, Cadini di Misurina və ətraf Dolomit silsilələrinin möhtəşəm mənzərələri müşahidə olunub.

### Badmintonçumuzun Serbiya uğuru



**Yeniyetmə badmintonçumuz Leyla Camalzadə Serbiyanın Novi Sad şəhərində keçirilən "Serbian U17 International" turnirində bürünc medal qazanıb.**

Leyla Camalzadə qız bamdintonçuların şəxsi yarışında keçirdiyi ilk görüşdə Rumıniya təmsilçisi Ariana Giurgievə 2:0 (21-5, 21-6) hesabı ilə qalib gəlib. Badmintonçumuz 1/16 finalda 3 setin yekununda Xorvatiya idmançısı Maja Praniçi mübarizədən kənarlaşdırıb – 2:1 (22-20, 16-21, 21-15).

1/8 finalda Türkiyə badmintonçusu Elanur Taskirani 2:0 (21-19,21-15) hesabı ilə məğlub edən Leyla 1/4 finalda polşalı Hanna Vylegaya ilə çətin görüşdə qələbə qazanmağı bacarıb – 2:1 (21-7, 15-21, 21-19).

Yarımfinala yüksəlməklə bürünc medalı təmin edən Leyla finalın bir addımlığında turnirin qalibi Bolqarıstan badmintonçusu Maria Popova uduzub – 0:2 (16-21, 14-21).

*Qabil YUSİFOĞLU*
*XQ*




# Ərik Festivalı Samuxda bərəkət bayramına çevrilib



**İyunun bərəkəti bu dəfə Samuxa ərik ətri ilə gəlib. Günəşin altında qızaran bağlar, budaqlardan sallanan narıncı meyvələr, kənd adamının bir illik zəhməti və minlərlə qonağın marağı Samuxu yenidən böyük bayram meydanına çevirib.**

Samux rayonunda "Regional İnkişaf" İctimai Birliyi, Samux Rayon İcra Hakimiyyəti, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Turizm Agentliyinin birgə təşkilatçılığı ilə "III Ərik Festivalı" və "Aqrar Biznes Festivalı" keçirilib.

Artıq ənənəyə çevrilən festival təkcə kənd təsərrüfatı tədbiri deyil, həm də Samuxun zəhmətkeş insanlarının, məhsuldar torpaqlarının və zəngin mədəniyyətinin təqdimatıdır. Rayonun müxtəlif guşələrindən, eləcə də ölkənin ayrı-ayrı bölgələrindən gələn qonaqlar gün ərzində həm Samux ərikçiliyinin uğurlarının, həm də milli dəyərlərimizi əks etdirən maraqlı proqramların şahidi olublar.

Festival iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsini ehtiramla yad ediblər. Daha sonra şəhərin mərkəzində bayram yürüşü təşkil olunub. Milli musiqinin müşayiəti ilə keçən yürüş Samux küçələrinə xüsusi rəng qatıb, şəhəri əsl festival ab-havasına bürüyüb.

Festivalın əsas ünvanına çevrilən Samux parkında isə ərik, sözün əsl mənasında, baş qəhrəman olub. Fermerlərin yetişdirdikləri müxtəlif ərik sortları, ərikdən hazırlanan mürəbbələr, şirələr və digər məhsullar sərgilənib. Qonaqlar bir tərəfdən məhsulların dadına baxıb, digər tərəfdən isə Samuxun bağçılıq ənənələri ilə yaxından tanış olublar.

Tədbirdə çıxış edən Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev bildirib ki, rayonda bağçılıq ildən-ilə inkişaf edir. Onun sözlərinə görə, hazırda Samuxda 500 hektardan artıq ərik bağı mövcuddur və burada 16 müxtəlif ərik sortu yetişdirilir. Qeyd olunub ki, dövlət başçısının qeyri-neft sektorunun inkişafına göstərdiyi diqqət kənd təsərrüfatında, xüsusilə də bağçılıq sahəsində mühüm nəticələrə yol açıb.



Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli isə çıxışında vurğulayıb ki, ölkədə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən siyasət məhsuldarlığın artırılmasına, müasir texnologiyaların tətbiqinə və fermerlərin bazar imkanlarının genişlənməsinə xidmət edir. Onun sözlərinə görə, Samuxda keçirilən bu festival həm yerli məhsulların tanıdılması, həm də aqrar sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

Festival çərçivəsində aqrar texnikalar, innovativ avadanlıqlar, toxum və gübrə məhsulları nümayiş etdirilib, fermerlər üçün maarifləndirici təqdimatlar keçirilib. Eyni zamanda sənətkarların əl işləri, məktəblilərin rəsm sərgiləri, milli rəqslər, idman yarışları və müxtəlif əyləncə proqramları tədbirə xüsusi rəng qatıb.

Günün sonunda isə Samux səhnəsi musiqinin, alqışların və bayram sevincinin ünvanına çevrilib. Tanınmış incəsənət nümayəndələrinin çıxışları ilə davam edən festival möhtəşəm atəşfəşanlıqla yekunlaşıb. Həmin axşam Samux bir daha göstərdi ki, ərik həm də zəhmətin, bərəkətin və torpağa bağlılığın rəmzidir.

*Hamlet QASIMOV,*
*XQ-nin Gəncəbasar müxbiri*

## HAVA

# Bakıda yağmursuz, rayonlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz havanın qısa müddətə tutulacağı, bəzi şəhərətrafı ərazilərdə az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyinin arabir güclənəcəyi gözlənilir.**



Havanın temperaturu gecə 19-22° isti, gündüz 26-29° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 60-70 % olacaq.

Abşeron çimərliklərində şimal-qərb küləyinin arabir güclənəcəyi gözlənilir. Dəniz suyunun temperaturu Şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 20-21°, Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 22-23° isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 29-33° isti, dağlarda gecə 8-13° isti, gündüz 18-23°, bəzi yerlərdə 25-28° isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Xəlilova Səkinə Musa qızının adına verilmiş şəhid ailəsi üzvünün 005458 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və qəzetin kollektivi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə əzizi

**İBRAHİM HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri 36 saylı tam orta məktəbin direktoru Gülnarə Cəfərova və məktəbin pedaqoji kollektivi iş yoldaşları

**İRADƏ RƏŞİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 811
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00